# Xalq qəzeti

Xalqın qəzeti!

№ 193 (30887) 11 sentyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Bizdə sənət də var, ona hörmət də!

## Prezident İlham Əliyev Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Yaradıcılıq Evində yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən kompleksin ərazisi 3 hektara yaxındır. Burada "suite" və "standart" tipli olmaqla ümumilikdə 43 otaq var. Kompleksdəki 174 yerlik konfrans zalında müxtəlif tədbirlərin, o cümlədən yaradıcılıq gecələrinin, yazıçılarla görüşlərin və digər mədəni tədbirlərin keçirilməsi mümkün olacaq. Burada kinoteatr, kitabxana, qapalı, həmçinin açıq havada restoranlar, kafe, fitnes zonası da fəaliyyət göstərəcək. Eyni zamanda, futbol, tennis və uşaq oyun meydançaları da istirahət edənlərin ixtiyarına veriləcək.

*(ardı 2-ci səhifədə)*

# Diplomatik fəallığın Azərbaycan modeli



**Beynəlxalq tədbirlərin əhəmiyyəti müzakirə olunan mövzularla məhdudlaşmır, onların keçirildiyi məkan da siyasi, diplomatik və simvolik baxımdan xüsusi diqqət mərkəzində olur. Azərbaycan beynəlxalq tədbirlər üçün ideal mərkəz kimi qəbul edilir. Belə tədbirlərə evsahibliyi ölkəmizin imicinin güclənməsinə, siyasi etimadın artmasına və beynəlxalq əməkdaşlığın üfüqlərinin genişlənməsinə xidmət edir. Tədbirlər çərçivəsində baş tutan qarşılıqlı səfərlər, ikitərəfli və çoxtərəfli görüşlər münasibətlərə yeni istiqamətlər qazandırır.**

*(ardı 7-ci səhifədə)*

# 11 sentyabrdan sonrakı dünya

## *XXI əsrin ilk ilində terrorun sarsıtdığı dəyərlər və yanaşmalar*

**2001-ci ilin 11 sentyabr tarixi beynəlxalq münasibətlər sistemini köklü surətdə dəyişdirən dönüş nöqtəsi oldu. Əl-Qaidənin Nyu-York və Vaşinqtonda həyata keçirdiyi hücumlar ABŞ-ın güc mərkəzlərini –Dünya Ticarət Mərkəzini və Pentaqonu – hədəfə alaraq minlərlə insanın həyatına son qoymaqla yanaşı, beynəlxalq təhlükəsizlik konsepsiyalarını alt-üst etdi. Dünyada bir sual formalaşdı: dövlətlərin bütün hərbi arsenalı, kəşfiyyat şəbəkələri və diplomatik üstünlükləri mövcud olduğu halda, nisbətən kiçik bir qeyri-dövlət aktoru necə bu qədər güclü zərbə vura bildi?**



Əvvəlcə baxaq görək, bu terror aktı dövlətlərin klassik güc anlayışına hansı dərsləri verdi? Ənənəvi olaraq güc dövlətlərin sərhədlərini qorumaq, rəqib ordularla qarşı-qarşıya gəlmək, nüvə balansını saxlamaq üzərində ölçülürdü. Lakin 11 sentyabr göstərdi ki, XXI əsrin təhlükələri klassik parametrlərlə izah oluna bilmir. Tanklar və təyyarələr yeni müharibə modelində çox vaxt simvolik gücə çevrilir, çünki düşmən artıq dövlət deyil, qlobal şəbəkədir. Beləliklə, "asimmetrik təhlükə" anlayışı beynəlxalq münasibətlərdə əsas kateqoriyaya çevrildi.

*(ardı 5-ci səhifədə)*

# Qlobal Cənub və Bakının təşəbbüskar mövqeyi

## *Azərbaycan beynəlxalq siyasətdə yeni ideoloji xətt müəyyənləşdirir*



**XX əsrin ortalarınadək Asiya və Afrika qitələrinin böyük bir hissəsi Avropa imperiyalarının sərt müstəmləkəçilik siyasətinin qurbanı oldu. Ərazilərin işğalı, sərvətlərin talanı, xalqların kimlik və mədəniyyətlərinin sıxışdırılması yüz illərlə davam etdi. Müstəmləkəçilik iqtisadi istismar, sosial inkişafın əngəllənməsi və xalqların taleyində dərin izlər idi. Qlobal Cənub ölkələrinin bu gün də qarşılaşdığı bir çox problemlərin kökləri həmin dövrdən qalır.**

*(ardı 5-ci səhifədə)*

## BMT TŞ-nin "istismar müddəti" başa çatıbmı?



səhifə ⇨ 4

## GALLUP yenə öz ampluasındadır




səhifə ⇨ 4

## Gürcüstan birliyə və milli dəyərlərə arxalanır



Səhifə ⇨ 6

## Yağa tələbatın "ağı"nı necə çıxarıblar?



səhifə ⇨ 13

# Azərbaycan Orta Dəhlizin strateji mərkəzinə çevrilir

Səhifə ⇨ 10

# Prezident İlham Əliyev Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında





**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, kompleksin bu cür müasir səviyyədə inşası ölkəmizdə yaradıcı insanların fəaliyyətinə göstərilən dövlət dəstəyinin növbəti təzahürü olmaqla, ilk növbədə, onların istirahətinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət nəticəsində yaradılmış şərait mədəniyyət və incəsənət sahəsində çalışanların fəaliyyətinin daha da canlanmasına səbəb olmaqla yanaşı, bu sahənin inkişafına mühüm töhfə verir. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində yaradıcı şəxslərin fəaliyyətinin stimullaşdırılması, onların əməyinə yüksək qiymətin verilməsi, sosial təminatlarının, mənzil-məişət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür. Bundan başqa, istirahət və yaradıcılıq imkanlarının genişləndirilməsi məqsədilə yaradıcılıq ittifaqlarının, yaradıcılıq evlərinin və sanatoriyaların fəaliyyəti də dövlət səviyyəsində dəstəklənir.

***AZƏRTAC***



# Hikmət Hacıyevin ABŞ görüşləri




**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Konqresinin Nümayəndələr Palatasının (aşağı palata) Xarici Əlaqələr Komitəsinin sədri Brayan Mast və senator Stiv Dayns ilə görüşüb.**

Bu barədə Azərbaycanın Vaşinqtondakı səfirliyindən məlumat verilib.

Görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ lideri Donald Tramp arasında avqustun 8-də Vaşinqtonda keçirilən sammitin strateji əhəmiyyəti, onun Azərbaycan-ABŞ münasibətləri və regional sülh üçün müsbət nəticələri vurğulanıb.

Azərbaycan Prezidentinin köməkçisi 907-ci maddənin ləğvinin vacibliyini vurğulayıb və parlamentariləri Azərbaycana səfərə dəvət edib.

Qeyd edək ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin üçtərəfli sammiti keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan Ağ Evin rəhbəri Donald Trampın vasitəçiliyi ilə 7 benddən ibarət birgə bəyannamə imzalayıb, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişi paraflayıblar.

***XQ***

# XİN-də ABŞ Dövlət Departamentinin Avrasiya bürosunun rəsmisi ilə görüş

**Sentyabrın 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunun baş rəsmisi Brendan Hanrahan ilə görüşüb.**



Görüş zamanı Azərbaycan-ABŞ münasibətləri, Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupun yaradılması haqqında Anlaşma Memorandumundan irəli gələn məsələlər, Azərbaycan-Ermənistan normallaşma prosesi, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Azərbaycan-ABŞ münasibətlərinin tarixi, bir sıra, o cümlədən təhlükəsizlik, enerji sahələri üzrə qarşılıqlı faydalı əməkdaşlıq ətrafında fikir mübadiləsinin aparıldığı görüşdə, xüsusilə cari ilin avqust ayında reallaşan ali səviyyəli səfərin və təmasların münasibətlərin inkişafında əhəmiyyətli yer tutduğu qeyd edilib.

Vaşinqton görüşü nəticəsində ölkəmizin təşəbbüskarı olduğu Azərbaycan-Ermənistan sülh gündəliyinin irəlilədilməsi istiqamətində əldə edilən tarixi razılıqların, o cümlədən sülh müqaviləsinin paraflanması və keçmiş münaqişənin qalıqları olan strukturların ləğvi üzrə atılan addımların vacibliyi vurğulanıb.

***XQ***

# Asiya Beyin Mərkəzlərinin Bakı iclası başa çatıb



**Bakıda keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Beyin Mərkəzləri Forumunun 13-cü iclası başa çatıb.**

"İnkişaf və Təhlükəsizliyin Rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" mövzusuna həsr olunmuş tədbir Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun təşkilatçılığı ilə baş tutub.

Beynəlxalq Strateji və Təhlükəsizlik Araşdırmaları İnstitutunun direktor müavini, Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun baş elmi işçisi Jao Lonqun moderatorluğu ilə keçirilən plenar sessiyada BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev, AQEM-in Baş katibi Kayrat Sarıbay, Çin Xarici İşlər Nazirliyi (XİN) Avropa və Mərkəzi Asiya İşləri Departamentinin təmsilçisi, səfir Yan Venbin, Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun Prezidenti Çen Donqxiao çıxış ediblər.

Beyin Mərkəzləri Forumunun birinci günü "İnkişaf vasitəsilə təhlükəsizliyin təşviqi - Asiya təhlükəsizlik idarəçiliyinə yeni yanaşmaların tədqiqi"; "Yaşıl və rəqəmsal transformasiya dövründə təchizat zənciri üzrə əməkdaşlıq"; "Avrasiya bağlantılarının gücləndirilməsi: Bir Kəmər, Bir Yol təşəbbüsü (BRI), Orta Dəhliz, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi (INSTC) və digər layihələr" kimi mövzuların müzakirəsinə həsr olunub.

Forumun ikinci günündə isə "AQEM beynəlxalq təşkilat kimi: Transformasiya və potensialın artırılması" mövzusunda sessiya və "Yeni Asiya nizamının formalaşması" mövzusunda tematik panel keçirilib.

***XQ***

# Energetika nazirinin vətəndaşlarla görüşü



**Energetika naziri Pərviz Şahbazov Bakı, Sumqayıt, Gəncə şəhərləri, həmçinin Qusar, Astara rayonlarından olan vətəndaşlarla görüşüb.**

Nazirlikdən bildirilib ki, görüşdə elektrik şəbəkəsinə qoşulma, qaz təchizatı, qaz veriliş xəttinin mühafizə zonası, elektrik və qaz sayğaclarının quraşdırılması, işlə təminat və digər istiqamətlərdə müraciətlər dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

***XQ***

# Heydər Əliyev Fondu Vatikan Apostol Kitabxanası və Apostol Arxivi ilə memorandum imzalayıb





**Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında anlaşma memorandumu imzalanıb.**

Memorandumu Müqəddəs Taxt-Tacda Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Covanni Çezare Paqatzi imzalayıblar.

Sənədin məqsədi elm və tədqiqat sahəsində birbaşa əməkdaşlıq və təcrübə mübadiləsini dəstəkləmək, həmçinin Vatikan arxivlərində Azərbaycan tarixi ilə bağlı sənədlərin araşdırılması, qorunması və rəqəmsallaşdırılmasını təmin etməkdir.

1475-ci ildə təsis edilən Vatikan Apostol Kitabxanası dünyanın ən qədim və nüfuzlu elmi mərkəzlərindən biri hesab olunur. Vatikan Apostol Arxivi isə 1612-ci ildə Papa V Pavelin fərmanı ilə kitabxanadan ayrılaraq müstəqil qurum kimi formalaşıb. Arxiv bu gün dünya üzrə ən mühüm və tədqiqatçılar üçün qiymətli olan tarixi mənbələrdən biri kimi tanınır.

*

**Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın Bambino Gesu pediatrik xəstəxanası arasında əməkdaşlığa dair anlaşma memorandumu da imzalanıb.**

İmzalanma Prezidentin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun Müqəddəs Taxt-Taca səfəri çərçivəsində baş tutub. Sənədi Anar Ələkbərov və Bambino Gesu xəstəxanasının rəhbəri Tiziano Onesti imzalayıblar.

Anlaşma memorandumu çərçivəsində Avropanın ən böyük pediatrik tibb müəssisəsi ilə təlim-tədris proqramlarının həyata keçirilməsi, molekulyar genetika və fərdi tibbi yanaşma sahəsində birgə tədqiqatların aparılması, eləcə də Azərbaycanda müalicəsi mümkün olmayan mürəkkəb klinik halların Bambino Gesu ilə birgə diaqnostikası və müalicəsi nəzərdə tutulur.



1869-cu ildə əsası qoyulan Bambino Gesu xəstəxanası hazırda uşaq xəstəlikləri üzrə Avropanın ən böyük xəstəxanası və tədqiqat mərkəzi, eyni zamanda, bütün növ uşaq orqan, hüceyrə və toxuma transplantasiyasını yerinə yetirmək üçün səlahiyyətli Avropa mərkəzlərindən biridir. Xəstəxana, həmçinin 40-dan çox ölkənin iştirak etdiyi nadir xəstəliklər üçün ən böyük qlobal məlumat bazası olan "Orphanet"in İtaliyadakı qərargahıdır.

XQ

# DİN-də Qazaxıstan heyəti ilə görüş



**Qazaxıstanın daxili işlər nazirinin müavini - Milli Qvardiyanın Baş Komandanı, general-mayor Ansaqan Baltabekovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib. Azərbaycanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov nümayəndə heyəti ilə görüşüb.**

Qonaqları salamlayan nazir hər iki dövlət başçılarının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq Azərbaycan və Qazaxıstan Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın və səmərəli işbirliyinin daha da dərinləşdiyini bildirib. O, ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılan normativ-hüquqi bazanın xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

General-mayor Ansaqan Baltabekov səmimi görüşə və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, təmsil etdiyi qurumun əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və bu istiqamətdə səylərini əsirgəməyəcəklərini qeyd edib.

Səfər çərçivəsində qazaxıstanlı qonaqlar Daxili Qoşunlar və polis orqanlarının fəaliyyəti ilə tanış olublar.

XQ

# Daxili işlər nazirinin sıra baxışı



**Sentyabrın 10-da daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 180 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onlardan 19 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

XQ

# Liderlərin strateji baxışları Azərbaycan–Çin münasibətlərinə təkan verir





**"Dövlət başçıları İlham Əliyev və Si Cinpinin strateji baxışları sayəsində Azərbaycan–Çin münasibətləri davamlı inkişaf edir." Bu fikri Çinin Sıçuan əyalətinin qubernatoru xanım Şi Siaolin Baş nazirin müavini, Azərbaycan–Çin Hökumətlərarası Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.**

Sıçuan əyaləti ilə Azərbaycan arasında yaxşı dostluq münasibətlərinin formalaşdığını diqqətə çatdıran xanım Şi Siaolin 2008-ci ildə döyük dağıntılara səbəb olan zəlzələdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə əyalətin Vençuan bölgəsinin Houba yaşayış məntəqəsində müasir məktəb binasının inşasına maddi yardım ayrıldığını minnətdarlıqla xatırlayıb. O, Sıçuan əyaləti ilə Bakı, əyalətin Mienyan şəhəri ilə Sumqayıt, Lianşan prefekturası ilə Şəki arasında dostluq və tərəfdaşlıq münasibətlərinin qurulduğunu, ötən illərdə Sıçuanda Azərbaycan musiqi gecəsinin keçirildiyini, Sıçuandan olan musiqi qrupunun Şəkidə festivalda iştirak etdiyini, Çenduda "Azərbaycan Ticarət Evi"nin açıldığını, pandemiya dövründə qarşılıqlı yardımlar göstərildiyini diqqətə çatdırıb.

Baş nazirin müavini Şahin Mustafayev Azərbaycanın Çin ilə bütün sahələrdə münasibətlərin dərinləşməsində maraqlı olduğunu, bu kontekstdə Azərbaycan ilə Çinin əyalətləri arasında iqtisadi-ticari, mədəni, elm və təhsil, turizm və digər istiqamətlər üzrə əməkdaşlığın daha da inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb.

Azərbaycan nümayəndə heyəti "Sichuan Sunsync Photovoltaic Technology Co., Ltd." şirkətinin təsisçisi və sədri Sie Yi ilə də görüşüb, iki ölkə arasında iqtisadi əlaqələrdən danışılıb.

Azərbaycanda əlverişli biznes və investisiya mühitinin formalaşdığını diqqətə çatdıran Baş nazirin müavini Ş.Mustafayev əlverişli coğrafi mövqe və nəqliyyat-tranzit dəhlizləri sayəsində Azərbaycanın xarici investorlar üçün cəlbedici ölkə olduğunu, bundan başqa, xüsusi iqtisadi zonalarda, o cümlədən Ələt Azad İqtisadi Zonasında və ölkəmizin sənaye parklarında biznesin həyata keçirilməsi üçün hər cür əlverişli şərait yaradıldığını deyib.

Bu kontekstdə "Sichuan Sunsync Photovoltaic Technology Co., Ltd." şirkətinin Ələt Azad İqtisadi Zonasında günəş panellərinin istehsalı ilə bağlı ən müasir texnoloji standartlara cavab verəcək müəssisə açmaq planının, həmçinin ölkəmizin investisiya potensialının Çinin işgüzar dairələrini Azərbaycana sərmayə yatırmağa təşviq edəcəyinə əminlik ifadə olunub.

Şirkətin təsisçisi və sədri Sie Yi Azərbaycan Prezidenti İlham Əliyevin Çinə sonuncu səfəri zamanı onun rəhbərlik etdiyi heyəti qəbul etməsini məmnunluqla xatırlayıb. "Görüşdə Prezident İlham Əliyevin bizim Ələt AİZ-də müəssisə açmaq planımıza tam dəstək vermesini bildirməsindən sonra Azərbaycana sərmayə yatırmaqda doğru seçim etdiyimizə əmin oldum. Düşünürük ki, Azərbaycanda açacağımız müəssisə başlanğıcdır. Gələcəkdə Azərbaycanı həm şirkətimizin istehsal mərkəzi, həm də yaşıl enerji habı kimi görürük", – deyə Sie Yi bildirib.

Sonra Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu ilə "Sichuan Sunsync Photovoltaic Technology Co., Ltd." arasında Ələt AİZ-də günəş panelləri istehsalı müəssisəsinin yaradılması üzrə İnvestisiya Sazişi imzalanıb.

XQ

# Azərbaycan Ordusunda təcrübi məşğələlər

**Bu ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunda praktiki məşğələlər keçirilib.**

Keçirilən məşğələlərdə əsas diqqət qoşunların döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması, bölmələrin dayanıqlı, fasiləsiz və operativ idarəedilməsinin təmin olunmasına yönəldilib.



Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən verilən məlumata görə, daimi dislokasiya məntəqələrini tərk edərək cəmləşmə rayonlarına çıxarılan bölmələr qarşıya qoyulmuş tapşırıqları normativlərə uyğun yerinə yetiriblər.

Hərbi qulluqçular praktiki məşğələlərin icrası zamanı yüksək peşəkarlıq nümayiş etdiriblər.

XQ



# GALLUP yenə öz ampluasındadır

## Qurumun İrəvan ofisinin rəy sorğuları siyasi maraqlara xidmət edir

**Ermənistanda vaxtaşırı müxtəlif siyasi qüvvələrin və sosial qrupların maraqlarına xidmət edən, ictimai rəyi düzgün əks etdirməyən, nəticələri ciddi şübhə doğuran sosioloji sorğular keçirilir. Bu tip sorğuların, əslində, cəmiyyətin real mövqeyini üzə çıxarmaqdan daha çox müəyyən siyasi dairələrin sifarişini yerinə yetirdiyi təəssüratı yaranır. Əhalinin əksər hissəsinin narazılığına baxmayaraq, nəticələr saxtalaşdırılaraq müxalifətin maraqlarına uyğun təqdim edilir. Belə saxta ictimai rəy sorğuları həm daxili auditoriyanı çaşdırmaq, həm də beynəlxalq aləmdə Ermənistanın mövqeyini gücləndirmək üçün istifadə olunur. Nəticədə sorğu mərkəzlərinə inam getdikcə azalır, ictimaiyyət onları ciddi tədqiqat institut kimi deyil, siyasi texnologiya vasitəsi kimi qəbul etməyə başlayır. Belə sorğu mərkəzlərinin önündə mərkəzi ofisi Vaşinqtonda yerləşən ABŞ-ın "GALLUP International Association" analitika və məsləhət şirkətinin Ermənistan nümayəndəliyi dayanır.**

Nümayəndəliyin rəhbəri Aram Navasardyan bugünlərdə keçirdiyi mətbuat konfransında sorğunun nəticələrini açıqlayıb. O, sorğunun avqustun 25-30-da keçirildiyini, iştirakçıların ümumi sayının 1.101 nəfər olduğunu bildirib. Əlbəttə, bizim üçün daha önəmli məsələ Ermənistan konstitusiyasının dəyişdirilməsi ilə bağlı ölkə əhalisinin mövqeyidir. Navasardyan bildirib ki, rəyi soruşulanların 58 faizi konstitusiyanın dəyişdirilməsinin Ermənistanın daxili işi olduğunu və heç bir ölkənin, o cümlədən Azərbaycanın bu prosesə təsir etmək hüququnun olmadığını ifadə edib. Azərbaycanın Ermənistan konstitusiyasına dəyişiklik edilməsini yekun sülh sazişinin imzalanması üçün şərt adlandırması barədə məlumatlara reaksiya verən respondentlərin 25,1 faizi bunun "növbəti siyasi tələ" olduğunu və bu məsələnin həllindən asılı olmayaraq, Bakının müqaviləni imzalamayacağını bildirib. Bununla belə, 12,2 faiz rəyi soruşulan Azərbaycanla real və uzunmüddətli sülh gətirəcəyi təqdirdə, Ermənistan konstitusiyasına dəyişikliklərin lehinə səs verməyə razı olduğunu vurğulayıb.

Sorğuda bizim üçün önəmli olan digər məsələ Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu (TRIPP – Zəngəzur dəhlizi) adlanan nəqliyyat marşrutuna Ermənistan vətəndaşlarının necə münasibət bəsləməsidir. Məlum olub ki, guya, respondentlərin təxminən 60 faizi Sünik (Zəngəzur) vilayəti ərazisindən Azərbaycana nəqliyyat marşrutunun verilməsinin əleyhinədir.

Sorğuda iştirak edənlərin 47,6 faizi tamamilə bu qərara qarşı çıxıb, digər 11,3 faizi isə kifayət qədər neqativ münasibət bəslədiyini bildirib. Digər tərəfdən, respondentlərin 18,1 faizi ideyaya kifayət qədər müsbət, 17,4 faizi isə tamamilə müsbət yanaşdığını vurğulayıb. Rəyi soruşulanların 5,6 faizi suala cavab verməkdə çətinlik çəkib.

Nəhayət, sorğuda bizim üçün maraq doğuran üçüncü məsələ avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistan Baş naziri Nikol Paşinyanın Vaşinqtonda keçirilmiş görüşünə dair imzalanmış Birgə Bəyannaməyə reaksiya ilə bağlıdır. "Sputnik Ermənistan" agentliyi sevincək olaraq sorğunun bu hissəsinin nəticəsini "Ermənistanda respondentlərin əksəriyyəti Vaşinqton bəyannaməsinə mənfi münasibət bəsləyir" sərlövhəsi ilə tirajlayıb. A.Navasardyan deyib ki, tədqiqatın nəticələrinə görə, respondentlərin 22,8 faizi bəyannaməni tamamilə müsbət, 19,3 faizi isə kifayət qədər müsbət qiymətləndirib. Eyni zamanda, 13,6 faizin münasibəti kifayət qədər mənfi, 34 faizin reaksiyası isə tamamilə mənfi olub. Daha 7 faizi cavab verməkdə çətinlik çəkib, 3 faizdən çoxu isə sənədin mövcudluğundan xəbərsiz olduğunu etiraf edib. "Sorğuda iştirak edənlərin, demək olar ki, yarısı – təxminən 47 faizi bəyannamənin imzalanmasını mənfi qiymətləndirib, lakin respondentlərin 40 faizi bunu kifayət qədər müsbət qəbul edib", – deyə Navasardyan bildirib.

***

Qeyd etdiyimiz kimi, Ermənistanda ictimai rəyin öyrənilməsi adı altında keçirilən sosioloji sorğular artıq uzun müddətdir cəmiyyətin diqqət mərkəzindədir. Bu sorğuların təşkilində əsas məqsədin əhalinin real mövqeyini üzə çıxarmaq yox, müəyyən dairələrin maraqlarına xidmət etmək olduğu açıq-aşkar görünür. Xüsusilə də beynəlxalq imicə hesablanmış bu tip təşəbbüslər, əslində, Ermənistan cəmiyyətindəki narazılığı ört-basdır etmək və kənardan saxta sabitlik təəssüratı yaratmaq üçün istifadə olunur. GALLUP-un Ermənistan nümayəndəliyinin rəhbəri A.Navasardyanın açıqladığı nəticələr də bunun bariz nümunəsidir. Çox az sayda insanın rəyini əks etdirən bu sorğuda konstitusiya dəyişikliklərindən tutmuş Zəngəzur dəhlizinə, Vaşinqton görüşünə münasibətədək bir sıra məsələlər barədə rəqəmlər təqdim edilib. Amma sual yaranır: cəmiyyətin həqiqi mövqeyini tam əks etdirməyən, məhdud sayda iştirakçının rəyi əsasında təqdim olunan bu nəticələr nə dərəcədə etibarlıdır?




Konstitusiya dəyişiklik edilməsi məsələsində göstərilən faizlər xüsusilə diqqət çəkir. Guya, əhalinin 58 faizi bu prosesi Ermənistanın daxili işi kimi qiymətləndirib. Amma heç kəsə sirr deyil ki, İrəvanda küçə sorğusu aparılsa, vətəndaşların əksəriyyəti dövlətin əsas qanununda dəyişiklikləri prioritet saymaz. Onlar daha çox gündəlik güzərandan, sosial təminatdan, işsizlikdən danışar. Bu halda belə bir mövzunun geniş şəkildə müzakirəyə çıxarılması daha çox siyasi sifariş təsiri bağışlayır. Əhalinin maraqlarından çox, müxalifətin özünü doğrultmaq cəhdini xatırladır.

Azərbaycanla sülh məsələsinə gəlincə, burada da ziddiyyətli mənzərə göz önünə çıxır. Respondentlərin 25 faizinin Bakı heç bir halda müqavilə imzalamayacaq düşüncəsinə qapılması erməni cəmiyyətində kök salmış pessimizmin təzahürüdür. Halbuki, bu gün bölgədə əsas məsələ real və davamlı sülhün təmin edilməsidir. Maraqlıdır ki, sorğu iştirakçılarının az bir qismi – 12 faizdən bir qədər çoxu – Konstitusiya dəyişikliklərinin sülhə xidmət edəcəyi təqdirdə buna razı olduqlarını bildiriblər. Bu, Ermənistanda hələ də sağlam düşünən, gələcəyini barışıqda görən insanların varlığını göstərir. Amma onların səsi çox vaxt siyasi arenada eşidilmir, çünki quru statistika oyunları həmin rəyləri kölgədə qoyur.

Daha bir diqqətçəkən məqam ABŞ Prezidenti Donald Trampın təşəbbüsü kimi təqdim olunan nəqliyyat marşrutu ilə bağlıdır. Rəqəmlərə görə, ermənilərin əksəriyyəti bu marşrutun əleyhinədir. Amma təcrübə göstərir ki, Ermənistan cəmiyyəti illərlə informasiya təcridində saxlanılıb. İnsanlar region üçün həyati əhəmiyyət kəsb edən kommunikasiya xətlərinin açılmasının hansı iqtisadi faydalar gətirəcəyindən xəbərsizdir. Məhz bu səbəbdən sualı cavablandıranların çoxu ehtiyatlı, bəziləri isə radikal mövqedən çıxış edir. Halbuki, regionun gələcəyi məhz açıq sərhədlərdən, maneəsiz yük və sərnişin daşımalarından keçir. Bu gerçəklik nə qədər gizlədilsə də, zamanla hər kəsin gözündə aydınlaşacaq.

Vaşinqton görüşü ilə bağlı nəticələr də ziddiyyətlidir. Ermənistanda bəyanata mənfi münasibətin daha çox olduğu göstərilir. Amma təhlil edəndə görürsən ki, əslində, sorğu iştirakçılarının 40 faizə yaxını sənədi müsbət qarşılayıb. Bu isə cəmiyyətin az qala yarısının sülh və əməkdaşlıq perspektivinə ümidlə baxdığını ortaya qoyur. Burada diqqəti çəkən başqa bir məqam isə odur ki, 3 faiz insan ümumiyyətlə, sənədin mövcudluğundan xəbərsiz olub. Bu fakt Ermənistan mediasının informasiya siyasətini açıq şəkildə ifşa edir. Görünür, daxildə hələ də kütləvi şüurun formalaşmasına mane olan qüvvələr var. Onlar ictimai rəyi təhrif etməklə sülhün qarşısını almağa çalışırlar.

***

Maraqlıdır ki, bu cür sorğuların nəticələri daha çox ictimai rəyin ifadəsi kimi təqdim olunur. Halbuki, heç kimə sirr deyil ki, 3 milyonluq ölkədə cəmi min nəfərlə aparılan sorğu ümumi mənzərəni göstərə bilməz. Bu, sadəcə rəqəmlərdən ibarət bir mənzərə yaradaraq siyasi məqsədlər üçün istifadə edilir. Cəmiyyətin əksəriyyətinin səssizliyi isə heç bir statistikada nəzərə alınmır. Onlar bəlkə də nə Konstitusiya dəyişikliklərinə, nə də dəhliz məsələsinə münasibət bildirmək istəmir, sadəcə normal, təhlükəsiz və firavan həyat arzulayırlar.

Beləliklə, Ermənistanda aparılan bu tip sorğular reallığı əks etdirməkdən çox uzaqdır. Əksinə, onlar müxtəlif dairələrin maraqlarını təmin edən alət rolunu oynayır. Əhalinin real hiss və düşüncələri isə kənarda qalır. Sorğuların nəticələrinə şübhə ilə yanaşmaq üçün kifayət qədər əsaslar var. Çünki xalqın gündəlik həyatında hökm sürən çətinliklər bu rəqəmlərdə əksini tapmır. Əhalinin böyük qismi işsizlik, yoxsulluq, sosial təminat problemləri ilə üz-üzədir. Bu şəraitdə konstitusiya dəyişikliyi və ya Zəngəzur dəhlizi barədə mübahisələr onların həyatını dəyişmir. Amma bu məsələlər üzərində qurulan saxta rəqəmlər daxili auditoriyanı çaşdırmaq məqsədi daşıyır. Sorğular həm də Ermənistan cəmiyyətindəki ziddiyyətləri gizlətməyə xidmət edir. Amma statistika reallığı dəyişə bilməz. Ermənistanın gələcəyi açıq şəkildə sülhə, əməkdaşlığa və normal qonşuluq münasibətlərinə bağlıdır. Cəmiyyət bu həqiqəti nə qədər tez dərk etsə, ölkə böhrandan bir o qədər tez çıxacaq.

***Səxavət HƏMİD***
***XQ***

# BMT TŞ-nin "istismar müddəti" başa çatıbmı?

## *"Supergüclər" bu qurumun qərarlarını saya salmır*

**"Hesab edirik ki, Qlobal Cənub ölkələri yeni, ədalətli dünya nizamının formalaşdırılmasında yaxından iştirak etməli və bu işə öz töhfələrini verməlidirlər. Bu xüsusda, BMT-də müvafiq islahatların aparılması, Təhlükəsizlik Şurasının (TŞ) daimi üzvləri sırasında Qlobal Cənub ölkələrinin təmsil olunmasının təmin edilməsi çox vacibdir. TŞ artıq günümüzün reallıqları ilə uzlaşmayan təsisata çevrilib".**

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına müraciətində yer alıb. Dövlət başçısı qeyd edib ki, Azərbaycan vaxtilə işğal olunmuş torpaqlarının azad edilməsinə çağıran, amma, sadəcə, kağız üzərində qalmış BMT TŞ-nin qətnamələrinin icrasını özü təmin etmiş bir ölkə kimi bunu çox gözəl anlayır.



Dünyada gedən proseslər, beynəlxalq düzəndə baş verənlər onu göstərir ki, BMT Təhlükəsizlik Şurası (TŞ) artıq bugünün tələblərinə tam cavab vermir. TŞ-nin daimi üzvləri (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin) 1945-ci ilin reallıqlarına uyğun seçilmişdi. Bu gün isə siyasi və iqtisadi baxımdan həmin bölgü problemlərin həllində acizlik göstərir. Daimi üzvlərin veto hüququndan öz siyasi ambisiyaları üçün istifadə etdikləri sirr deyil. Bu isə qlobal problemlərin həllini daha da çətinləşdirir. Münaqişələrin qarşısının alınması və ya humanitar fəlakətlər zamanı TŞ-nin tez-tez iflic vəziyyətinə düşməsi bu qurumda islahatların aparılmasına ehtiyac olduğunu göstərir. Prezident İlham Əliyev bu aktual məsələni dəfələrlə gündəmə gətirib. Xüsusilə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkə başçısı BMT-nin bəşəriyyətin gözləntilərinə cavab vermədiyini, təşkilatda islahatların qaçılmaz olduğunu vurğulayıb. O, Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsini və onun coğrafi baxımdan daha ədalətli təmsilçiliyini dəstəklədiyini bildirib.

***

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu problemi hələ 2013-cü ildə BMT-nin Nyu-Yorkda keçirilən 74-cü Baş Assambleyasında səsləndirmişdi. Onun məşhur "dünya beşdən böyükdür" ifadəsi məhz orada diqqətə çatdırılmışdı. Qısa müddətdə bu ifadə geniş rezonans doğurdu və siyasətçilərin tezisinə çevrildi. Dost və qardaş ölkənin liderinin bu fikrini bir çox siyasətçilər bəyənsə də, buna ən gözəl dəstək Prezident İlham Əliyevdən gəlmişdi. Dövlətimizin başçısının fikrincə, BMT TŞ-da Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və Afrika İttifaqına sədrlik edən ölkələr rotasiya əsasında veto hüququ ilə təmsil olunmalıdır.

Həqiqətən, əgər BMT-də islahatlar baş verəcəksə, Qlobal Cənub ölkələri burada rol oynamalıdır. Qoşulmama Hərəkatına sədrlik edən ölkənin Təhlükəsizlik Şurasında daimi təmsilçiliyi təmin edilməlidir. Digər tərəfdən, dünyada müsəlman ölkələrinin əhalisi və əhatə dairəsi kifayət qədər genişdir. Bu dövlətlər beynəlxalq münasibətlərin formalaşmasında mühüm rol oynayırlar. Belə olduqda İslam coğrafiyasının səsini Təhlükəsizlik Şurasında eşitdirmək, bu dövlətlərin üzləşdiyi problemləri və ədalətsizlikləri qlobal gündəmə çıxarmaq vacibdir. Eyni zamanda, dünyanın ikinci ən böyük materiki olan Afrika qitəsi də xüsusilə vurğulanmalıdır. Onlarla dövlətin birləşdiyi bu qitə həm təbii sərvətləri, həm də sürətlə inkişaf edən siyasi-iqtisadi potensialı ilə beynəlxalq sistemdə əhəmiyyəti artıb.

***

TŞ Birləşmiş Millətlər Təşkilatının əsas icraedici orqanı kimi ən mühüm vəzifəsi beynəlxalq sülh və təhlükəsizliyi qorumaqdır. Əslində, təsisat silahlı toqquşmaların qarşısını almaq üçün tədbirlər görməlidir. Bununla yanaşı, qurum sülh müqavilələrinin hazırlanmasına və imzalanmasına da nəzarət etməlidir. Amma Azərbaycan nə işğal, nə də postmüharibə dövründə BMT-dən belə bir yanaşma görüb. BMT TŞ Azərbaycan-Ermənistan münaqişəsinə münasibətdə obyektiv və ədalətli mövqe sərgiləməyib. Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etsə də, onların icrasına üçün lazım olan addımı atmayıb. Bu, açıq-aşkar qərəzli yanaşma idi. Çünki TŞ lazım olduğu təqdirdə qəbul etdiyi qətnamələri bir neçə günə işə salmağı da bacarır. Amma Azərbaycan torpaqlarının 20 faizinin uzun illər işğal altında qalması faktına göstərilən biganə münasibət ikili standartların bariz nümunəsi idi. ATƏT kimi TŞ də Qarabağda status-kvonu dəyişməkdə maraqlı olmayıb. Əgər işğal bundan sonra daha 30 il də davam etsəydi TŞ Ermənistan əleyhinə ciddi bir yanaşma ortaya qoymayacaqdı. Fransanın TŞ-də daimi üzv olması kifayət edər ki, rəsmi İrəvan daha uzun illər Qarabağı nəzarət altında saxlasın.

Azərbaycan 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan azad edərək, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin icrasını özü təmin edib. Ermənistan həm Birinci, həm də İkinci Qarabağ müharibəsi zamanı BMT Nizamnaməsinin 2-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulmuş beynəlxalq mübahisələrin dinc yolla həlli prinsiplərini, eləcə də güc tətbiq etməmək və tətbiq etməklə hədələməmək prinsiplərini kobud şəkildə pozub. Beynəlxalq hüququn bərpası və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası məqsədilə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə əsaslanaraq özünümüdafiə hüququndan istifadə edərək Ermənistanı sülhə məcbur etdi. Bu gün region üçün ən aktual məsələ Ermənistan və Azərbaycan arasında sülh prosesinin irəliləməsidir. Avqustun 8-də Ağ Evdə Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması həm bölgə, həm də daha geniş coğrafiya üçün əlverişli imkanlar yaradır. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə paraflanan müqavilə iki ölkə arasında yeni səhifə açıb. Qeyd edildiyi kimi, sülh müqavilələrinin hazırlanması və imzalanmasına nəzarət etməli olan BMT TŞ bu prosesdə "ofsaydda" qaldı.

Sonda onu da qeyd edək ki, TŞ-nin vahid mövqe nümayiş etdirməsi son dövrlər, demək olar ki, mümkün olmayıb. Bunun əsas səbəbi daimi üzvlərin qlobal siyasi arenada bir-birilərinə rəqib olmasıdır. ABŞ, Rusiya, Çin, Böyük Britaniya və Fransa kimi daimi üzvlər bir çox məsələlərdə müxtəlif fərqli yanaşmalar və mövqelər ortaya qoyurlar. TŞ-nin səmərəliliyini azaldan əsas səbəblərdən biri məhz budur.

***Musa BAĞIRLI***
***XQ***

### Ekspert rəyi

**Tural İSMAYILOV,**
**politoloq**



Qlobal Cənub ölkələri yeni ədalətli dünya nizamının formalaşdırılması prosesində fəal iştirakla öz töhfələrini verməkdədir. Bu mənada BMT-də islahatların aparılması, xüsusilə Təhlükəsizlik Şurasının (TŞ) daimi üzvləri sırasında Qlobal Cənub ölkələrinin təmsilçiliyinin təmin olunması aktualdır. Hazırkı TŞ strukturu günümüzün beynəlxalq siyasi reallıqlarını əks etdirmir və buna görə yenilənməlidir. Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi ilə bağlı TŞ-nin 1993-cü ildə qəbul etdiyi qətnamələrin kağız üzərində qalması bu strukturun təsisat kimi nə qədər köhnəldiyini göstərir. Azərbaycan özü məhz bu məsələni praktiki şəkildə həll edərək suverenliyini bərpa etdi. Ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda təşviq etdiyi sülh gündəliyi xarici siyasətimizin əsas istiqamətlərindən birinə çevrilib. Bu yanaşma regional sabitlik üçün əsasdır və Azərbaycanın qlobal siyasətdə nüfuzunu artırır.

Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması həm bölgə, həm də daha geniş geosiyasi coğrafiya üçün yeni imkanlar yaradır. Saziş münaqişələrin həllində dialoqun gücləndirilməsinə, regional tərəfdaşlıq imkanlarının genişlənməsinə şərait yaradır. Bu kontekstdə Azərbaycanın diplomatik fəaliyyəti Qlobal Cənub ölkələrinin təmsilçiliyinin artırılması ilə beynəlxalq münasibətlərdə haqq-ədalətin bərqərar olması üçün nümunə ola bilər. Azərbaycanın təcrübəsi suverenlik prinsiplərinin qorunması, qlobal ədalət və bərabərliyin həyata keçirilməsi baxımından da öyrənilməli dərsdir. Beynəlxalq arenada Azərbaycanın sülh və sabitlik çağırışları Qlobal Cənubun mövqeyinin möhkəmlənməsində katalizator rolunu oynayır. Ölkəmizin diplomatik təşəbbüsləri yeni dünya nizamının yaradılmasında Qlobal Cənubun fəal iştirakını stimullaşdırır.

# 11 sentyabrdan sonrakı tarix



**(əvvəli 1-ci səhifədə)**

Hücumdan dərhal sonra ABŞ-ın verdiyi cavab yalnız hərbi, psixoloji və siyasi aspektdə idi. Ağ Ev bu hadisəni birbaşa “müharibə aktı” kimi qiymətləndirdi və beləliklə, beynəlxalq hüququn ənənəvi çərçivələri ilə yeni reallıq arasında gərginlik yarandı. Müharibənin tərəfi kimi dövlət yox, qlobal şəbəkə elan olunmuşdu. Bu isə hüquqi və siyasi baxımdan paradoks idi: dövlətlərarası sistem qeyri-dövlət aktoruna qarşı necə müharibə aparacaq?

Bəs ABŞ-ın “qlobal terrora qarşı müharibə” elan etməsi beynəlxalq nizamı hansı istiqamətdə dəyişdirdi? Belə yanaşma beynəlxalq münasibətlərdə yeni bir mərhələ açdı: qlobal təhlükəsizlik daha çox Vaşinqtonun tərif etdiyi prinsiplərə bağlandı. NATO öz tarixində ilk dəfə “5-ci maddə”ni işə salaraq ABŞ-a hücumu bütün alyansa hücum kimi qəbul etdi. Burada həmrəylik görüntüsü ilə yanaşı, ABŞ-ın hərbi gücünü legitimləşdirən bir çərçivə mövcud idi. Lakin eyni zamanda, bu siyasət birtərəfli addımların əsasını qoydu və nəticədə beynəlxalq hüququn universallığı ciddi şəkildə sarsıldı.

Hadisənin qlobal təsirləri bununla məhdudlaşmadı. Dünyanın hər yerində təhlükəsizlik siyasəti yeni əsaslar üzərində qurulmağa başladı. Dövlətlər sərhədləri, hava limanlarını, maliyyə sistemlərini və hətta virtual məkanı daha ciddi nəzarət altına aldılar. “Milli təhlükəsizlik” anlayışı artıq cəmiyyətin gündəlik həyatının idarə olunması ilə əlaqələndirildi. Vətəndaş azadlıqları ilə təhlükəsizlik tələbləri arasında yeni bir tarazlıq məsələsi ortaya çıxdı.

11 sentyabr hadisəsi demokratik cəmiyyətlərdə hansı ziddiyyətləri kəskinləşdirdi?

Qeyd etməliyik ki, demokratik rejimlərdə dövlət vətəndaşların hüquq və azadlıqlarını qorumaqla yanaşı, təhlükəsizliyini də təmin etməlidir. Lakin 11 sentyabr sonrası bu iki prinsip arasında balans getdikcə pozuldu. Dövlətlərin izləmə sistemlərini genişləndirməsi, şəxsi məlumatların toplanması, hava nəqliyyatında sərtləşdirilmiş qaydalar vətəndaşların gündəlik həyatında “təhlükəsizlik nəzarəti”ni adi hala çevirdi. Belə vəziyyət “azadlıq qarşılığında təhlükəsizlik” dilemmasını ortaya çıxardı və nəticədə bir çox demokratik ölkədə vətəndaşların dövlətdən gözləntiləri dəyişdi.

İlk mərhələnin ən vacib dərsi bu oldu: 11 sentyabr qlobal siyasətə yalnız yeni müharibə anlayışını gətirmədi, həm də dövlətlə vətəndaş arasında mövcud müqaviləni yenidən yazdı. Təhlükəsizlik mədəniyyəti gündəlik həyatın ayrılmaz hissəsinə çevrildi, beynəlxalq münasibətlər isə artıq yalnız dövlətlərin deyil, qeyri-dövlət aktorlarının diktə etdiyi reallıqlar üzərində qurulmağa başladı.

***

11 sentyabr terrorunun ilk şok dalğasından sonra ABŞ-ın reaksiyası sürətli və qəti oldu. 2001-ci ilin oktyabrında Əfqanıstanda başlanılan hərbi əməliyyat Vaşinqton üçün həm simvolik, həm də strateji addım idi. Məqsəd sadə görünürdü: Taliban rejimini devirmək, Əl-Qaidənin infrastrukturunu dağıtmaq və beynəlxalq terrora qarşı müharibənin ilk zəfərini qazanmaq. İlk aylarda bu məqsədlərə nail olundu; Taliban paytaxt Kabildən uzaqlaşdırıldı, Əl-Qaidənin açıq fəaliyyət imkanları azaldıldı. Lakin qısa müddət sonra ABŞ və müttəfiqləri üçün bir sual açıq qaldı: hərbi zəfər siyasi sabitlik gətirirmi?

Əfqanıstan əməliyyatının ilk uğurları uzunmüddətli nəticələrdə niyə sabitlik yaratmadı? Problemin kökü ondaydı ki, hərbi əməliyyatlar terror şəbəkələrini məhv edə bilsə də, dövlət quruculuğu və cəmiyyətin siyasi inteqrasiyası kimi məsələlər diqqətdən kənarda qalırdı. Əfqanıstan cəmiyyətində etnik parçalanma, iqtisadi gerilik və yerli tayfa strukturları beynəlxalq müdaxilənin dayanıqlılığını zəiflətdi. ABŞ və NATO daha çox hərbi üstünlüyə güvənirdi, halbuki siyasi legitimlik və lokal idarəçilik sistemi olmadan qazanılan hərbi nailiyyətlər qısaömürlü idi.

Bir neçə ildən sonra İraq əməliyyatı bu reallığı daha kəskin şəkildə üzə çıxardı. 2003-cü ildə ABŞ və müttəfiqləri kütləvi qırğın silahları ittihamı ilə Bağdada hücum etdilər. Amma sonda həmin silahların mövcudluğu sübut olunmadı, Səddam Hüseyn rejimi devrildi. Qısamüddətli hərbi uğur bu dəfə daha böyük siyasi xaosun qapısını açdı. İraq yeni qlobal güc balansında böyük bir sınaq meydanına çevrildi: şiə-sünni qarşıdurmaları, etnik parçalanmalar, terror qruplarının yenidən formalaşması və ABŞ-ın regiondakı nüfuzunun ciddi zədələnməsi.

İraq müharibəsi ABŞ-ın beynəlxalq nüfuzuna necə təsir göstərdi? ABŞ-ın legitimlik problemi bu müharibədə özünü tam göstərdi. BMT-nin açıq mandatı olmadan aparılan əməliyyat beynəlxalq hüququn ikili standartlarla işlədiyini sübut etdi. Qərb dünyasında belə ictimai etimad ciddi şəkildə sarsıldı, qlobal Cənub isə Vaşinqtonun siyasətini neokolonial niyyət kimi dəyərləndirdi. Nəticədə ABŞ “azadlıq ixrac edən güc” imicini itirdi və “öz maraqları üçün qaydaları pozan hegemon” obrazına yaxınlaşdı. Həmin vəziyyət yeni çoxqütblü münasibətlər sisteminin formalaşmasını sürətləndirdi.

Əfqanıstan və İraq əməliyyatları həm də regionun daxili dinamikalarını dəyişdi. İrandan tutmuş Türkiyəyə qədər bütün regional güclər yaranmış boşluqlardan istifadə etməyə çalışdı. İran şiə qrupları vasitəsilə İraqda təsirini gücləndirdi, Türkiyə isə həm İraq, həm də Əfqanıstan siyasətində aktiv rol oynamağa başladı. Mövcud vəziyyət bir sualı aktuallaşdırdı: ABŞ-ın müdaxilələri regionda sabitlik gətirmək əvəzinə yeni güc boşluqları yaratdımı? Bəli, yaranmış boşluqlar regional güclərin rəqabətini daha da kəskinləşdirdi. Əgər ABŞ-ın məqsədi qlobal təhlükəsizliyi artırmaq idisə, nəticədə əldə olunan yalnız geosiyasi qarışıqlıq və radikalizmin yeni formalarının ortaya çıxması oldu və bu proses sonradan İŞİD kimi təşkilatların yaranması üçün münbit zəmin yaratdı.

Beləliklə, Əfqanıstan və İraq müharibələri göstərdi ki, qlobal gücün hərbi resursları çox olsa da, siyasi nəticə əldə etmək yalnız silahla mümkün deyil. Əksinə, müharibələrdən sonra yaranan idarəçilik böhranı ABŞ-ın hegemon mövqeyinə qarşı beynəlxalq etirazları gücləndirdi və alternativ güc mərkəzlərinin formalaşmasına təkan verdi.

***

Əfqanıstan və İraq əməliyyatlarının uzanan nəticələri yalnız Yaxın Şərqdə yox, bütün beynəlxalq sistemdə güc nisbətlərini dəyişməyə başladı. ABŞ-ın “qlobal terrora qarşı müharibə” adı altında həyata keçirdiyi addımlar ilk mərhələdə hegemonluğunu möhkəmləndirmiş kimi görünürdü. Amma çox keçmədən bu siyasət həm onun hərbi gücünün məhdudiyyətlərini, həm də beynəlxalq legitimlik problemlərini açıq şəkildə göstərdi. Məhz bu zəiflik anından istifadə edən Rusiya və Çin kimi güclər öz geosiyasi mövqelərini yenidən qurmağa başladılar.

Rusiyanın reaksiyası xüsusilə maraqlı idi. 2000-ci illərin əvvəllərində Moskva Vaşinqtonla əməkdaşlığa müəyyən ümidlə yanaşırdı; hətta 11 sentyabrdan sonra NATO-nun Əfqanıstan əməliyyatına müəyyən dəstək verdi. Lakin İraq müharibəsi göstərdi ki, ABŞ beynəlxalq hüququ və BMT mexanizmlərini kənara qoyaraq birtərəfli addımlar ata bilər. Vəziyyət Rusiyada “ABŞ-ın qaydaları öz maraqlarına uyğun diktə etdiyi” qənaətini gücləndirdi. Beləliklə, Moskva 2007-ci ildən başlayaraq Münhen çıxışı ilə açıq şəkildə yeni çoxqütblü düzən çağırışını irəli sürdü. Yanaşmanın arxasında sadə bir sual dayanırdı: əgər ABŞ beynəlxalq hüququ pozmaqla özünü legitim hesab edirsə, nəyə görə digər güclər də öz maraqlarını eyni üsulla müdafiə edə bilməsinlər?

Bunu da aydınlaşdırmaq lazımdır ki, bəs ABŞ-ın müdaxilə siyasəti Rusiya üçün hansı strateji fürsətləri yaratdı? Birincisi, Vaşinqtonun Yaxın Şərqdə ilişib qalması Moskvanın postsovet məkanında təsirini artırması üçün əlverişli imkan yaratdı. Gürcüstan, Ukrayna və Orta Asiya istiqamətlərində Rusiya daha sərt siyasət yürütməyə başladı. İkincisi, enerji bazarlarında qiymətlərin yüksəlməsi Kremlə iqtisadi resurslar qazandırdı və bu da hərbi-siyasi gücün bərpasına şərait yaratdı. Çinin reaksiyası isə fərqli istiqamətdə inkişaf etdi. Pekin Vaşinqtonun Yaxın Şərqdəki müdaxilələrini sakit şəkildə izləyərək öz iqtisadi yüksəlişinə fokuslandı. ABŞ-ın hərbi resurslarının böyük hissəsi Yaxın Şərqdə ilişib qaldığı dövrdə Çin qlobal istehsal mərkəzinə çevrildi. Belə vəziyyət bir siyasi sual doğurur: ABŞ-ın 11 sentyabr sonrası strategiyası təsadüfən Çin üçün “strateji fürsət pəncərəsi”nə çevrilmədimi? Bəli, əslində ABŞ-ın Yaxın Şərqdə uzunmüddətli hərbi əməliyyatlara cəlb olunması Pekinin əlini gücləndirdi. ABŞ-ın diqqəti terrora qarşı müharibəyə yönəlmişdi, Çin isə “sakit yüksəliş” strategiyası ilə həm iqtisadi gücünü, həm də siyasi təsir imkanlarını artırdı və bu proses 2020-ci illərə doğru ABŞ–Çin rəqabətinin əsasını təşkil etdi.

Region səviyyəsində isə tamamilə yeni bir mənzərə formalaşdı. İran-İraq müharibəsindən sonra şiə qrupları vasitəsilə təsir dairəsini genişləndirdi və faktiki olaraq



Bağdad üzərində siyasi nüfuza sahib oldu. Bunlar Tehranın bölgədəki nüfuzunu misli görünməmiş səviyyədə artırdı. Səudiyyə Ərəbistanı və körfəz ölkələri isə ABŞ-a güvənməyin etibarlılığı ilə bağlı suallar qaldırdılar. ABŞ-ın Yaxın Şərqdəki müdaxilələri regional güclərin rəqabətini necə dəyişdirdi? Vaşinqtonun yaratdığı güc boşluqları region ölkələrini yeni balans axtarışına məcbur etdi. İran nüfuzunu genişləndirdi, Türkiyə regional vasitəçi və hərbi aktora çevrildi, Səudiyyə Ərəbistanı isə həm İranla rəqabətdə, həm də ABŞ-dan asılılıq dilemmasında daha sərt addımlar atmağa başladı. Beləliklə, ABŞ-ın “sabitlik gətirmək” niyyəti, əksinə, regionu daha mürəkkəb rəqabətin mərkəzinə çevirdi.

Nəticədə, 11 sentyabr hadisələri yalnız qlobal terrora qarşı mübarizənin başlanğıcı olmadı, həm də beynəlxalq sistemdə yeni qütbləşmənin təməlini qoydu. Rusiya və Çin ABŞ-ın zəifliklərini öz güclənmələri üçün imkan kimi dəyərləndirdi, Yaxın Şərqdə isə regional güclər tarixi rəqabətlərini yeni şərtlərdə davam etdirdilər. Dünyada “vahid hegemon” reallığı zəiflədikcə, çoxqütblü sistemin əsas konturları formalaşmağa başladı.

Bu mənada, 11 sentyabr həm dövlətlər, həm də cəmiyyətlər üçün bir sınaq oldu: demokratiyanı qorumaqla təhlükəsizlik təmin edilə bilərmi, yoxsa qorxu siyasəti qalib gələrək avtoritar tendensiyaları gücləndirəcəkmi? Cavab hələ də axtarılır, amma aydın olan budur ki, 11 sentyabr qlobal siyasəti yalnız keçmişdə deyil, elə bu gün də müəyyənləşdirən başlıca amillərdən biridir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Qlobal Cənub və təşəbbüskar Bakı

**(əvvəli 1-ci səhifədə)**

Sentyabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyevin AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına ünvanladığı, “İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə” mövzusuna həsr olunmuş müraciətində vacib məqamlardan biri xüsusi önəm daşıyır: “Qlobal Cənubun tarixən üzləşdiyi ədalətsizliklərdən biri də Asiya və Afrika xalqlarının taleyində ağrılı izlər buraxmış müstəmləkəçilik siyasəti olmuşdur. Azərbaycan müasir dövrdə müstəmləkəçiliyin utancverici mirasının aradan qaldırılması və neokolonializm təzahürlərinin ifşa olunması sahəsində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Biz bu vacib məsələ ilə əlaqədar beynəlxalq həmrəyliyin səfərbər edilməsi yolunda səylərimizi bundan sonra da qətiyyətlə davam etdirəcəyik”.

Burada söhbət Azərbaycanın beynəlxalq siyasətində yeni ideoloji xəttin təqdimatından gedir. İki məqam diqqəti cəlb edir: birincisi, müstəmləkəçilik və onun mirasının qlobal ədalətsizliklərin mənbəyi kimi təqdim edilməsi və Azərbaycanın bu məsələdə liderlik iddiası ilə çıxış etməsi. Əslində, bu yanaşma son illər ölkəmizin xarici siyasət kursunda özünü daha qabarıq formada göstərir.

Mövcud reallıqda neokolonializm, sadəcə, tarixi yaddaşda qalmış anlayış deyil. Beynəlxalq münasibətlərdə maliyyə tələbləri, resurs asılılığı və qeyri-bərabər iqtisadi şərtlər yeni müstəmləkə mexanizmini formalaşdırır. Məsələn, Afrika İttifaqının hesabatına görə, 2024-cü ildə qitənin xarici borcu 1,1 trilyon dollara çatıb, bunun 60 faizi isə yüksək faizli kreditlərin hesabına formalaşıb. Asiya ölkələrinin bəzilərində isə ixracın 40 faizdən çoxu hələ də sabiq müstəmləkə güclərinin bazarlarına bağlıdır. Rəqəmlər göstərir ki, neokolonial münasibətlər sadəcə siyasi ritorika deyil, gündəlik iqtisadi reallıqdır.

Azərbaycan bu fonda özünü fərqli təqdim edir. Qoşulmama Hərəkatında fəal fəaliyyət göstərən rəsmi Bakı müstəmləkəçiliyin qalıqlarına qarşı vahid mövqenin formalaşdırılmasına çalışır. Təkcə 2019–2023-cü illər arasında Azərbaycan Hərəkat çərçivəsində 120-dən çox tədbirə ev sahibliyi edib və bir neçə qətnamənin qəbuluna təşəbbüs göstərib.

Eyni zamanda, iqtisadi diplomatiya da bu siyasətin təməl sütunlarından biridir. Azərbaycanın Afrika ilə ticarət dövriyyəsi



2024-cü ildə 1,3 milyard dollara çatıb ki, bu da beş il əvvəlki göstəricidən təxminən üç dəfə çoxdur. Asiya ilə yalnız enerji sahəsində deyil, həm də logistika və nəqliyyat dəhlizlərində əməkdaşlıq genişlənir. Orta Dəhliz layihəsi üzərindən Çin–Azərbaycan–Türkiyə xəttində daşınan yüklərin həcmi 2024-cü ildə 3,2 milyon ton təşkil edib ki, bu da əvvəlki ilə nisbətən 35 faiz artım deməkdir. Bu faktlar Prezidentin tezisini konkret iqtisadi alternativlər fonunda gücləndirir.

Azərbaycanın COP29-a ev sahibliyi etməsi də Qlobal Cənubun maraqlarına xidmət edir. Çünki iqlim gündəliyində ən çox zərər çəkən məhz inkişaf etməkdə olan ölkələrdir. Beynəlxalq hesabatlara görə, iqlim dəyişmələrinin fəsadlarından ən çox təsirlənən 20 ölkənin 15-i Afrika və Asiyada yerləşir. Bakı bu mövzunu “ədalətli keçid” şüarı ilə gündəmə gətirərək, Qlobal Cənubun səsinin qlobal tribunada eşidilməsini təmin etmək niyyətindədir.

Prezidentin vurğuladığı “beynəlxalq həmrəyliyin səfərbər edilməsi” çağırışı həm siyasi, həm də praktiki planda ciddi əhəmiyyət kəsb edir. Bu çağırış Azərbaycanın qlobal miqyasda fikir formalaşdıran dövlət olmağa çalışdığını göstərir. Son illər ölkəmizin bu müstəvidə fəallığı konkret addımlarda özünü göstərib. Rəsmi Bakı həm Uzaq Şərqdə, həm də ərəb dünyasında diplomatik və iqtisadi yaxınlaşmanı gücləndirib. Vyetnamla münasibətlər mayın 7-də Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamı qəbul etməsi və “Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat”ın imzalanması fonunda yeni müsbət impulslar qazandı. Həmçinin enerji, ədliyyə və müdafiə sahələrində sənədlər mübadiləsi, eləcə də 2025–2027-ci illər üçün 17 mövzu üzrə əməkdaşlıq planı kimi konkret mexanizmlər imzalandı. Əlavə olaraq bu il iyulun 17-də Hanoy şəhərində Azərbaycan–Vyetnam iqtisadi-ticarət və elmi-texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 3-cü iclası iki ölkə arasında çoxşaxəli əməkdaşlığın inkişafı üçün yol xəritəsi oldu.

Eyni zamanda, Bəhreynlə əlaqələrdə də parlamentlərarası və diplomatik fəaliyyət sürətlənib. Ötən gün Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin iclasında müzakirəyə çıxarılan “Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin təsis edilməsi haqqında” qanun layihəsində öz əksini tapıb. Bu addım regionda Azərbaycanın nüfuzunun möhkəmlənməsinə və tərəfdaşlıq platformalarının genişləndirilməsinə təkan verəcək, qarşılıqlı siyasi və iqtisadi maraqların reallaşmasına şərait yaradacaq. Bəhreyndə səfirliyin açılması ilə Azərbaycanın dünyada diplomatik nümayəndəliklərinin sayı 93-ə yüksələcək ki, bu da rəsmi Bakı üçün unikal siyasi xəttin formalaşdığını göstərir.

Azərbaycanın son illər Qlobal Cənub ölkələri ilə inkişaf etdirdiyi diplomatik və iqtisadi əlaqələr göstərir ki, ölkə beynəlxalq siyasətdə fəal və təşəbbüskar mövqedədir. Prezident İlham Əliyevin çağırışları çərçivəsində həyata keçirilən layihələr ölkəmizin beynəlxalq arenada yeni ideoloji xəttini, yəni, ədalət və əməkdaşlıq prinsiplərinə əsaslanan xarici siyasətini praktik olaraq təsdiqləyir. Bu siyasət ölkənin Qlobal Cənubun üzləşdiyi problemləri anlamaq və onları həll etmək istiqamətində lider mövqeyini ortaya qoyur və beynəlxalq nüfuzun artırılmasına xidmət edir.

*Tacir SADIQOV*
*XQ*

## Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**“Bakı” Politoloqlar Klubunun rəhbəri, siyasi ekspert**

– Qlobal Cənub mövzusu bu gün beynəlxalq proseslərin ən vacib istiqamətlərindən birinə çevrilib. Bakı Forumu məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır və geniş coğrafiyanı – Asiya və Afrika ölkələrini əhatə edir. Hər iki region artıq uzun illərdir ki, dünya iqtisadiyyatında artım templəri, iqtisadi şaxələndirmə siyasətləri, informasiya və kibertəhlükəsizlik, cəmiyyətlərin müdafiəsi və müasir idarəetmə metodları ilə seçilirlər.

Prezident İlham Əliyev bu gün beynəlxalq miqyasda tanınan və qlobal proseslərə mühüm təsir göstərən liderlərdən biridir. Dövlət başçısı uzun illər Afrika və Asiya xalqlarının üzləşdiyi çağırışları beynəlxalq gündəmə çıxarmağı bacarıb və bu istiqamətdə real nəticələr əldə edib.

Qlobal Cənuba qarşı tarixi ədalətsizlik artıq aradan qaldırılmalıdır. XXI əsrdə müstəmləkəçilik və neokolonializm kimi təzahürlərin hələ də mövcudluğu təəssüf doğurur. Azərbaycan bu istiqamətdə böyük uğurlar qazanıb – neokolonializm siyasətinə qarşı aparılan mübarizədə fəal mövqe tutub, yeni platformalar yaradıb, həmin platformaların üzvlərinin sayının ildən-ilə artmasına töhfə verib. Bu platformalarda təmsil olunan ölkələrin cəsarətlə, çəkinmədən öz sözlərini deməsi, azadlıqlarını müdafiə etməsi Azərbaycanın coğrafiyasında qlobal miqyasda nə qədər mühüm işlər gördüyünü sübut edir.

Təəssüf ki, beynəlxalq təşkilatlar və özlərini “dünyanın ağası” hesab edən bəzi dövlətlər bu sahədə çox az iş görür, bəzən isə heç bir addım atmırlar. Əgər bu proseslər vaxtında idarə olunmasa, gələcəkdə bütün bəşəriyyət üçün ciddi fəsadlar yarada bilər.

**Deyəsən, Rusiyanın İrəvandakı səfiri Segey Kopırkin Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanla görüşləri ənənə halına salıb. Xatırladığımız qədərilə o, diplomatik fəaliyyətə başladığı andan eks dövlət başçısından, loru dildə desək, əl çəkmir. Niyə əl çəkmir, bu əsas məqam barədə söz açacağıq.**

# Rusiya səfiri Ermənistanın ilk prezidentinə möhkəm vurulub

## *Kopırkin niyə Ter-Petrosyanla görüşlərə ara vermir?*



Yada salaq ki, S.Kopırkinin L.Ter-Petrosyanla ilk görüşü 2022-ci ilin aprelində reallaşıb. Ermənistanla Rusiya arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibətilə keçirilmiş görüşdə İrəvan-Moskva münasibətlərinin gələcəyi müzakirə edilib...

Tərəflərin 2023-cü ilin okyabrındakı təması da təxminən bir saat yarım davam edib və söhbət zamanı regionun sabitləşməsi perspektivlərinə, həmçinin, Qarabağdan Ermənistana gələnlərin humanitar ehtiyaclarının tam qarşılanması məsələlərinə toxunulub.

S.Kopırkinlə L.Ter-Petrosyan növbəti dəfə 2025-ci ilin fevralında bir araya gəliblər. Yenə saat yarımdan çox sürmüş görüşdə Ermənistan-Rusiya münasibətləri, birincinin daxili durumu və regional təhlükəsizlik məsələləri müzakirə olunub. Deməli, senytabrın 9-da keçirilmiş görüş həm sayca bu ilki ikinci təmasdır, həm də tərəflərin ümumilikdə 4-cü dəfə bir araya gəlmələdiridir. Hələ ola bilər, təfərrüatları ictimaiyyətə açıqlanmayan başqa görüşlər də olub...

Əlqərəz, bir saatdan artıq davam etmiş söhbət zamanı, xüsusən, Ermənistan–Rusiya münasibətlərinin mövcud vəziyyəti, habelə Cənubi Qafqaz regionunda uzunmüddətli sülh və sabitliyin təmin olunması zərurəti müzakirə olunub. Bu barədə məlumatı L.Ter-Petrosyanın rəhbərlik etdiyi Erməni Milli Konqresinin üzvü Arman Musinyan yayıb və görüşdən foto paylaşıb.

Vacib məqamlardan biri odur ki, A.Munisyan birinci prezidentin vacib hesab etdiyi və görüşdə vurğulanmış aşağıdakı iki məqamı diqqətə çatdırıb: Rusiyanın Cənubi Qafqazda mövcudluğu tarix nöqteyi-nəzərdən təsdiqlənmiş həyati zərurət və reallıqdır. Ermənistanın səmimi və etibarlı dostları Rusiya, İran, Gürcüstan, Fransa, Yunanıstan, eləcə də yaxın perspektivdə Çin və Hindistandır.

Deməli, Rusiya səfiri Ermənistan müxalifətini təmsil edən şəxslə, indiki halda ölkənin birinci prezidenti ilə görüşür, təmas zamanı Cənubi Qafqazda uzunmüddətli sülhün vacibliyi vurğulanır, bu zaman Ermənistanın ilk dövlət başçısı mesaj verir və həmin mesajların heç birində ölkəsinin Azərbaycanla mövcud sülh gündəliyi nəzərə alınmır. Yəni, belə çıxır ki, hazırkı sülh gündəliyi uzunmüddətli barış üçün yararsızdır, tamam başqa motivli barışa ehtiyac var. Daha bir nəticə isə budur: Rusiyanın Cənubi Qafqazda mövcudluğu tarix nöqteyi-nəzərdən təsdiqlənmiş həyati zərurət və reallıqdırsa, sülh mühiti də Moskvanın ortaya qoyduğu şərtlər çərçivəsində qərarlaşmalıdır.

Digər tərəfdən, Ermənistanın səmimi və etibarlı dostları Rusiya ilə yanaşı, İran, Gürcüstan, Fransa və Yunanıstandırsa, bunlar əslində, rəsmi Moskvanın İrəvan üçün müəyyənləşdirdiyi köhnə sistemdir. Çin və Hindistanın səmimi dostluğu ona görə yaxın perspektivə daxil edilir ki, adları çəkilən ölkələrin Moskva ilə münasibətləri əsasdır. Yəni, Rusiya müəyyənləşdirsə ki, Ermənistan Çin və Hindistanla əlaqələrini dərinləşdirə bilər, o zaman heç bir problem yoxdur. Əks halda, olmaz.

Ölkəmizə gəldikdə, belə çıxır ki, Kopırkinin missionerliyi ilə Ermənistanın Ter-Petrosyan siyasi vizyonunda Azərbaycan adlı məmləkət, ümumiyyətlə, yoxdur. Əlbəttə, gözləmirik ki, Ermənistanda hansısa qüvvə Azərbaycanı dost saysın. O hesaba qalsa, indiki baş nazir Nikol Paşinyan iqtidarının da belə bir niyyəti yoxdur. Heç Azərbaycanda da Ermənistanla dostluğu düşünənlərə rast gəlinmir. Əsas odur ki, düşmənçilik olmasın, daha doğrusu, aradan qalxsın, normal dövlətlərarası münasibətlər qurulsun, regional miqyasda əməkdaşlıq yaransın, hər iki xalq rifah içində ömür sürsün. Xalqlar yaşanmış acıları unudub bir vaxtlardakı kimi, yaxın olarlar, ya olmazlar, bu, böyük ölçüdə, gələcəyin işidir. Ancaq Kopırkinin L.Ter-Petrosyanla görüşü birbaşa ötən zamanın ixtilaflarının yada salınması təsiri bağışlamaqdadır. Hərçənd, tərəflər, öz aləmlərində, ehtiyatlıdırlar, Azərbaycanın adını çəkmirlər.

Hər bir halda, sual yaranır: Bir dövlətin ali diplomatik təmsilçisi başqa dövlətin ilk prezidenti ilə niyə görüşsün? Tamam, hansısa tədbirdə qarşılaşıb ayaqüstü söhbətləşə, nədənsə danışa bilərlər, buna bir sözümüz yoxdur və ola bilməz. Amma səfir statusundakı şəxs hazırda müxalifətçi statusunda olan eks dövlət başçısı ilə təmasları ənənə halına gətirirsə, üstəlik, bu barədə cəmiyyətə informasiya verilirsə, loru dildə desək, torbada pişik var.

Əlbəttə, L.Ter-Petrosyan Rusiyanın Ermənistandakı klassik siyasi fiquru statusunda deyil. Bu baxımdan daha uyğun variant ikinci və üçüncü prezidentlər Robert Koçaryan və Serj Sarkisyan kimi canilərdir. O canilər ki, Qarabağ klanını təmsil edirdilər və bu klan məhz Ter-Pertosyanı hakimiyyətdən uzaqlaşdıraraq iqtidara yiyələnmişdi. Söhbət 1997-ci ildə Levonun istefasından və 1998-ci ildə R.Koçaryanın prezidentliyə yiyələnməsindən gedir.

Lakin o zaman R.Koçaryan mütləq hakim deyildi. Onun ölkəyə real rəhbərliyi 1999-cu ilin parlament terrorundan sonra gerçəkləşdi. O terror ki, onun nəticəsində Ermənistan parlamentinin skiperi Karen Dəmirçyan və ölkənin hökumət rəhbəri Vazgen Sarkisyan başda olmaqla, bütövlükdə 8 yüksək vəzifəli şəxs qətlə yetirildi. O şəxslər ki, Azərbaycana güzəştə gedilməsinin qaçılmazılığını, münasibətlərin normallaşmasının vacibliyini vurğulayırdılar. Yeri gəlmişkən, bunu L.Ter-Petrosyanın özü də dilə gətirmişdi. Çox güman, istefa verməsəydi, onu da aradan götürəcəkdilər.

L.Ter-Petrosyanın nə üçün istefaya getməsinin səbəbləri, eləcə də 1999-cu ilin parlament qətliamını kimlərin hansı məqsədlə sifariş etdikləri barədə söz açmağa ehtiyac yoxdur. Çünki görünən dağa bələdçi lazım deyil. Bir halda ki, gözlənilən güzəştlər olmadı və Qarabağ münaqişəsinin həlli dalana dirəndi, bu durumun, yəni Cənubi Qafqazda münaqişə məntiqinin hansı tərəf üçün sərfəliliyini görmək elə də çətinlik törətmir.

Bu gün Kopırkin L.Ter-Petrosyanla təmasları gücləndirirsə, deməli, keçmişə qayıtmaq kimi durum var. Çünki hazırda Rusiyaya bağlılıqları şübhə doğurmayan R.Koçaryan və S.Sarkisyan erməni ictimai rəyi üçün, faktiki olaraq, ölü durumdadırlar. Eləcə də onlara yaxınlığı ilə seçilən şəxslərin sıravi ermənilər arasında ikrahla qarşılandıqları şübhəsizdir. Ən başlıcası, onların ortada olmaları Rusiyaya qarşı da hiddət doğurur və erməni iqtidarı bu amildən öz xeyrinə yetərincə çox yararlanır.

Sonda belə nəticəyə gəlmək mümkündür ki, S.Kopırkinin L.Ter-Petrosyanla artan təmaslarının məğzində Rusiyanın ikincini yenidən erməni ictimai rəyinə qazandırmaq niyyətləri dayanır. Əslində, bu baxımdan birinci prezident o qədər də düzgün variant deyil, çünki siyasətçidir, Koçaryan və Sarkisyan kimi buyruq qulu deyil. Onun nə üçün istefa verməsinin səbəblərini də vurğuladıq. Ancaq Kremlin üzərinə siyasi sərmayə yatıraraq Ermənistandakı mövqelərini gücləndirmək üçün hansısa başqa adamı yoxdur. L.Ter-Petrosyan özü nə dərəcədə erməni ictimai rəyində qəbul edilir, bu, ayrı söhbətin mövzusudur. Hər halda, Koçaryan-Sarkisyan ikilisi və onlara yaxın adamlarla müqayisədə, xeyli müsbət reputasiyaya malikdir. 2026-cı ildə isə Ermənistanda parlament seçkiləri keçiriləcək. Yəqin həmin vaxtadək Kopırkin Ter-Petrosyanla daha bir neçə dəfə görüşər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Gürcüstan birliyə və milli dəyərlərə arxalanır

**Gürcüstanda siyasi gərginlik artır. Yerli özünüidarəetmə seçkilərinə sayılı günlər qalmış Tbilisidə hökumət tərəfdarları ilə müxalifət arasında qarşıdurma yaranıb. İnsident hazırkı mer Kaxa Kaladzeyə dəstək qərargahının qarşısında baş verib. Bu, vəziyyətin nə qədər kritik olduğunu göstərir. Gürcüstan Daxili İşlər Nazirliyinin məlumatına görə, qarşıdurmanın qarşısını almaq məqsədilə əraziyə polis qüvvələri cəlb edilsə də, gərginlik bir müddət davam edib. Müxalifət tərəfdarları etiraz aksiyasını parlament binası qarşısında davam etdiriblər.**

Bu hadisə Gürcüstan siyasətində artan qütbləşmənin və qarşılıqlı ittihamların fonunda baş verir. Hakim partiyanın rəhbərliyi müxalifətin fəaliyyətini ölkədə sabitliyi pozmaq cəhdi kimi dəyərləndirir. Qarşıdan gələn yerli seçkilərdə onların qalib gəlmək şanslarının olmadığını bildirir. Baş nazir İrakli Kobaxidze də açıq şəkildə deyib ki, müxalifətin seçkilərdə qələbə şansı yoxdur və "Gürcü Arzusu" partiyası 2030-cu ilə qədər ölkədə bütün siyasi səviyyələrdə hakimiyyətdə qalmaq niyyətindədir: "Bizim üçün əsas olan öz mövqeyimizi ifadə etməkdir. Bu barədə reaksiyalar necə olacaq, bu, bizim üçün maraqlı deyil. Əsas məsələ konkret qərar qəbul etmiş olmağımızdır".

Baş nazir qeyd edib ki, müxalifət taktiki baxımdan parçalanıb: "Bu da bizim üçün çox yaxşıdır, qələbəmizə kömək edir. Subyektiv olaraq da xoşumuza gəlir, çünki seçki baxımından işimizi asanlaşdırır, 64 bələdiyyənin hamısında həm mer, həm də bələdiyyə seçkilərini qazanmağımıza şərait yaradır. Bu şəraitdə bizim reytinqimiz parlament seçkiləri öncəsi qeydə alınmış reytinqi xeyli üstələyir. Belə ki, əvvəlki halda ölkə daxilində 54,5 faiz səs toplamışdıqsa, indi 60 faizdən çoxunu gözləyirik".

Baş nazir aşıqlaması reallığa əsaslanır. Çünki Gürcüstanın aparıcı müxalifət qüvvələri dağınıq haldadır. Ölkədə keçiriləcək yerli özünüidarəetmə seçkiləri ərəfəsində iki əsas düşərgəyə bölünüblər. "Lelo", "Vətəndaşlar", "Girçi" və "Gürcüstan Uğrunda" partiyaları 4 oktyabr 2025-ci il tarixində baş tutacaq seçkilərdə iştirak edəcəklərini açıqlayıblar. Onlar mövcud iqtidara təzyiq göstərmək və siyasi dəyişikliklərə nail olmaq üçün legitim, konstitusion vasitələrdən istifadə etməyə üstünlük verdiklərini bəyan ediblər.

Digər tərəfdən, "Vahid Milli Hərəkat" və "Dəyişikliklər Uğrunda Koalisiya" siyasi hərəkatları seçkiləri boykot edərək küçə etirazlarına yönəliblər. Bu düşərgə 2024-cü ilin sonundan başlayaraq davamlı şəkildə kütləvi etiraz aksiyaları təşkil edir. Aksiyalar, eyni zamanda, bir sıra vətəndaş cəmiyyəti qurumlarının dəstəyi ilə müşayiət olunur. Onların əsas tələbləri növbədənkənar parlament seçkilərinin keçirilməsi və həbsdə olan tərəfdarlarının azad olunmasıdır. Bu günlərdə isə keçmiş hakim "Vahid Milli Hərəkat" partiyasının liderlərindən biri olan Levan Xabeişvili sərt açıqlama ilə diqqət mərkəzinə düşüb. O, oktyabrın 4-də, yerli hakimiyyət orqanlarına seçkilər günü hökumətin "dinc yolla devrilməsi" planlarını açıqlayıb. Partiya bəyanat yayaraq gürcü xalqını Tbilisi-



nin mərkəzindəki Rustaveli prospektində toplaşmağa və "gələcək üçün qətiyyətli mübarizə aparmağa" çağırıb. Hazırda yerli özünüidarəetmə seçkilərini boykot edən müxalif qüvvələr bu kimi çağrışlarla diqqət çəkir. Bir sözlə, müxalifətin bu qanadı real görünməsə də ölkədə xaos yaradıb hakimiyyətə gəlmək istəyirlər.

Hakim "Gürcü Arzusu" partiyası hər iki müxalif qanadı radikal qüvvələr adlandıraraq onların fəaliyyətini milli maraqlara zidd hesab edir. Rəsmi açıqlamalarda bildirilir ki, bu qüvvələr xarici dairələrin, xüsusilə də "dərin dövlət" adlandırılan strukturların təsiri ilə Gürcüstanda sabitliyi pozmağa və inqilabi proseslər başlatmağa çalışırlar. Hakim partiyanın nümayəndələri müxalifəti dəstəkləyən Qərbdəki bəzi siyasi qüvvələri "qlobal müharibə partiyası" adlandıraraq, onların ABŞ və Avropa İttifaqı daxilindəki bəzi siyasətçilərə təsir göstərdiyini iddia edirlər. Bununla bağlı Tbilisi meri və partiyanın baş katibi Kaxa Kaladze dövlət çevrilişinə və hökumətin devrilməsinə yönəlmiş çağırışları nihilizm yaratmaq cəhdi adlandırır: "Dövlət çevrilişi, hakimiyyətin devrilməsi ilə bağlı eşitdiyimiz çağırışlar, eləcə də konkret fakt kimi müxtəlif yalan məlumatların yayılması, hansısa yolla ölkədə nihilizm səpmək, cəmiyyətdə suallar yaratmaq məqsədi daşıyır", Onun sözlərinə görə, cəmiyyətdə çaşqınlıq və qeyri-müəyyənlik yaratmaq məqsədilə bilərəkdən yalan məlumatlar yayılır və bu fəaliyyətlərə qarşı hüquq-mühafizə orqanlarının sərt cavab verəcəyi qaçılmazdır. O, həmçinin müxalifətə xəbərdarlıq edib ki, istənilən qanunsuz hərəkətə müvafiq dövlət qurumları tərəfindən sərt cavab veriləcək. Eyni zamanda, Kaladze qarşıdan gələn seçkilərdə hakim komandanın qələbə qazanacağına əminliyini ifadə edib: "Hökumət oktyabrın 4-də qələbə gözləyir. Bu, kifayət qədər vacib seçkilərdir və mən əminəm ki, gürcü xalqının dəstəyi ilə biz bütün bələdiyyələrdə qələbə qazana biləcəyik".

Bu arada Daxili İşlər Nazirliyi Kaladzeyə dəstək qərargahında yerləşdirilmiş seçki bannerlərinin zədələnməsi faktı üzrə araşdırma başladığını elan edib. "Əmlakın zədələnməsi və ya məhv edilməsi" (187-ci maddə) üzrə açılan cinayət işi çərçivəsində təqsirli şəxsləri 3 ilə qədər həbs cəzası gözləyə bilər. Nazirlik həmçinin aksiya iştirakçılarına polis əməkdaşlarının qanuni tələblərinə riayət etməyə çağırıb. Rəsmi açıqlamada qeyd olunur ki, ictimai asayişin pozulmasına yol verilməyəcək və bütün qanun pozuntuları ilə bağlı hüquqi tədbirlər görüləcək.

Onu da qeyd edək ki, seçkiyə sayılı günlər qalarkən, Mərkəzi Seçki Komissiyasının məlumatına görə, 4 oktyabrda keçiriləcək yerli seçkilərdə 12 siyasi partiya iştirak edəcək. MSK-ya müraciət edən 14 partiyadan ikisinin qeydiyyatı ləğv edilib. Qeydiyyatın ləğvinə səbəb həmin partiyaların majoritar namizədlər və mer vəzifələrinə namizəd təqdim etməməsi olub. Bəs ölkədə baş verən hadisələrə yerli azərbaycanların mövqeyi necədir?

Bu barədə "Gürcüstan Azərbaycanlıları Milli Konqresinin" sədri, politoloq Əli Babayev deyib ki, ölkənin sabitliyi, milli dəyərləri və birliyi qorunmalıdır: " Hazırkı hökumət Gürcüstanın inkişafı üçün ciddi səylər göstərir. Bu prosesdə bütün vətəndaşların, o cümlədən gürcülərin, azərbaycanlıların və digər icmaların da məsuliyyəti var".

Ə.Babayev xarici müdaxilələrə və bəzi Qərb dairələrinin Gürcüstan siyasətinə təsir cəhdlərinə tənqidi yanaşaraq bildirib: "Avropa bürokratlarının və bəzi korrupsioner deputatların ölkəyə qarşı təzyiqləri açıq şəkildə hiss olunur. Onların təsiri ilə ölkədə mitinqlər təşkil edən, böhtan dolu bəyanatlar verən şəxslər isə milli maraqlara xidmət etmir. Bu gün Gürcüstanda müxalifət adlandırılan qüvvələr gerçəkdən siyasi alternativ deyil. Onlar radikal çağırışlarla sabitliyi pozmağa çalışırlar. Bu fəaliyyətlər xalqın rifahına yox, anarxiyaya xidmət edir".

Əli Babayev Avropa dəyərlərinin zorla cəmiyyətə sırımasına da münasibət bildirib: "LGBT uşaqlara bağça yaşından təbliğ olunmalıdır" deyirlər. Bu, nə bizim ailə modelimizə, nə də milli dəyərlərimizə uyğundur. Xalq olaraq belə təzyiqlərə qarşı durmalıyıq."

O, azərbaycanlıların Gürcüstan tarixində oynadığı müsbət rolu xatırladaraq, seçkiyə qatılmağa çağırıb: "Əcdadlarımız bu torpaqlar uğrunda döyüşüb, fədakarlıq göstərib. İndi bizim borcumuzdur ki, onların mirasına sahib çıxaq. 4 oktyabrda seçkiyə gedərək Gürcüstanın sabitliyinə, dəyərlərinə və gələcəyinə səs verək".

Sonda Əli Babayev hər bir vətəndaşı məsuliyyətli olmağa, təxribatlara uymamağa və dövlətçiliyin yanında yer almağa səsləyib. O bildirib ki, sabitlik və birlik uğrunda lazım gələrsə, sıravi vətəndaş kimi özü də ön sıralarda yer almağa hazırdır.



Sonda onu da qeyd edək ki, yaxın günlərdə Gürcüstanda siyasi gərginliyin artması ehtimalı az deyil. Seçkiyə qədər olan müddətdə baş verəcək hər hansı yeni qarşıdurma və ya kütləvi etirazlar vəziyyəti daha da mürəkkəbləşdirə bilər. Ancaq sonda qalib gələn ölkənin birliyi, sabitliyi, milli dəyərləri olacaq. Sorğular da göstərir ki, seçicilər ölkənin maraqlarını Qərbin maraqlarından üstün tuturlar.

**P.S.** *ATƏT 4 oktyabr seçkilərinə müşahidə missiyası göndərməkdən imtina edib. Brüsseldən bildirilib ki, tövsiyələr yerinə yetirilməsə, vizasız rejim də dayandırılacaq.*

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Konstitusiya və suverenlik: müasir müstəqil Azərbaycan dövlətçiliyi kontekstində



### II MƏQALƏ

### Dövlət suverenliyinin konstitusion əsası

Bu mövzuda I məqalədə vurğuladığımız kimi, Konstitusiyanın 2-ci maddəsində yazılmışdır ki, "Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur". Dövlət suverenliyi anlayışının Azərbaycanda konstitusion əsası bu maddədən qaynaqlanır.

Birincisi, öz müqəddəratını həll etmək Azərbaycan xalqının təbii və suveren hüququdur.

İkincisi, eyni dərəcədə öz dövlətinin idarəetmə formasını müəyyən etmək də Azərbaycan xalqının təbii və suveren hüququdur.

Bu iki aspektin vəhdəti Azərbaycanda dövlət suverenliyinin birbaşa mənbəyinin xalq suverenliyi olduğunu göstərir. Deməli, burada əsas vəzifələrdən biri xalq suverenliyini rasional, tam məntiqi, xalqın tarixi-siyasi və mədəni təkamül özəlliklərini nəzərə almaqla müasir şərtlər daxilində dövlət suverenliyinin başlıca xüsusiyyətlərini müəyyən etməklə bağlıdır. Bu prosesdə dövlətçiliyin əsasının möhkəmlənməsi ilə ictimai münasibətlərin tənzimlənməsi siyasi və hüquqi aspektlərdə bir-birini tamamlamalıdır. Müstəqil dövlət quruculuğunda məsələnin incə tərəfi bununla bağlıdır. Çünki vurğulanan şərtin yerinə yetirilməsi faktiki olaraq xalq suverenliyini uğurlu formada dövlət suverenliyinə proyeksiya etməyi özündə ehtiva edir.

Əlbbətə, dövlət quruculuğu kontekstində bu, kompleks hüquqi prosedurların müəyyən edilməsini tələb edir. Onu Konstitusiyada reallaşdırmaq lazım gəlir. Bu baxımdan Azərbaycan Konstitusiyası mükəmməldir. Bu ali təsisedici sənədin qəbulundan sonra dövlət quruculuğunda alınan müsbət cəhətlər qarşıya heç bir hüquqi ziddiyyətin çıxmadığını göstərir. Hətta, ən mürəkkəb məsələlərdə belə Azərbaycan Konstitusiyası dövlətdaxili hüquqi şərtlərlə beynəlxalq hüququn şərtlərinin bir-birini tamamladığı aydınlaşdı. Bir neçə nümunədə buna əmin ola bilərik.

### Dövlətdaxili və beynəlxalq hüquq

Konstitusiyanın II maddəsinin II, III və IV bəndləri aşağıdakı kimidir:

2. "Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

3. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

4. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər".

Bu müddəalardan aydın görünür ki, Konstitusiya Azərbaycanın dövlət kimi fəaliyyətinin daxili və xarici istiqamətlərini hüquqi aspektdə vahid məntiqə gətirmişdir, yəni dövlət "daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla" fəaliyyət göstərməlidir.

### Dövlət başçısının konstitusion vəzifələri

Dövlətin başçısı isə vurğulanan hüquqi baza əsasında konkret vəzifələri yerinə yetirməlidir. Onların konstitusion çərçivəsi 8-ci maddədə aydın müəyyən edilmişdir. Yəni Azərbaycan dövlətinin başçısı kimi Azərbaycan Respublikasının Prezidenti 4 əsas istiqamətdə fəaliyyət göstərməlidir:

1. Ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil etməlidir;
2. Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin etməlidir;
3. Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısı olmalıdır;
4. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olmalıdır.

Heydər Əliyev və İlham Əliyevin Prezident kimi fəaliyyətləri tam olaraq Konstitusiyanın vurğulanan maddəsinə uyğundur. Bu xüsusda ərazi bütövlüyünün təminatçısı kimi Heydər Əliyev və İlham Əliyevin həyata keçirdikləri siyasi kursun qarşısına hər hansı hüquqi maneə çıxara bilmədilər. Azərbaycan rəhbərliyinin ərazi bütövlüyünün bərpa olunması istiqamətində atdığı hər bir addım Konstitusiyanın maddələri ilə yanaşı, beynəlxalq hüququn bütün normalarına da uyğun olmuşdur. Prezident İlham Əliyevin II Qarabağ müharibəsinin nəticələri ilə bağlı ifadə etdiyi konkret fikirlər tezisimizin əsaslı olduğunu tam təsdiq edir. İlham Əliyev həmin kontekstdə demişdir ki, Azərbaycan tarixi ədaləti bərpa etmişdir, beynəlxalq hüququ təmin etmişdir və milli ləyaqəti bərpa etmişdir.

Azərbaycan Prezidenti Konstitusiyanın müddəalarına əsaslanaraq postmüharibə mərhələsində elə siyasət həyata keçirməkdədir ki, nə qədər etiraz etməyə çalışsalar da sonunda Azərbaycanın mövqeyini qəbul etməli olurlar. İki nümunəyə baxaq.

Onlardan biri Ermənistanla sülh müqaviləsinin baza prinsipləri ilə əlaqəlidir. Məhz Azərbaycan Prezidentinin həm Konstitusiyaya, həm də BMT-nin qəbul etdiyi hüquqi normalara tam uyğun olaraq müəyyənləşdirdiyi prinsiplər əsasında Vaşinqton sazişi reallaşmışdır. Həmin baza prinsipləri bir-birinin daxili işlərinə qarışmamağı, kommunikasiyaların açılmasını, bir-birinə qarşı təxribatçı fəaliyyət göstərməməyi, üçüncü qüvvələrin öz ərazisindən (yəni Azərbaycan və Ermənistanın) digərinə qarşı istifadə etməyə imkan verməməyi, sərhəd toxunulmazlığını təmin etməyi əhatə edir. Bu şərtlər BMT Nizamnaməsində xüsusi maddələrlə təsbit edilmişdir. Deməli, nə qədər müxtəlif tərəflərə çəkməyə çalışsalar da, sonunda dünyanın ən qüdrətli dövlətinin paytaxtında Azərbaycanın təklif etdiyi sülh modelinin baza prinsipləri qəbul edilmişdir.

Digər nümunə Zəngəzur dəhlizi ilə bağlı Azərbaycan Prezidentinin atdığı addımlardır. Bu məsələdə də başlanğıcda çox əngəllər törətməyə çalışdılar. Hətta bir müddət, ümumiyyətlə, Zəngəzurun siyasi gündəmdən çıxdığından bəhs etdilər. Lakin yenə də Azərbaycan tərəfinin Konstitusiyaya və beynəlxalq hüquqa söykənən mövqeyi qalib gəldi. İndi dünya Zəngəzur Dəhlizini necə reallaşdırmağı müzakirə edir. Yəni onun həyata keçməsinə şübhə yeri qalmamışdır.

Bütün bunlar Azərbaycanda xalq suverenliyinin uğurla dövlət suverenliyinə proyeksiya olunduğunun əyani sübutlarıdır. Əslində, Prezident İlham Əliyevin Andiçmə mərasimlərində bu istiqamətdə çox gözəl fikirlər ifadə etmişdir. 2024-cü il fevralın 14-də olan Andiçmə mərasimində söylədiyi nitqindən bir fikrə baxaq.

Prezident İlham Əliyev demişdir: "İlk növbədə, prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Fikirlərinə davam edərək dövlət başçısı xatırlatmışdır ki, 2003-cü ildə "əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam".

Və, nəhayət, İlham Əliyev fikirlərini ümumiləşdirir: "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik".

Bu fikirlər onu göstərir ki, Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyəti müddətində birmənalı olaraq xalqın suverenliyinə əsaslanmaqdadır və həmin baza üzərində dövlət suverenliyini təmin etməyi başlıca məqsədi hesab etməkdədir. Məhz buna görədir ki, Azərbaycan Prezidenti 2023-cü ilin sentyabrında Azərbaycanın tam suverenliyinin təmin edilməsinə nail olmağı tarixi uğur kimi qiymətləndirmişdir.

Bunlardan təbii bir maraq meydana gəlir: bəs dövlət suverenliyi nə deməkdir? Onun fəlsəfi-politoloji anlamı haqqında yığcam nə demək olar?

### Dövlət suverenliyi

Dövlət suverenliyi fəlsəfi və politoloji ədəbiyyatda müstəqil dövlətin atributu, yəni ayrılmaz xüsusiyyəti kimi təqdim edilir. Bu anlamda dövlət suverenliyi ölkə daxilində ali hakimiyyəti və siyasi-hüquqi müstəqilliyi ifadə edir (daxili suverenlik). Eyni zamanda, dövlət suverenliyi beynəlxalq arenada xarici qüvvələrdən və başqa dövlətlərdən tam müstəqil olmağı nəzərdə tutur (xarici suverenlik).

Müasir ədəbiyyatda dövlət suverenliyi hər bir müstəqil dövlətin müstəsna hüququ kimi qəbul edilir. Yəni dövlət öz ərazisində hökmranlığını təmin etməkdə müstəsna hüquqa və haqqa malikdir. Bununla yanaşı, daxili və xarici məsələlərlə bağlı müstəqil qərarlar qəbul etməkdə də müstəsna hüquqa malikdir.

Belə görünür ki, dövlət suverenliyi daxili miqyasda hakimiyyətin ərazisi üzərində tam hökmlü olmasını mütləq surətdə nəzərdə tutur. Xarici miqyasda da kimsənin dövlətin qərarlarına qarışmağa hüququnun olmadığını ifadə edir.

Əlbəttə, bunlar nəzəriyyədə gözəl səslənir. Lakin məsələ ondan ibarətdir ki, heç də hər bir müstəqil sayılan dövlət suverenliyini tam təmin edə bilmir. Bu prizmada yuxarıda vurğuladığımız ümumi müddəalar fonunda 1993-cü ilin iyunundan Azərbaycanın müstəqil dövlət kimi fəaliyyətinə baxsaq, bir sıra xarici qüvvələrlə mübarizədən ana xətt olaraq məhz dövlət suverenliyinin təmin edilməsinin keçdiyini görərik. Heydər Əliyevin prezidentliyi dövründə iki dəfə dövlət çevrilişinə cəhd oldu və hər ikisinin qarşısını Ulu öndərin siyasi qətiyyəti aldı.

Bunun fonunda Ümummilli liderin "Əsrin müqaviləsi"ni imzalaya bilməsi dövlət suverenliyinin təmin edilməsi baxımından möhtəşəm tarixi, siyasi, energetik və geosiyasi hadisədir. Sonra, bütün maneələrə baxmayaraq, Bakı-Tbilisi-Ceyhan neft ixrac marşrutunun işə salınması xüsusi qeyd edilməlidir. Bu kimi proseslər bütövlükdə Azərbaycanın yeni enerji strategiyası siyasəti çərçivəsində getmişdir ki, bu da dövlət suverenliyinin dəqiq düşünülmüş və müəyyən edilmiş xətt üzrə təmin edilməsi kursunun hazırlandığından xəbər verir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

(əvvəli 1-ci səhifədə)

Bu isə Azərbaycanın xarici siyasət kursunun əsas hədəflərindən biri olan qarşılıqlı etimad mühitinin qorunması və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi çağırışlarının praktiki təsdiqidir. Prezident İlham Əliyevin "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına müraciətində yer alan fikirləri bunu bir daha təsdiqləyir. Dövlətimizin başçısı müraciətində bildirib ki, ölkəmizdə regional və qlobal əhəmiyyətli mötəbər tədbirlərin təşkili artıq ənənə halını alıb: "Azərbaycan cari ilin iyul ayında Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin başçılarının Zirvə Görüşünü təşkil etmiş, oktyabr ayında isə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünə ev sahibliyi etməyə hazırlaşır. Eyni zamanda 2026-cı ildə BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının və İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısının Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq əhəmiyyətli tədbirlərin təşkil olunduğu etibarlı qlobal məkana çevrildiyinin növbəti əyani göstəricisidir".

# Diplomatik fəallığın Azərbaycan modeli



## *Qlobal tədbirlərə ev sahibliyi regional lider mövqeyimizi möhkəmləndirir*

Bəli, Azərbaycan qlobal tədbirlərə evsahibliyi etməklə beynəlxalq dialoqun təşviqinə töhfə verir. Bu kontektdə rəsmi Bakının ötən il evsahibliyi etdiyi ən böyük tədbirlərdən olan COP29 beynəlxalq nüfuzumuzun yüksəlməsində müstəsna hadisə kimi qiymətləndirilir. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq etimad qazandığını sübut etdi. Dünyanın müxtəlif regionlarından 70 mindən çox nümayəndənin, dövlət başçılarının, beynəlxalq təşkilatların, şirkətlərin və ekspertlərin paytaxtımızda toplaşması Azərbaycanın etibarlı tərəfdaş, dialoqa açıq və müasir çağırışlara adekvat cavab verə bilən dövlət olduğunu təsdiqlədi. COP29 Azərbaycanın yaşıl enerji gündəliyini reallaşdırmaq üçün əhəmiyyətli platforma rolunu oynadı. Təsadüfi deyil ki, ölkəmiz bərpa olunan enerji layihələri, xüsusilə külək və günəş enerjisi potensialı ilə beynəlxalq investorların diqqətini çəkir.

Bu ilin oktyabrında Türk Dövlətləri Təşkilatının (TDT) 12-ci Zirvə Görüşü ölkəmizdə baş tutacaq. Görüşdə üzv dövlətlərin liderləri regional təhlükəsizlik, iqtisadi inkişaf, nəqliyyat və ticarət əlaqələrinin dərinləşdirilməsi, həmçinin rəqəmsal transformasiya və "yaşıl enerji" sahələrində əməkdaşlığın artırılması məsələlərini müzakirə edəcəklər. Azərbaycan əvvəlki illərdə də TDT Zirvəsinə evsahibliyi edib. TDT-nin 3-cü Zirvə toplantısı məhz Azərbaycanda keçirildi.

2026-cı il mayın 17–22-də Bakı yenidən dünyanın diqqət mərkəzində olacaq. Paytaxtımız Birləşmiş Millətlər Təşkilatının (BMT) ən nüfuzlu tədbirlərindən biri sayılan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) ev sahibliyi edəcək. Məzmunu və əhatə dairəsi baxımından forum COP-dan sonra ikinci ən böyük və strateji əhəmiyyətli beynəlxalq platforma sayılır. Forumun təşkili Azərbaycan üçün qlobal miqyasda şəhərsalma, dayanıqlı inkişaf və ətraf mühit sahələrində lider mövqeyinin təsdiqi kimi qiymətləndirilir. Bakı Forumunun əhəmiyyəti eyni zamanda "UN-Habitat" və onun tərəfdaşları üçün bir sıra mühüm yubileylərlə də bağlıdır. Çünki 2026-cı il bir sıra tarixi və rəmzi hadisələrin əlamətdar ilinə çevrilib. 1976-cı ildə keçirilmiş və "UN-Habitat"ın yaradılmasının əsasını qoymuş "Habitat I" konfransının 50 illiyi, 1996-cı ildə İstanbulda təşkil olunmuş "Habitat II" konfransının 30 illiyi və 2016-cı ildə qəbul edilmiş "Yeni Şəhər Gündəliyinin" 10 illiyi məhz növbəti il tamam olacaq. Forumun gündəliyinə həm nəzəri, həm də praktik aspektləri əhatə edən şəhərlərin davamlı inkişafı, urbanizasiya və ətraf mühitin qorunması, şəhər infrastrukturlarının innovativ həllərlə təkmilləşdirilməsi və sosial bərabərliyin təmin olunması məsələləri daxil edilib. Eyni zamanda Forum region ölkələri üçün təcrübə mübadiləsi və strateji əməkdaşlıq baxımından da platforma rolunu oynayacaq və Azərbaycanın urbanizasiya siyasətində nüfuzunu artırmaqla beynəlxalq tərəfdaşlarla əlaqələrini dərinləşdirəcək.

Növbəti il keçirilməsi planlaşdırılan İƏT Zirvə Toplantısının Azərbaycanda təşkili ölkəmizin regional liderlik rolunun möhkəmləndiyinin əyani sübutudur. Tədbir Azərbaycanın İslam dünyası ilə siyasi, iqtisadi və mədəni əlaqələrini daha da dərinləşdirməyə xidmət edir. Zirvə toplantısı Azərbaycanın dialoq mərkəzi statusunu təsdiqləyir. İƏT üzv ölkələrinin dövlət və hökumət başçılarının bir araya gəlməsi Azərbaycan üçün strateji əməkdaşlıq və tərəfdaşlıq imkanlarının genişlənməsini təmin edəcək, ticarət-iqtisadi, enerji və infrastruktur sahələrində yeni layihələrin müzakirəsinə zəmin yaradacaq.

Sonda onu da qeyd edək ki, multikultural dəyərlərin qorunması, dayanıqlı inkişaf, regional əməkdaşlıq və ən əsası uğurlu ev sahibliyi məsələlərində Azərbaycan praktikasından yararlanmaq mümkündür. Bu təcrübədən qonşu ölkələr faydalana, dövlətimizin yanaşmasını tətbiq edə bilərlər.

**PS .** Bir həftədən sonra Bakı trasında start götürəcək "Formula-1" idman aavtomobillərinin yarışı yenə dünyanın diqqətini ölkəmizə cəlb edəcək. Sürət həvəskarlarının Qrani-prisinin növbəti dəfə Bakıda keçirilməsi Azərbaycanın idmanı ölkələr və mədəniyyətlərarası dialoqun bir vasitəsi kimi təşviq etməsinin, ölkəmizin xoşməramlı oyunların təşkilatçısı statusunun təsdiqləyici faktıdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

Dövlət başçımızın vurğuladığı kimi, Azərbaycan mühüm beynəlxalq tədbirlərin keçirildiyi nüfuzlu mərkəzə çevrilib. Artıq dəfələrlə şahidi olmuşuq ki, müxtəlif mötəbər toplantılar ölkəmizdə təşkil olunur. Son illərdə təkcə bir neçə dəfə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü, eləcə də İƏT-in sammitləri Bakıda baş tutub. Bundan əlavə, 2026-cı ildə BMT-nin Dünya Şəhərsalma Forumunun 13-cü sessiyası və İslam Həmrəyliyi Zirvə Toplantısının ölkəmizdə keçirilməsi də Azərbaycanın beynəlxalq nüfuzunu göstərən faktlardandır. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan bu gün regionda və qlobal miqyasda etibarlı ünvan, mötəbər platforma statusu qazanıb. Belə tədbirlərin təşkili sadə və asan məsələ deyil: qonaqların təhlükəsizliyi tam təmin olunmalı, təşkilatçılıq yüksək səviyyədə qurulmalıdır. Bu gün Azərbaycanda bütün bu tələblər yüksək standartlara cavab verir. Qonaqların rəyində də daim səslənir ki, ölkəmizdə təşkilatçılıq məsələləri nümunəvi şəkildə həyata keçirilir. Bu, Azərbaycanın artan nüfuzunun və beynəlxalq ictimaiyyətin ölkəmizə göstərdiyi etimadın bariz göstəricisidir. Atılan addımlar, həyata keçirilən işlər onu deməyə əsas verir ki, Azərbaycan qlobal təşəbbüslərlə çıxış edən, dünya gündəminə töhfə verən və beynəlxalq əməkdaşlığı təşviq edən önəmli dövlətə çevrilib. Təbii ki, bütün bunların əsasında Prezidentin həyata keçirdiyi məqsədyönlü siyasət dayanır. Bu gün Azərbaycan həm Türk Dövlətləri Təşkilatında, həm İslam Əməkdaşlıq Təşkilatında, həm də digər beynəlxalq platformalarda fəal mövqe nümayiş etdirir, gücünü və dəstəyini ən yüksək tribunadan ifadə edir.

# "Konstitusiya və Suverenlik İli" dövlətçilik tariximizin yeni mərhələsidir

**Prezident İlham Əliyevin 2025-ci ili ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan etməsi Azərbaycanın müasir tarixində həm rəmzi, həm də strateji baxımdan mühüm önəm daşıyan siyasi qərarlardan biridir. Bu təşəbbüs bir tərəfdən, dövlətçiliyimizin hüquqi əsası olan Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illiyi ilə bağlıdırsa, digər tərəfdən ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə üst–üstə düşməsi baxımından xüsusi tarixi məna kəsb edir.**

Azərbaycan xalqı on illərlə davam edən işğal, ədalətsizlik və təcavüzlə üz–üzə qaldı. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfər, ardınca 2023-cü ilin sentyabrında ölkə suverenliyinin tam bərpası təkcə hərbi–siyasi qələbə deyildi. Bu, milli iradənin, xalq birliyinin və güclü liderliyin təntənəsi idi. Bu tarixi qələbələr Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirdi, ölkəmizin gələcək inkişaf yolunda yeni mərhələnin əsasını təşkil etdi.




Yeri gəlmişkən, preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi təsbit olunan Konstitusiya 44 günlük Vətən müharibəsində özünün həyatiliyi və gücünü bir daha nümayiş etdirdi. Torpaqlarımız işğaldan azad olunduqdan sonra bu ali hüquqi sənədin qüvvəsi bütün ərazilərimizdə gerçəkləşdirildi. Beləliklə, dövlətimizin ərazi bütövlüyü və suverenliyi hüquqi–siyasi reallığa çevrildi.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi də məhz bu tarixi reallığın davamına və təsdiqinə çevrildi. Bu, xalqımız tərəfindən həm keçmişə hörmət, həm də gələcəyə inam mesajı kimi yüksək dəyərləndirildi. Dövlət başçısının siyasi iradəsi, xalqın milli həmrəyliyi və qətiyyəti nəticəsində əldə edilən bu mərhələ Azərbaycan tarixində yeni bir səhifənin başlanğıcı oldu.

Xatırladım ki, 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikası Konstitusiyası müstəqil dövlətimizin hüquqi əsaslarını müəyyənləşdirdi. Bu sənəd, eyni zamanda, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun təməl daşı oldu. Konstitusiyanın qəbul edildiyi dövr ölkəmizin ən mürəkkəb və təhlükəli bir mərhələsinə təsadüf edirdi. Belə ki, XX əsrin sonlarında müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan separatizm, anarxiya və vətəndaş qarşıdurması ilə üz-üzə qalmışdı. Bu vəziyyətdən çıxış yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə reallaşdı. Dahi şəxsiyyətin qətiyyətli və uzaqgörən siyasəti ölkəni parçalanma təhlükəsindən xilas etdi, müstəqilliyi qorudu və sabit inkişaf yoluna çıxardı.

O dövrü yaşayan hər bir kəs 1990-cı illərin əvvəllərində Azərbaycanın müstəqilliyini yenidən bərpa etmiş bir dövlət kimi mürəkkəb tarixi şəraitdə yaşadığını yaxşı xatırlayır. Sovet İttifaqından miras qalmış hüquq sistemi və qanunvericilik bazası müstəqil dövlətin tələblərinə cavab vermirdi. Qanunun aliliyinin təminatı zəif idi, insan hüquq və azadlıqları müdafiəsiz qalır, siyasi idarəetmədə xaos hökm sürürdü. Belə bir dövrdə hüquqi dövlət quruculuğu yalnız yeni, müasir və müstəqil bir Konstitusiyanın qəbulunu tələb edirdi.

Bu məsuliyyətli tarixi vəzifəni yerinə yetirmək isə yalnız ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və dövlətçilik bacarığı ilə mümkün oldu. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə ölkədə siyasi sabitliyi təmin etdi, dövlət idarəçiliyində nizam-intizam yaratdı və ən mühüm addımlardan biri kimi yeni Konstitusiya layihəsinin hazırlanmasına başladı.

Siyasi strategiyasında hüquqi dövlət quruculuğu xüsusi yer tutan ulu öndər Heydər Əliyev Milli Konstitusiyanın hazırlanması və qəbulunu diqqətdə saxlaması, bununla da gələcək nəsillər üçün möhkəm hüquqi bazanı yaratması xalqımızın yaddaşında əbədi yaşayır. Bu gün 30 illiyini qeyd etdiyimiz Konstitusiya Azərbaycan cəmiyyətinin siyasi, sosial–iqtisadi inkişafında həlledici rol oynayan taleyüklü tarixi sənəddir.

Qeyd edim ki, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan Konstitusiya Azərbaycan tarixində ilk milli əsas qanun kimi mühüm tarixi mərhələ açdı. 1995-ci il noyabrın 27-dən isə qüvvəyə minən bu sənəd dövlətçiliyimizin hüquqi bünövrəsini möhkəmləndirdi, xalqımızın gələcək inkişaf yolunu müəyyənləşdirdi.

Müasir Azərbaycan dövlətçiliyinin ən mühüm dayaqlarından biri olan milli Konstitusiyanın qəbulundan artıq 30 ilə yaxın bir müddət ötür. Referendum yolu ilə qəbul edilmiş bu sənəd ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və müdrik dövlətçilik təfəkkürünün şah əsəri kimi tariximizə yazıldı. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquq və azadlıqlarının təminində mühüm rol oynayan Konstitusiya dövlətimizin hüquqi sisteminin əsasını təşkil edir.

Konstitusiya, ümumiyyətlə, təkcə normativ hüquqi sənəd deyil, həm də siyasi legitimliyin, hüquqi sabitliyin və milli suverenliyin ən möhkəm dayağıdır. Dövlətin idarə olunmasının prinsipləri, hakimiyyətin bölgüsü, vətəndaşların hüquq və azadlıqları, dövlətin daxili və xarici siyasətinin əsasları Konstitusiyada təsbit olunub. Bu baxımdan, Azərbaycan Konstitusiyası həm hüquqi, həm də siyasi sistemdə, belə demək mümkünsə, normativ nüvə rolunu oynayır. Dövlətin əsas orqanlarının fəaliyyəti, qanunvericilik prosesləri, vətəndaş cəmiyyətinin inkişafı məhz Konstitusiyanın müəyyənləşdirdiyi çərçivədə həyata keçirilir.

Ulu öndərin müəyyənləşdirdiyi kursun məntiqi davamı kimi Prezident İlham Əliyev dövlətçiliyin əsaslarını daha da möhkəmləndirdi. Onun rəhbərliyi ilə Azərbaycan yalnız regionda deyil, həm də beynəlxalq müstəvidə söz sahibi olan bir dövlətə çevrildi. Ərazi bütövlüyünün bərpası, ölkəmizin suverenliyinin təmin edilməsi və milli maraqların qlobal miqyasda qətiyyətlə müdafiə olunması xalqımız tərəfindən bu siyasətin parlaq nəticələri kimi dəyərləndirildi.

Azərbaycanın gücü yalnız hərbi və siyasi sahədə deyil, həm də milli həmrəyliyin möhkəmləndirilməsində özünü göstərdi. 2023-cü ilin sentyabrında ölkə daxilində separatizmin kökünün birdəfəlik kəsilməsi ilə dövlətin suverenliyi tam gerçəkləşdi. Bu, regionda sülhün və təhlükəsizliyin bərqərar olunmasına da mühüm töhfə verdi.

Vurğulamaq istərdim ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması təkcə yubiley xarakteri daşımır. Bu qərar dövlətçilik prinsiplərinin möhkəmləndirilməsinə, milli həmrəyliyin gücləndirilməsinə və hüquqi dövlətin inkişafına xidmət edir. Bununla dövlət qurumlarının, ictimai təşkilatların və vətəndaş cəmiyyətinin üzərinə mühüm vəzifələr düşür. Suverenliyin qorunması, dövlətin inkişaf etdirilməsi və milli maraqların müdafiəsi hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

Eyni zamanda, hazırda hüquqi dövlət prinsiplərinin daha da dərinləşdirilməsi, demokratik institutların inkişafı və insan hüquqlarının müdafiəsi istiqamətində fəaliyyətlərin gücləndirilməsi xüsusi önəm daşıyır. Konstitusiyanın 30 illiyi həm də yeni islahatlar üçün hüquqi–siyasi zəminin möhkəmləndirilməsi baxımından əlamətdardır.

Azərbaycan tarixinin bu yeni mərhələsi keçmişin dərsləri, eləcə də gələcəyin hədəfləri ilə zəngindir. "Konstitusiya və Suverenlik İli" dövlətçilik ənənələrinin möhkəmlənməsi, milli həmrəyliyin gücləndirilməsi və hüquqi dövlətin inkişafı istiqamətində strateji çağırışdır. Uzun illərin mübarizəsindən sonra öz tarixi hədəflərinə çatan xalqımızın bu gün qarşısında duran əsas vəzifə həmin qələbələri qorumaq, dövləti gücləndirmək və gələcək nəsillərə daha qüdrətli bir Azərbaycan miras qoymaqdır. Dövlət başçısının müvafiq Sərəncamına əsasən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması bu baxımdan böyük tarixi və siyasi əhəmiyyətə malikdir. Bu qərar, ilk növbədə, Azərbaycan dövlətçiliyinin əsaslarını daha dərindən öyrənmək, gələcək nəsillərə ötürmək, Konstitusiyanın mahiyyətini və dəyərlərini geniş ictimaiyyət arasında təbliğ etmək məqsədi daşıyır.

Eyni zamanda, bu il sadəcə, tarixi hadisələrin qeyd olunması ilə məhdudlaşmır. Azərbaycanın hüquqi və dövlətçilik inkişafının daha da gücləndirilməsi, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, qanunun aliliyinin tam təmin olunması üçün yeni bir imkan açır. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, insan hüquq və azadlıqlarının müdafiəsi, məhkəmə–hüquq islahatlarının dərinləşdirilməsi məhz bu dövrün mühüm prioritetlərindən biridir.

Azərbaycan Konstitusiyası 30 ilə yaxın bir müddətdə ölkəmizin müstəqilliyinin, hüquqi sabitliyinin və siyasi inkişafının əsas təminatçısı kimi fəaliyyət göstərib. Onun qəbulunu gerçəkləşdirən ümummilli lider Heydər Əliyevin dövlətçilik irsinin bu gün də uğurla davam etdirilməsi xalqımızın gələcəyə inamını daha da möhkəmləndirib. Bir sözlə, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması, şübhəsiz ki, həm tarixi dəyərlərin qorunması, həm də hüquqi dövlət quruculuğunun yeni mərhələyə yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu il bir daha sübut edir ki, Konstitusiyamız təkcə hüquqi sənəd deyil, eyni zamanda, müasir, müstəqil Azərbaycanın dövlətçilik fəlsəfəsinin təcəssümüdür.

***Rəşid MAHMUDOV,***
***Suraxanı rayon prokuroru***

*Təqdimat*

# Moskvalı soydaşımızın növbəti sənət hesabatı




**Çağdaş mühacir ədəbiyyatımızın tanınmış yazarı, Moskvada yaşayan yazıçı-jurnalist Ulduz Qasım Vətəndə keçirdiyi yay istirahəti günlərində son dövrdə işıq üzü görmüş 3 yeni kitabını ictimaiyyət nümayəndələrinə təqdim edib.**



Azərbaycan Mətbuat Şurasında keçirilən mərasimi giriş sözü ilə açan Şuranın Ahıl Jurnalistlər Məclisinin sədri, Əməkdar jurnalist Tahir Aydınoğlu bildirib ki, Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin 1983-cü il məzunu Ulduz Qasım (İmanova) orta məktəb və tələbəlik illərindən mətbuatda müxtəlif janrlı yazılarla yanaşı, bədii nümunələrlə də çıxış edib. Azərbaycan Radiosunda əməkdaşlıq etdiyi dövrdə istedadlı jurnalist kimi tanınan müəllif ailə həyatı ilə bağlı Moskva şəhərində yaşadığı son 40 ildə özünü bədii yaradıcılığa həsr edib, çoxsaylı şeir və nəsr əsərləri yaradıb.

Aparıcı qeyd edib ki, Cəbrayıl rayonunun Arazqırağı Mərcanlı obasının Mehdili kəndində böyümüş Ulduz Qasımın yaradıcılığının böyük hissəsini Qarabağ münaqişəsi və müharibəsinin bədii-sənədli salnaməsinə çevrilən əsərlər təşkil edib. Ümumiyyətlə, onun yaradıcılığı bütünlüklə ölkəmiz və xalqımızla bağlıdır. Yazıçının ölkəmizdə və xaricdə çap edilmiş əsərlərində qanlı-qadalı çoxillik Qarabağ xronikası, Xocalı müsibəti, məcburi köçkünlərin, şəhid ailələrinin ağrı-acıları, xalqımızın qələbəyə olan sarsılmaz ümidi və zəfər yürüşü davamlı əksini tapıb, geniş auditoriyada əks-səda yaradıb.

Ulduz Qasımın yaradıcılığını ətraflı tədqiq və təbliğ edən "Kredo" qəzetinin baş redaktoru, şair-publisist Əlirza Xələfli bildirib ki, yazıçının "Ağ göyərçinlər" romanı 44 günlükVətən müharibəsinin bədii müjdəsini verib. Onun "Qarabağda qiyamət" romanı isə böyük zəfərimizə həsr edilmiş ilk irihəcmli nəsr əsəridir. Soydaşımız bu dəfə oxucularla görüşə yeni 3 kitabı – "Qarabağda qiyamət" romanının davamı olan "Qarabağın cənnət çiçəkləri" əsəri, xalqımıza məxsus şəfqət və mərhəmət mövzusunda sənədli "Xanımlıq zirvəsinin "Böyükxanımı"" və "Maral" romanının rus dilində nəşri ilə gəlib.

Təqdimata toplaşmış yazıçının tələbəlik dostları, tanınmış ziyalılar, oxucular, sosial şəbəkə çevrəsi Ulduz Qasımı yeni kitablarının nəşri münasibətilə təbrik ediblər, ona yeni yaradıcılıq uğurları arzulayıblar.

Tanınmış şərqşünas, yazıçı-jurnalist, İslam Əməkdaşlıq Təşkilatı Ölkələri Jurnalistlər Assosiasiyasının prezidenti Fazil Güney, AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri Elçin Mehrəliyev, "Mədəniyyət" jurnalının baş redaktoru Zöhrə Əliyeva, "Maral" romanının rus dilinə tərcüməçisi professor Flora Naci, "Ağ göyərçinlər" romanını ingilis dilinə çevirmiş yazıçı-publisist Kamran Nəzirli, "Qarabağda qiyamət" romanının qəhrəmanlarından Şuşa fatehi Fərid Ələkbərovun anası Şükufə Hüseynova,"Yeni təfəkkür" qəzetinin baş redaktoru Şəmsiyyə Kərimova, "Xatirə kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədli, jurnalistlər Zərifə Bəşirqızı, Əntiqə Qonaq, Nəzirməmməd Zöhrablı və digər çıxış edənlər mühacir ədəbiyyatımızda Vətənin sevinc və kədərini yüksək bədiiliklə əks etdirən Ulduz Qasımın yaradıcı fədakarlığını yüksək dəyərləndiriblər, ədəbi tənqid və ədəbi qurumların onun əsərlərinə lazımi diqqət yetirmələrini arzu ediblər.

Sonda Ulduz Qasım "mühacir yazıçı" ifadəsini qeyd-şərtlə qəbul etdiyini, özünü bütünlüklə Vətən yazıçısı saydığını, ömrünün sonunadək Azərbaycan gerçəkliyini qələmə alacağını söyləyib, xoş sözlərə, yüksək diqqətə görə təşəkkürünü bildirib.

***T.RÜSTƏMLİ***
***XQ***

# "Zəfər yolunun davamçıları" Ağbulaq yaylağında




**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Naxçıvanın Ağbulaq İstirahət Mərkəzində ölkənin xüsusi kateqoriyadan olan uşaqı üçün 3 günlük "Zəfər yolunun davamçıları" adlı "Yay düşərgəsi" təşkil olunub.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə düşərgəyə Bakı şəhəri və bölgələri təmsil edən 30 nəfər həssas qrup ailələrindən olan uşaq cəlb edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli düşərgədə uşaqlarla görüşərək onların istirahət və əyləncə şəraiti ilə maraqlanıb. Düşərgə iştirakçıları ilə söhbət zamanı o bu toplanışın yeni dostluqlar qazanılması, birlik və vətənpərvərlik duyğularının yüksəldilməsi baxımından daha bir bir fürsət olduğunu bildirib, uşaqlara yaradılan şəraitdən səmərəli istifadə etməyi tövsiyə edib, onlara xoş və mənalı istirahət arzulayıb.

Naxçıvan MR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev xüsusi kateqoriyadan olan uşaqların iştirakı ilə belə aksiyaların davamlı olduğunu, bu sıradan yay və qış düşərgələrinin önəmini qeyd ediblər.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Separatçıların “miatsum” fitili

## Xankəndidəki “Biz və bizim dağlar” abidəsi Qarabağa düşmənçilik düşüncəsi yayıb

**Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi və birbaşa diqqəti sayəsində işğaldan azad edilmiş ərazilərdə 5 ilə yaxındır həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri təkcə Qarabağ və Şərqi Zəngəzurda dağıdılmış infrastrukturun deyil, həm də milli mədəniyyətimizin, tarixi yaddaşın və dövlətçiliyin bərpasını təmin edən çoxşaxəli prosesdir. Sürətlə reallaşdırılan “Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində bu ərazilərdə müasir innovasiyaların tətbiqi ilə yeni yaşayış məhəllələri salınır, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları tikilir, kommunikasiya sistemləri qurulur, eyni zamanda, erməni vandalizminin qurbanına çevrilmiş tarixi abidələr bərpa olunur. Yəni xalqımıza məxsus mədəni irs nümunələri yenidən həyata vəsiqə qazanır, əvəzində işğal dövründə və daha əvvəldən tikilmiş, ermənilərin məkrli niyyətlərinin simvollarına çevrilmiş binalar və abidələr tarixin zibilxanalarına göndərilir.**

Misal olaraq, Xankəndidə 2021-ci il dekabrın 1-də “Rusiya Şöhrət Xiyabanı” layihəsi çərçivəsində separatçılar və Rusiya sülhməramlıları tərəfindən qanunsuz şəkildə ucaldılmış erməni əsilli rəssam İvan (Hovhannes) Ayvazovskinin heykəlinin demontaj edilməsini, uzun illər separatçı rejimin qondarma “Xarici İşlər Nazirliyi”nin istifadə etdiyi inzibati binanın sökülməsini göstərmək olar. Demontaj və söküntü işlərinin aparılmasının ciddi hüquqi əsaslarının mövcudluğu ilə yanaşı, bu addımların atılmasını zərurətə çevirən həm də Xankəndidə müasir urban planlaşdırmasının bütün parametrləri nəzərə alınmaqla həyata keçirilən şəhərsalma siyasəti və şəhərin gözəlləşməsi prosesi çərçivəsində görülən işlərdir. Separatçıların izlərinin silinməsi istiqamətində atılmış növbəti təqdirəlayiq addım son illər ictimaiyyət arasında geniş müzakirələr yaradan daha bir mövzunu aktuallaşdırıb – Xankəndi şəhərinin girəcəyindəki rəsmi adı “Biz və bizim dağlar” olan, ancaq ermənilərin “Nənə-baba” adlandırdıqları heykəlin mövcudluğuna ehtiyac varmı? Erməni separatizminin simvollarından sayılan heykəlin şəhərin ziyarətçilərinin kütləvi şəkil çəkdirdiyi məkana çevrilməsi nə dərəcədə doğrudur? Əsas sual isə budur: Vaxtilə bu heykəl nə məqsədlə qoyulub?

**Qarabağ Universitetinin Humanitar və sosial elmlər fakültəsinin müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Bilal Dədəyevin** qəzetimizə açıqlamasına görə, sözügedən



abidənin ucaldılması 1960-cı illərdə yenidən güclənən erməni millətçiliyinin təsiri ilə sıx bağlıdır:

– Xüsusilə 1965-ci ildə İrəvanda qondarma “erməni soyqırımı”nın 50 illiyi ilə əlaqədar keçirilən aksiyalar Xankəndidə də milli zəmində gərginlik yaratmış, hətta bir neçə azərbaycanlının qətlə yetirilməsi ilə nəticələnmişdi. Bu hadisələrin fonunda ermənilər Xankəndidə siyasi mahiyyət daşıyan “tarixi əhəmiyyətli” abidə tikmək qərarına gəlmişdilər. Abidənin müəllifi Azərbaycan SSR-in vətəndaşı, erməni əsilli heykəltəraş Sarkis Baqdasaryandır. O dövrdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində çalışan Heydər Əliyev abidənin siyasi məqsədlər üçün istifadə olunacağı ehtimalını nəzərə alaraq, onun beton bünövrə üzərində tikilməsini tələb etmişdi. Lakin ermənilər məqsədli şəkildə keçmiş SSRİ rəhbərliyini müxtəlif yollarla aldadaraq heykəli birbaşa torpaq üzərində ucaltmış və onun daha qədim görünməsinə çalışmışdılar. Məqsəd isə gələcəkdə abidəni “erməni tarixi irsi” kimi qələmə vermək idi.

Alim bildirdi ki, hazırda Xankəndinin girişindəki sağ yamacda yerləşən və dövlətimizin büdcəsi hesabına 1967-ci ildə inşa edilmiş heykəl ilkin olaraq ermənicə “Nənə-baba” adlandırılsa da həmin dövrdə Azərbaycan rəhbərliyinin və ziyalılarının ciddi etirazı nəticəsində dəyişdirilərək “Biz və bizim dağlar” adı ilə rəsmiləşdirilib. Buna baxmayaraq, ermənilər abidəni öz aralarında hər zaman “Nənə-baba” kimi tanıdıb.

Bəzi erməni müəlliflərin uydurmalarına görə, abidə guya ermənilərin “ulu babası” hesab edilən Tiqran və onun həyat yoldaşının xatirəsinə ucaldılıb. Digər versiyalarda isə heykəltəraş Baqdasaryanın abidəni öz nənə və babasına həsr etdiyi bildirilir. Sovet mətbuatında da heykəlin mənası müxtəlif şəkildə təqdim olunub. Məsələn, 1976-cı ildə “Pravda” qəzetində guya “dünyada uzunömürlülərə həsr edilmiş ilk abidə” kimi bəhs edilib. Əslində isə...

### İrəvana sitayiş memorialı

B.Dədəyevin fikrincə, heykəlin üzərində xaç işarəsinin yerləşdirilməsi və onun müxtəlif dövrlərdə ermənilərin milli simvolu kimi istifadə olunması diqqət çəkir:

– Belə ki, abidə keçmiş qondarma “Dağlıq Qarabağ Respublikası”nın “gerbində” və 5 qəpiklik pul vahidində təsvir edilmişdi. Yəni birmənalı olaraq, torpaqlarımızda və Azərbaycan SSR-in büdcəsi hesabına inşa edilsə də, onun xalqımızın tarixi keçmişi və mədəni irsi ilə heç bir bağlılığı yoxdur.

Xankəndi qədimdən xalqımızın yurd saldığı, Azərbaycan dövlətlərinin mövcud olduğu ərazilərdə yerləşib, Qarabağ xanı İbrahimxəlil xanın şəxsi mülkü olub və xalq arasında “Xanın kəndi” mənasında “Xankəndi” adlandırılıb. Tarixçi Molla Pənah Vaqifdən sonra Qarabağ xanının vəziri olmuş Mirzə Camal Cavanşir yazırdı: “Mərhum İbrahim xandan altı imarət qalmışdır ki, onlardan biri də Şuşadan bir qədər aralıda yerləşən Xan bağıdır”. Məhz bu abidənin ucaldıldığı ərazi azərbaycanlılar tərəfindən uzun illər “Xanbağı” adlandırılıb.

Bu tarixi faktlar Prezident İlham Əliyev tərəfindən də 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində “Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi”nə dair panel müzakirəsində Ermənistanın baş naziri Nikol Paşinyanın tarixi təhriflərinə cavab olaraq xüsusi vurğulanmışdır.

Həmin ərazidə Qarabağ xanı İbrahimxəlil xanın şərəfinə abidənin ucaldılması məqsədəuyğun olardı. Belə abidə həm Xankəndinin tarixi simvoluna çevrilə bilər, həm də şəhərə gələn qonaqlara xalqımızın həqiqi tarixi irsini təqdim etmək baxımından xüsusi əhəmiyyət daşıyar.

Mövzu ilə bağlı siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevin mətbuata açıqlamasındakı bir məqam da xüsusi maraq doğurur: “1967-ci ilin 3 iyununda Xankəndidə Nelson adlı gənc erməninin öldürülməsi faktını (halbuki bunu ermənilər elə özləri etmişdilər – Z.Ə.) Əşrəf adlı azərbaycanlı məktəb direktorunun və daha bir neçə nəfərin üzərinə yıxdılar. Məhkəmə Əşrəfin güllələnməsinə, digərlərinin azad buraxılmasına qərar versə də, ermənilər qərara etiraz etdilər. Hadisə 3 nəfər azərbaycanlının diri-diri yandırılması ilə nəticələndi. Beləliklə, şəhərdə “Xankəndi Ermənistana birləşdirilməlidir” tələbilə böyük üsyan başladı. Bu dövrdə sakitlik yaranandan sonra ermənilər uydurma “Nənə-baba” heykəlinin özülünü qazarkən həmin hadisəyə şahid olmuş 2 azərbaycanlının başını kəsib ora atdılar. Həmçinin erməni dilində “Bura qədim Ermənistan torpağıdır. Bizim arzumuz budur ki, “böyük Ermənistan” reallaşan kimi bu heykəli söküb üzü Bakıya tərəf yenidən ucaldaq” yazısını yazaraq, şüşə qabda bünövrəyə qoyurlar...”.

### “O şər yuvası sökülməlidir!”

**118 saylı Ağdam-Xocalı Seçki Dairəsindən Milli Məclisin deputatı Elman Məmmədov** da mövzu ilə bağlı “Xalq qəzeti”nə



bildirdi ki, bəzi özünü “tarixçi”, “alim” adlandıranlar müxtəlif vaxtlarda mətbuata açıqlama veriblər ki, “Nənə-baba” abidəsi guya qoşa dağların rəmzidir, özündə uzunömürlülüyü ehtiva edir:

– Qətiyyən belə deyil. Bu abidə ermənilər tərəfindən məqsədli şəkildə qoyulmuşdu ki, həmin ərazilər tarixən guya ermənilərə məxsus olub. Azərbaycan rəhbərliyi də sözügedən abidənin sökülməsi, o vaxtkı “Dağlıq Qarabağ Muxtar Vilayəti”nin birinci katibinin cəzalandırılması ilə bağlı məsələ qaldırmışdı. Ancaq Moskva buna imkan verməmişdi. Həmin vaxt ermənilər gördülər ki, bunlara dəyib-toxunan yoxdur, abidədən 100 metr aşağıda, Xankəndi şəhərinin girişindəki Dövlət Yol Polisi postunun yanında, düz yolun ortasında başqa bir abidə də ucaltdılar. Adını qoydular ki, guya açar formasındadır, şəhərin rəmzi açarını simvolizə edir. Amma əslində erməni xaçı formasında idi. Bu addım da məqsədli şəkildə atılmışdı. Çünki o dövrdə separatçı proseslərə start verilmişdi. “Nənə-baba” erməni qoca kişi ilə qoca arvadını özündə əks etdirir. Qətiyyətlə təklif edirəm ki, ölkəmizə, millətimizə, tariximizə, memarlığımıza heç bir aidiyyatı olmayan bu abidə sökülsün.



E.Məmmədov onu da əlavə etdi ki, ermənilərdən fərqli olaraq, biz heç vaxt heç bir millətin mədəni dəyərlərinə toxunmamışıq:

– Bakıda da çox yerdə başqa millətlərə məxsus dini abidələr var. Dövlətimiz tərəfindən qorunub saxlanır. Bu, Azərbaycanın tolerantlığını, humanizmini göstərir. Ermənilər isə dünyaya haray salırlar ki, guya biz onların “dini-tarixi abidələrini” dağıdırıq, məhv edirik. Qətiyyən belə deyil. Bu, ölkəmizə qarşı şər-böhtandır. Ancaq yenə də qeyd edirəm ki, “Nənə-baba” abidəsi Xankəndidə məqsədli şəkildə qoyulub, birbaşa erməni separatizmini simvolizə edir. Mən bir Azərbaycan vətəndaşı, orada yaşamış sakin kimi həmin heykəlin sökülməsinin tərəfdarıyam.

### “Bilmirik nə abidədir...”

Sevindiricidir ki, torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağa və Şərqi Zəngəzura kütləvi turist axını müşahidə olunmaqdadır. Uzun illər bu doğma yurd yerlərimizin həsrəti ilə yaşamış insanlar fürsət düşdükcə Xocalını, Xankəndini, Şuşanı, Laçını və digər şəhər və rayonlarımızı ziyarət etməyə tələsirlər. Müşahidələr isə göstərir ki, Xankəndiyə gələn qonaqların demək olar əksəriyyəti şəhərin girişində dayanır, “Nənə-baba” heykəlinin yanında şəkil çəkdirirlər. Sözügedən ərazidə olduğumuz müddətdə də eyni vəziyyətin şahidi olduq. Abidənin yaxınlığında park edən avtomobillərdən düşənlərin hamısı, uşaqlı-böyüklü “Nənə-baba”ya doğru tələsirdilər. Qonaqlardan bir neçəsi ilə həmsöhbət olub, niyə məhz bu heykəlin önündə şəkil çəkdirdikləri ilə maraqlandıq. Mövzu ilə bağlı münasibət bildirənlərdən bəziləri heykəl haqqında ümumiyyətlə məlumatsız olduqlarını etiraf etdilər: “Düzü, heç bilmirik bu nə abidədir, kimindir. Sosial şəbəkələrdə görürük ki, Xankəndiyə gələnlərin hamısı burada şəkil çəkdirir, ona görə biz də çəkdiririk”.

“Nənə-baba”nın yanında şəkil çəkdirməyi ermənilərdən qisas almaq cəhdi kimi təqdim edənlər də tapıldı. Əslən ağdamlı olan keçmiş məcburi köçkün Zaməddin Sultanov, Rusiyada yaşayan soydaşımız Canpolad Quliyev, Bakı sakinləri İsa Sadıqov, Rahib Məhərrəmov isə bildirdilər ki, trendə qoşulub şəkil çəkdirsələr də, sözügedən abidənin mövcudluğu onları narahat edir, demontaj olunmasının tərəfdarıdırlar. Çünki bu heykəl qeyd-şərtsiz ermənilərin məkrli planlarının “abidəyə çevrilmiş nümunəsi”, uzun illər torpaqlarımızı işğal etmiş separatçıların bütün dünyaya sırımağa çalışdıqları simvollarından biridir.

Göründüyü kimi, istər mütəxəssislərin, istərsə də ictimaiyyət nümayəndələrinin mövzuya yanaşmalarında əsas ortaq xətt vaxtilə qondarma “DQR”-in qondarma gerbini də “bəzəmiş” “Nənə-baba”nın sökülməsidir. Çünki o, tarixi irs deyil, “dənizdən-dənizə böyük Ermənistan” adlı məkrli planın eybəcər qalığıdır. Görünür, ermənilərin “Nənə-baba”sı ilə şəkil çəkdirmək imkanlarına son qoymağın, bu abidəni də Ayvazovskinin heykəli, separatçı rejimin qondarma “XİN”-in istifadə etdiyi inzibati bina kimi tarixin zibilxanasına göndərməyin vaxtı çatıb. Həmin ərazidə isə elə indidən “Dəmir yumruğ”un yeri görünür...

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

*Replika*

# Paşinyanın Bibliyası

## Vaşinqtondakı muzey niyə ehtiyatlı olmalıdır?

**Ermənistanın baş naziri Nikol Paşinyan bu ilin fevralında ABŞ-da keçirilmiş Beynəlxalq Dini Azadlıq Sammitində çıxış edərkən, dini ehkamlara söykənmənin onun həbsxana həyatında mühüm yer tutduğunu və böyük mənəvi anlam daşıdığını vurğulamışdı. Ancaq ekspert dairələrinin diqqətini çəkən yalnız Nikolun çıxışı deyildi.**

Birincisi, erməni hökumət rəhbəri Birləşmiş Ştatlara qəfil səfər reallaşdırmışdı və tam aydındır ki, o, yenicə fəaliyyətə başlamış Prezident Donald Tramp administrasiyası ilə hansısa təmasların axtarışında idi. Hərçənd, Paşinyanın cəhdlərinin uğurlu alınmadığını söyləyə bilərik.

İkincisi, belə rəy formalaşmışdı ki, Nikol Ermənistanın sırf xristian dininin daşıyıcı olan dövlət olduğunu vurğulamaq üçün ABŞ-a gedib. Nəzərə alaq ki, baş nazir çıxışında, eyni zamanda, ölkəsini xristianlığı ən tez qəbul edən məmləkət kimi xarakterizə etmiş, hətta nağıl da danışmışdı. Təxminən belə: Ermənistan kralı o vaxt dinə qarşı imiş, sonra görüb ki, xristianlıq yaxşı dindir...

Qeyd edək ki, Prezident İlham Əliyev bir müddət əvvəl Ermənistan rəhbərliyinin ABŞ-da ötən il keçirilmiş Prezident seçkilərindən gözləntilərinin olduğunu vurğulamışdı. Dövlətimizin başçısı bildirmişdi ki, rəsmi İrəvan D.Tampın deyil, ona müxalif qüvvələrin qalib gəlməsini istəyib. Lakin bu gerəkləşmədiyindən, Azərbaycanla sülh müqaviləsinin bütün şərtlərini qəbul etmək məcburiyyətində qalıb.

Məsələyə mövcud prizmadan da yanaşsaq, deyə bilərik ki, Paşinyan fevralda Beynəlxalq Dini Azadlıq Sammitində iştiraka yox, Birləşmiş Ştatlarda, belə demək mümkünsə, son güllələrini atmağa getmişdi. Getdi və bildirdiyimiz kimi, səfərdən əliboş qayıtdı. Sonra baş verənlər, o cümlədən, avqustun 8-də ABŞ-da Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanması, eləcə də Prezident Trampın şahidliyi ilə imzalanmış Birgə Bəyannamə hər kəsə yaxşı məlumdur. Söhbət Azərbaycan Prezidentinin Vaşinqtondakı diplomatik zəfərindən gedir.

Əlqərəz, indi baş nazir Paşinyan yenidən dini hislərə güc vermək qərarına gəlib. O, həbsxanada cəza çəkərkən özü ilə saxladığı Bibliyanı Vaşinqtondakı Bibliya Muzeyinə (Museum of the Bible) hədiyyə edib və bunu özünün sosial şəbəkə hesabında bölüşüb. Əlbəttə, Nikol hərəkətinin sırf mənəvi anlamını qabardıb. Biz də durumun məhz bu cür olduğuna inanmaq istərdik. Amma...

“Əmma” barədə söz açacağıq. Əvvəlcə isə Vaşinqtondakı Bibliyi Muzeyi barədə məlumat verərək deyək ki, 2017-ci ildə Donald Trampın birinci Prezidentliyi zamanında “Hobby Lobby” şirkətinin sahibləri – Birləşmiş Ştatların tanınmış Green ailəsinin təşəbbüsü ilə yaradılmış mədəniyyət qurumu ABŞ Konqresinin yaxınlığında yeləşir, paytaxtdakı ən yeni və böyük mədəni-dini muzeylərdən biri sayılır. Burada Bibliyanın tarixi, təsiri və məzmunu barədə çoxsaylı eksponatlar, ən qədim əlyazmaların surətləri, qədim yəhudi və xristian mətnləri, müxtəlif dillərdə nəşr olunmuş Bibliyalar var. Ziyarətçilər üçün interaktiv texnologiyalar, virtual reallıq vasitələri və



multimedia təqdimatları ilə nümayiş imkanı da mövcuddur.

Bildirilir ki, Bibliya Muzeyi yalnız dini ibadət məkanı deyil, daha çox elmi, tarixi və mədəni mərkəz kimi fəaliyyət göstərir və məqsədi Müqəddəs Kitabın dünya mədəniyyətinə, incəsənətə, ədəbiyyata və insan həyatına təsirini göstərməkdir. 40 min kvadratmetr ərazidə yerləşən, 6 mərtəbədən ibarət muzeyi hər il yüz minlərlə insan ziyarət edir. Orada Bibliya tarixi üçün əvəzsiz mənbələr, yunan dilinə edilmiş ilk Bibliya tərcüməsinin fraqmentləri Gutenberq Bibliyası, Kral Ceyms Bibliyası, nadir Bibliya nüsxələri, həmçinin arxeoloji tapıntılar, Bibliya mövzusunda işlənmiş qədim və orta əsr rəsm əsərləri, Avropa incəsənətində Bibliya obrazlarını əks etdirən heykəllər və miniatürlər saxlanılır. Muzeydə Müqəddəs Kitabın ABŞ tarixində və dövlət quruculuğunda rolu diqqətə çatdırılır, virtual şəkildə Qüds gəzintisi təşkil olunur. Mədəni müəssisəni maraqlı edən tərəflərdən biri də klassik eksponatlar ilə müasir texnologiyaların sintezidir.

Bəli, Bibliya Muzeyi ABŞ-da kifayət qədər populyardır. Bir müddət əvvəl Prezident Trampın orada çıxış etməsi də bunun sübutudur. Ümumən, ABŞ Prezidentinin mühafizəkar təbiətində din amili xüsusi yer tutur. Görünür, elə buna görədir ki, ondan Bakı həbsxanalarında saxlanılan xristianların azadlığa buraxılmasına dəstək kimi cəfəng xahiş də edilmişdi. Sən demə, Qarabağdakı keçmiş separatçı rejimin rəhbərlərinin, eləcə də Azərbaycan ərazilərində cinayətlər törətmiş şəxslərin daşıdıqları din də var imiş.

Əlqərəz, bu sayaq manipulyasiyalara görədir ki, hazırda baş nazir Paşinyanın Bibliya Muzeyinə özünün həbsxanada yatarkən sığındığı Bibliyanı hədiyyə etməsi, istər-istəməz, sual doğurur. Görəsən, Nikolun məqsədi nədir? Vurğuladığımız kimi, İrəvan Bakı ilə sülh müqaviləsini paraflayıb. İndi Ermənistanın qarşısında



duran əsas vəzifə ölkə konstitusiyasına dəyişiklik, sənədin Azərbaycana qarşı ərazi iddiasına köklənmiş İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qalxmasıdır ki, mövcud istiqamətdə hansısa addımların atıldığını görmürük.

Sonda onu da bildirək ki, Vaşinqtondakı Bibliya Muzeyi bəzən müxtəlif mübahisələrin də mərkəzində dayanıb. İlk illərdə bəzi qədim əlyazmaların saxtalığı barədə xəbərlər yayılmışdı. Məsələn, muzey açılarkən böyük reklam edilən eksponatlardan biri “Ölü Dəniz Əlyazmaları” idi. Sonradan həmin əlyazmaların fraqmentlərinin saxtalığı üzə çıxdı.

Bundan başqa, muzeyin əsasını qoymuş Green ailəsi (“Hobby Lobby” şirkətinin sahibləri) 2010-cu illərdə Orta Şərqdən minlərlə qədim əlyazma və artefakt almışdı. ABŞ məhkəməsi müəyyən etdi ki, bu eksponatların çoxu İraq və Misirdən qanunsuz yollarla çıxarılıb. Nəticədə 2017-ci ildə “Hobby Lobby” 3 milyon dollar cərimə ödəməli oldu, habelə 5500-dən çox gil lövhə və digər qədim əşya İraqa qaytarıldı. 2021-ci ildə isə muzeydəki daha bir neçə qədim papirus və “Gənc Mesopotamiya lövhələri” Misirə qaytarıldı.

Onu da deyək ki, müəssisə rəhbərliyi muzeyi elm və tarix mərkəzi kimi təqdim etsə də, tənqidçilər fərqli düşünürlər. Onların qənaətincə, mədəni mərkəz xristian fundamentalizmini və konservativ dini baxışları təbliğ edir. Yəni, muzey dini təbliğat vasitəsi olmaqda ittiham edilir. Üstəlik, bəzi interaktiv təqdimatlarda Bibliyanın ABŞ-ın siyasi və mədəni kimliyindəki rolunun şişirdilməsi barədə narazılıqlar var. İndi Paşinyan həbsxanada olarkən əlindən yerə düşmədiyini bildirdiyi Bibliyanı hədiyyə edirsə, deməli, Bibliyi Muzeyinin rəhbərliyi keçmişdəki dərslərdən nəticə çıxarmalı və “Qafqazın Nelson Mandelasının” hədiyyəsinə həssas yanaşmalı, ciddi yoxlanış etməlidir ki, yeni qalmaqal yaşanmasın.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan Orta Dəhlizin strateji mərkəzinə çevrilir

**Bakının regional nəqliyyat və logistik mərkəz kimi önəmini sürətlə artırır. Orta Dəhlizin inkişafı çərçivəsində keçirilən tədbirlər və layihələr Azərbaycanın beynəlxalq ticarət şəbəkəsində strateji mövqeyini möhkəmləndirir, region ölkələri arasında əməkdaşlığı gücləndirir. Bunun uğurlu nəticəsidir ki, sentyabrın 9-11-də Bakıda 4-cü Beynəlxalq “Black and Caspian Freight Forum 2025” çərçivəsində “Dəhlizlər, yüklər, infrastruktur” mövzusunda konfrans və sərgi keçirilir. Bu tədbir həm regional, həm də beynəlxalq logistika liderləri üçün əsas görüş platformasına çevrilir və 25-dən çox ölkədən təxminən, 250 nümayəndəni bir araya gətirib.**



Konfransın ilk günündə müxtəlif iştirakçılar və çıxış edənlər qlobal nəqliyyat gündəminə toxunublar. Məsələn, Ukrayna və Gürcüstan arasında bərə marşrutunun bərpası Orta Dəhlizin fəaliyyətində əhəmiyyəti bir daha vurğulanıb. Məlumdur ki, bu marşrut yük daşımalarının sürətini artıraraq Azərbaycan vasitəsilə Avropaya çıxışı daha səmərəli edir. Ekspertlər vurğulayırlar ki, marşrutun bərpası tranzit xərclərinin azalmasına və logistika axınlarının optimallaşmasına xidmət edir.

Bununla yanaşı, tədbirdə çıxış edən Belçikanın ölkəmizdəki səfiri Jülyen de Frepon Azərbaycan, Ermənistan və ABŞ arasında imzalanmış razılaşmalar haqqında danışıb. Bunun Orta Dəhlizin potensialını gücləndirəcəyini vurğulayan səfir, layihənin region ölkələri və beynəlxalq tərəfdaşların marağını artırır, ticarət əlaqələrinin inkişafına təkan verəcəyini bildirib.

Qeyd edək ki, tədbir çərçivəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tutumunun iki il ərzində 2 min 600 TEU-ya qədər artırılması planları açılanıb. Bu, Azərbaycanın regional yük daşımalarının mərkəzinə çevrilməsini sürətləndirir və logistik imkanlarını genişləndirir.

Çexiya şirkətinin Azərbaycana unikal təmizləmə texnologiyaları ilə daxil olması yerli bazarın modernləşməsinə töhfə verəcək, Avropa standartlarının tətbiqi isə tranzit və logistika proseslərinin səmərəliliyini artıracaq.

Mərkəzi Asiya ölkələrinin konteyner təminatında mövcud avadanlıq disbalansı Orta Dəhlizin strateji əhəmiyyətini daha da yüksəldir. Ekspertlər bildirir ki, Azərbaycan vasitəsilə yük daşımalarının sürəti və səmərəliliyi region üçün önəmli üstünlükdür.

“Beijing Trans Eurasia International Logistics” şirkətinin sədri Vansyuy Dunda isə çıxışında bildirib ki, Orta Dəhlizin inkişafı olmadan Çin – Avropa arasında yük axınını qorumaq çətin olacaq. Orta Dəhliz üzrə yükdaşımaların inkişafı və xidmətlərin optimallaşdırılması region ölkələri qarşısında duran əsas vəzifələrdən biridir. Onun sözlərinə görə, Orta Dəhlizin əsas problemlərindən biri əlverişsiz hava şəraiti, pik mövsümlərdə məhdud ötürmə qabiliyyəti və sənəd dövriyyəsi zamanı vaxt itkisidir.

“Alliance Multimodal LLC.” nin baş icraçı direktoru Natiq Cəfərov çıxışında unikal fikirlər səsləndirib. Qeyd olunub ki, Zəngəzur dəhlizi Azərbaycanın həm Şərqlə, həm də Qərblə bağlantısını daha da genişləndirəcək. Hazırda Bakı Beynəlxalq Dəniz Limanının tutumu 1500 TEU-dur və bu göstərici iki il ərzində 2 min 600 TEU-ya qədər artacaq. Limanda hazırda illik 60 min nəqliyyat vasitəsi və 100 min vaqon emal edilə bilər. Orta Dəhlizin imkanları çətinliklərdən daha böyükdür və Azərbaycan tranzit mərkəzi kimi strateji üstünlüklərə malikdir.

Belçikanın “Gosselin Group” şirkətinin Qafqaz və Mərkəzi Asiya üzrə regional direktoru Con Brekeveldt isə deyib ki, hazırda Azərbaycanın iştirakı olmadan bütün Orta Dəhliz layihəsini həyata keçirmək mümkün deyil. Odur ki, Azərbaycan layihədə iştirak edən bütün ölkələri bir araya gətirməkdə və bu layihənin həqiqətən də lazım səviyyədə həyata keçirilməsində aparıcı qüvvə ola bilər.

Qeyd edək ki, 2024-cü ildə Orta Dəhlizlə yük daşımalarının həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. 2025-ci ildə bu göstəricinin 5,2 milyon tona yüksələcəyi proqnozlaşdırılır. Bunun 4,2 milyon tonu marşrut iştirakçısı ölkələrin ərazisindən keçəcək, 2,5 milyon tonu quru yüklərin (96 min TEU), 1,7 milyon tonu isə neftin payına düşəcək. Proqnozlara görə, 2027-ci ilə qədər Orta Dəhlizin illik buraxılış qabiliyyəti 10 milyon tona çata bilər.

Konfrans çərçivəsində daha bir əlamətdar tədbirin Bakıda keçirələcəyi xəbəri verilib. Belə ki, gələn ilin may ayında Azərbaycanda Beynəlxalq Nəqliyyat Forumunun İllik Sammiti keçiriləcək. Xatırladaq ki, bu toplantı qlobal nəqliyyat siyasətinin əsas tədbirlərindən biridir. Hər il may ayında nəqliyyat sahəsinə cavabdeh nazirlər, biznes liderləri, beynəlxalq təşkilatların rəhbərləri, parlament üzvləri, siyasət tərtibçiləri, biznes assosiasiyaları nümayəndələri və aparıcı tədqiqatçılar üç gün müddətində Almaniyanın Leypsiq şəhərində toplaşaraq nəqliyyatın gələcəyini strateji baxış bucağından müzakirə edirlər.

***XQ***

**Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik (TAP) boru kəməri əlavə 1,2 milyard kubmetr qazın nəqli üçün tələb olunan işlərin yekun mərhələsinə qədəm qoyub. Bu barədə TAP AG konsorsiumundan məlumat veriblər.**

# TAP-ın nəqletmə qabiliyyəti artırılır



Bildirilib ki, 2021-ci ildə keçirilmiş və 2023-cü ilin yanvarında başa çatmış bazar sınağının nəticələri əsasında illik 1,2 milyard kubmetr həcmində təbii qazın tədarükü üçün məcburi sifarişlər alınıb. Bu isə 2026-cı il yanvarın 1-dək qaz kəmərinin ötürücülük qabiliyyətinin müvafiq şəkildə genişləndirilməsini öncədən nəzərə almağa imkan yaradıb.

“Bura Yunanıstanın Türkiyə ilə sərhədinə yaxın ərazidə – Kipoi (Aleksandrupolis) bölgəsində yerləşən mövcud kompressor stansiyasında, təxminən, 15 meqavat gücündə yeni aqreqatın quraşdırılması, eləcə də infrastrukturun müasirləşdirilməsi daxildir. Hazırda TAP qəbul olunmuş öhdəliklərə uyğun olaraq bu əlavə imkanların istismara verilməsini təmin etmək üçün işlərin yekun mərhələsinə qədəm qoyub”, – deyə konsorsiumdan bildiriblər.

Yeri gəlmişkən, Trans-Adriatik Boru Kəməri Azərbaycan qazının böyük bazarlara çıxarılmasını təmin edən mühüm infrastrukturdur. TAP-ın ərsəyə gəlməsində ölkəmizin çox böyük rolu olub. Təsadüfi deyil ki, 2013-cü ildə boru kəmərinin tikintisi ilə bağlı imzalanmış müqavilənin iştirakçıları olan təsisçi şirkətlərin 60 faizi məhz Azərbaycandakı hasilatçılar idi. Bunlar, əsasən, hər biri 20 faiz iştirak payına malik SOCAR, BP və Statoyl şirkətləri olub. Yəni, TAP-ın ərsəyə gəlməsinə sərf olunan əziyyətin, çəkilən xərcin yarıdan çoxu Azərbaycan və tərəfdaşlarının payına düşür. Hazırda isə TAP-ın pay sahibləri BP (20 faiz), SOCAR (20 faiz), “Snam” (20 faiz), “Fluxys” (20 faiz) və “Enagas” (20 faiz) şirkətləridir.

Xatırladaq ki, Trans-Adriatik Qaz Boru Kəmərinin tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. Xəzərin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağının 2-ci işlənmə mərhələsi çərçivəsində hasil edilən təbii qazın TAP kəməri vasitəsilə Avropaya nəqlinə isə həmin il dekabrın 31-də başlanılıb. Prosesin ilk günündə kəmərlə 10,7 milyon kubmetr qazın Avropaya ixracı qeydə alınıb. Bununla da, ölkəmiz tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarmaq imkanı qazanıb. 2021-ci ildə ölkəmizdən “köhnə qitə”yə 8 milyard 150 milyon kubmetr təbii qaz ixrac olunub. Avropada Azərbaycan qazına tələbatın getdikcə çoxalması ilə əlaqədar həm alıcı ölkələrin, həm də “mavi yanacağ”ın həcmi ildən–ilə artıb. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda Azərbaycan 14 ölkəyə təbii qaz ixrac edir ki, bunun da 12-si Avropa dövlətləridir. 2024-cü ildə həmin ölkələrə 12,9 milyard kubmetr qaz ixrac olunub. Ümumilikdə, ötən müddətdə TAP Avropaya 52 milyard kubmetrdən artıq Azərbaycan qazı nəql edib.

Trans-Adriatik Qaz Boru Kəmərinin ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir. 2027-ci ilin sonunadək isə bu həcmin 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub.

Hazırda TAP mövcud və potensial interkonnektorlar vasitəsilə Cənub-Şərqi Avropa ölkələrini “mavi yanacaq”la təchiz edir. Boru kəməri 2022-ci ilin oktyabr ayından istismara verilmiş Yunanıstan–Bolqarıstan (IGB) interkonnektoruna da bağlıdır və onun vasitəsilə Xəzər qazı Bolqarıstana tədarük olunur. Ümumi uzunluğu 182 kilometr olan bu birləşdirici kəmərin inşasına 240 milyon avro xərclənib. Layihə gücü ildə 3 milyard kubmetr təşkil edən Yunanıstan – Bolqarıstan interkonnektorunun təməli 2019-cu il mayın 22-də qoyulub.

2022-ci ilin iyulunda tikinti işləri başa çatdırıldıqdan sonra Azərbaycan qazının boru xəttinə vurulmasına başlanılıb. Həmin il oktyabrın 1-də isə Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Rumen Radevin iştirakı ilə interkonnektorun açılış məraimi keçirilib. İlkin mərhələdə bu kəmərlə Bolqarıstana ildə 1 milyard kubmetr qazın verilməsi, sonra isə bu həcmin ildə 3 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Ötən müddətdə Bolqarıstan bu kəmər vasitəsilə 5 milyard kubmetrdən artıq Azərbaycan qazı idxal edib.

Göründüyü kimi, TAP-ın Yunanıstan və Albaniyaya, eləcə də İtaliyanın cənub sahillərinə çıxışı Azərbaycan qazının Avropa bazarlarına daha böyük həcmdə nəqlinə əlavə imkanlar yaradır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Su varsa, həyat da olacaq!

## *Onun qaynaqlarının iqlim dəyişikliyindən qorunması qlobal önəm daşıyır*

**Dünən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) dəstəyi ilə Bakı Su Həftəsi çərçivəsində – II Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransının açılışı keçirilib.**

Açılış mərasimində çıxış edən ADSEA sədri Zaur Mikayılov bildirib ki, ötən il uğurla reallaşan ilk Bakı Su Həftəsi bu platformanın zəruriliyini və əhəmiyyətini sübut etdi. Onun sözlərinə görə, artıq ənənəyə çevrilməkdə olan bu tədbir həm müzakirələr, həm də birgə həll yolları üçün geniş imkanlar yaradır: “Su ehtiyatlarının idarə olunması, onların qorunması və gələcək nəsillərə ötürülməsi Azərbaycan dövləti üçün strateji məsələlərdən biridir. Son illərdə həyata keçirilən islahatlar, qəbul olunmuş milli su strategiyası bu sahədə davamlı inkişafı təmin edir. Hədəfimiz su təhlükəsizliyini möhkəmləndirmək və təmiz suyun əlçatanlığını hamı üçün reallığa çevirməkdir”



Sərginin təşkilatçılarından olan “Caspian Event Organisers”in baş direktoru və “Iteca Caspian” şirkətinin icraçı direktoru Fərid Məmmədov isə diqqətə çatdırıb ki, builki sərgi su təsərrüfatında ən müasir texnologiyaları, innovativ yanaşmaları və qlobal təcrübələri nümayiş etdirəcək. Onun sözlərinə görə, tədbir dövlət strukturlarını, beynəlxalq şirkətləri, ekspertləri və peşəkarları bir araya gətirməklə su təchizatı sahəsində görülən və nəzərdə tutulan layihələri əyani şəkildə təqdim edəcək. F.Məmmədov onu da vurğulayıb ki, “Bakı Su Həftəsi” regionda su təsərrüfatı üzrə açıq dialoq üçün mühüm meydan yaradır və iştirakçılara real əməkdaşlıq imkanları təqdim edir.

Keçirilən tədbirlər özəl sektoru və mütəxəssisləri cəlb etməklə yeni ideyaların müzakirəsinə, innovativ həllərin ortaya çıxmasına, faydalı işgüzar əlaqələrin qurulmasına şərait yaradır. Bu baxımdan sərgi ölkəmizin su ehtiyatlarının idarə edilməsində səmərəliliyin artırılmasına yeni töhfələr verməyi qarşıya məqsəd qoyub.

Sərgidə Azərbaycanla yanaşı, Almaniya, ABŞ, Avstriya, Belarus, Böyük Britaniya, Çexiya, İsrail, İsveçrə, Hindistan, Macarıstan, Türkiyə, Serbiya, Səudiyyə Ərəbistanı və Sinqapurdan 60-dan artıq şirkət və nümayəndə heyəti iştirak edir.

Ekspozisiyada təqdim olunan sahələr çoxşaxəlidir: laboratoriya və analiz texnologiyaları, boru kəməri avadanlıqları, bulud toxumlama texnologiyaları, daşqınlardan qorunma sistemləri, drenaj avadanlıqları, hidrotexniki qurğular, içməli suyun emalı, su təchizatı və kanalizasiya, qazma və inşaat texnikası, ölçmə və nəzarət sistemləri, İKT və süni intellekt tətbiqləri, suvarma sistemləri, duzsuzlaşdırma texnologiyaları, tullantı sularının idarə olunması və digər istiqamətlər burada öz əksini tapıb.

Proqramın ilk günündə təqdimat zonasında “Su təmizlənməsi üçün kompleks həllər” və “Tullantı sularının idarə edilməsində kompleks mühəndislik yanaşması” mövzularında təqdimatlar olub. Eyni zamanda, “Qlobal iqlim dəyişikliyi: Azərbaycanda quraqlıq risklərinin idarə edilməsi” adlı keys sessiyası, “Xəzər dənizinin vəziyyəti və həll yolları” mövzusunda ekspert müzakirələri, eləcə də “Tullantı sularının dayanıqlı idarə olunması – COP29 məqsədlərinə doğru” adlı sessiya baş tutub.

Artıq konfrans çərçivəsində mühüm irəliləyişlər əldə olunub. Belə ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Macarıstanın Su Təsərrüfatı Baş İdarəsi arasında Anlaşma Memorandumu imzalanıb. Tədbirin ilk günündə, həmçinin Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə “SOCAR Green” MMC arasında enerji effektivliyi müqaviləsi və niyyət razılaşmasına da imza atılıb.

Bununla yanaşı, 2025–2027-ci illərdə ölkəmizdə sel və daşqın təhlükəsinə qarşı mühafizə tədbirlərinin əhatə dairəsi daha da genişləndiriləcək.

Proqrama əsasən, 2025-ci ildə çay hövzələrində və daşqın riski yüksək olan ərazilərdə monitorinqlər aparılacaq, eləcə də həmin zonaların xəritələri hazırlanacaq. Növbəti mərhələdə, 2026-cı ildən başlayaraq sahilbərkitmə işləri və mühafizə bəndlərinin inşası nəzərdə tutulur. 2027-ci ildə isə riskli ərazilərdə sel və daşqınların təsirlərinin minimuma endirilməsi üçün əlavə tədbirlərin icrası planlaşdırılıb.

Bununla yanaşı, 2025–2027-ci illəri əhatə edən dövrdə kəhrizlərin bərpası və yenidən qurulması da prioritet istiqamətlərdən biri olacaq. İlk olaraq 2025-ci ildə təmir və yenidən qurulması vacib olan kəhrizlərin siyahısı formalaşdırılacaq. 2026-cı ildə layihələndirmə və icra işlərinə başlanılacaq, 2027-ci ildə isə istifadədə olan kəhrizlərin sayının artırılması ilə əhalinin su təminatının yaxşılaşdırılması hədəflənir. Artıq ilkin mərhələdə 12 rayonu əhatə edən 124 kəhrizə baxış keçirilib, həmçinin geniş elmi-tədqiqat işləri aparılıb.

Qeyd edək ki, dünən konfrans çərçivəsində 2040-cı ildə Azərbaycanda əkin sahələrinin suvarılması üçün suya tələbatın ödənilməsinin 100 faizə çatdırılması da müzakirə olunub. Məlumata görə, bu ilin sonuna qədər ölkədə əkin sahələrinin suvarılması üçün suya tələbatın ödənilməsi 66 faizə, 2026-cı ildə 68 faizə, 2027-ci ildə 90 faizə, 2030-cu ildə 95 faizə çatdırılması nəzərdə tutulub. Eyni zamanda, suvarma suyu təchizatı sahəsində itkilərin azaldılması da prioritetdir. Bu il ərzində itkilərin 46 faizə, 2026-cı ildə 44 faizə, 2027-ci ildə 42 faizə, 2030-cu ildə 30 faizə, 2040-cı ildə isə 10 faizə qədər endirilməsi planlaşdırılır. Bununla yanaşı, ölkədə 2025-2027-ci illərdə suvarma kanalları və kollektorların yenidən qurulması nəzərdə tutulur. Bu tədbirlər nəticəsində suvarma suyu ilə təminatın 2025-ci ildə 66 faizdən 2027-ci ildə 90 faizə yüksəldilməsi gözlənilir.

Qeyd olunub ki, bu addımlar əkin sahələrinin suvarılması sahəsində səmərəliliyin artırılması və kənd təsərrüfatının dayanıqlı inkişafına xidmət edəcək.

Ümumiyyətlə, su kimi müasir dövrün qorunmalı olan əsas komponentinin daim gündəmdə saxlanılması gələcək naminə dünyamızın xilası deməkdir. Məhz bu kimi həftənin Bakıda keçirilməsi bir daha qlobal nizama Azərbaycanın qlobal missiyasını uğurla icra etdiyini göstərir.

***Nurla ABDALOV***
***XQ***

# “Yaşıl enerji məkanı”nda hibrid müzakirələr

**“Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək və aidiyyəti dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə yaradılmış “Yaşıl enerji məkanı” işçi qrupunun hibrid formada növbəti iclası keçirilib.**



İclasa sədrlik edən energetika nazirinin müavini Samir Vəliyev çıxışında ölkə Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə uyğun olaraq iqtisadiyyatın, o cümlədən energetika sahəsinin inkişafının təmin edilməsi, qarşıda duran hədəflərə nail olunması məqsədilə dövlət başçısı tərəfindən təsdiq olunmuş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrasının xüsusi əhəmiyyət daşıdığını bildirib.

“Yaşıl enerji məkanı” məqsədinin enerji təhlükəsizliyi, bərpa olunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, “yaşıl” texnologiyalardan istifadə, iqlim dəyişikliklərinə qarşı mübarizə baxımından əhəmiyyəti qeyd olunub. Strategiyanın icrası ilə bağlı ilkin hesabat layihəsindən bəhs edilərək hesabat dövrü ərzində görülmüş işlər üzrə nəticələrin qənaətbəxş olduğu vurğulanıb və gündəlikdə duran məsələlərə diqqət çəkilib.

Sonra işçi qrupun sədr müavini, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın 5.2-ci məqsədi – “Yaşıl enerji məkanı” üzrə nəzərdə tutulmuş aidiyyəti tədbirlərin icrasına dair cari ilin ilk yarısı üzrə hesabatı təqdim edib, görülmüş işlər, aparılmış monitorinq və qiymətləndirmə nəticələri nəzərdən keçirilib, hədəf indikatorları üzrə tədbirlərin icra göstəriciləri, çağırış və tövsiyələr barədə məlumat verilib.

Sonda qrup üzvlərinin ilkin monitorinq və qiymətləndirmə hesabatına dair rəy və təklifləri dinlənilib, icrası davam edən tədbirlərlə bağlı mövcud vəziyyət və atılacaq növbəti addımlar müzakirə edilib və qarşıdakı dövrdə tədbirlərin tam və effektiv icrası ilə bağlı müvafiq tapşırıqlar verilib.

***XQ***

# Mingəçevir küçələrində zamanın səsi...

## *Bu, Kürüstü şəhərdə ucalan möhtəşəm quruculuq simfoniyasıdır*

**Fəxr edilməli məqamdır. Ölkənin hansı şəhərinə, rayonuna gediriksə, mükəmməl bir ictimai-siyasi fəallıqla üzləşir, hər yanda ölkənin ümumi inkişafına layiq yenilik və tərəqqiyə şahidlik edirik. Hansı fəsil olur-olsun, insanlar istidən, soyuqdan, küləkdən, yağmurdan çəkinməyərək qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gəlirlər.**

Havanı, istini-soyuğu yada salmağımız təsadüfi deyil. Çünki indi haqqında söz açmaq istədiyimiz şəhər Kürün sahilində, Bozdağın ətəyində olsa da, builki yay orada da öz gücünü maksimum həddə göstərdi. Nur şəhərinin yayı sakinləri bu il çox ciddi şəkildə sınağa çəkdi. Ancaq mingəçevirlilər indiyədək çox sınaqlardan uğurla çıxıblar. Elə ona görə də istiyə təslim olmadılar. Qarşıda duran bütün vəzifələr uğurla, asanlıqla yerinə yetirildi.

### Burda zaman nədən danışır?

Zaman bu şəhərin rəhbərliyini və ictimaiyyətini çağırır ki, tikinti-quruculuq, təmir-bərpa, abadlıq, yaşıllaşdırma və yenidənqurma işləri ölkənin ümumi inkişaf səviyyəsində aparılsın. Bu sahədəki uğurlar barədə dəfələrlə yazmışıq. Bu sətirlərdə də xüsusi olaraq toxunacağıq.

Zaman mingəçevirliləri çağırır ki, bu gözəl şəhərin tarixi adındakı "ölkənin sənaye mərkəzlərindən biri" ifadəsi ilə yanaşı "ölkənin elm, təhsil, mədəniyyət, idman mərkəzlərindən biri" deyimi də özünə yer tutsun. Qətiyyətlə deyə bilərik ki, mingəçevirlilər buna tam nail olublar.

Çoxsaylı turistlərin gəlməsini, beynəlxalq tədbirlərin keçirilməsini nəzərə alan zaman çağırır ki, şəhərin xidmət sahələri beynəlxalq təcrübələrə cavab verən şəkildə yeniləşdirilsin. Turist və qonaqlar gündən-günə dəyişən Mingəçeviri gəzməkdən doymurlar. Etiraf edirlər ki, həmin istək artıq günün reallığıdır.

### 8 Noyabr zəfərinin addım səsləri

Son iki-üç əsrdəki ən möhtəşəm hərbi-siyasi uğurumuz olan Böyük Zəfərdən sonra noyabrın 8-i Azərbaycanın bayramları və əlamətdar günləri sırasında ən mübarək yerlərdən birini tutdu. Bakıda ən geniş prospektlərdən birinə və metropolitenin yeni stansiyasına "8 Noyabr" adı verildi. Digər şəhərlərimizdə və rayonlarımızda da həmin tarix ucalara qaldırıldı. Nur şəhəri Mingəçevirdə isə... bu ad yenə də nurla bağlandı.

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev bu il iyunun 24-də Mingəçevirdə "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində iştirak edib. Prezident Mingəçevirdə xatırlatdı ki, bu gün ölkəmizin energetika sahəsində



əlamətdar bir gündür: "8 Noyabr" Elektrik Stansiyasının açılışı çox gözəl hadisədir. Ümumilikdə ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir. Bu gün "8 Noyabr" Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır".

Dövlət başçımızın fikrincə, bu stansiya, Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcək. Hazırda bizim elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və əlbəttə ki, görülmüş bütün bu işlər bir daha Azərbaycanın doğru yolda olduğunu göstərir.

Prezidentin bu fikirlərini "Xalq qəzeti"nin səhifələrində oxuyanda köhnə dostlarımızdan birinin hələ aprel, ya da may ayında mənə dediyi sözləri xatırladım. Dostum demişdi ki, hər yazıda Mingəçeviri "Nur şəhəri" adlandırırsan: "İndi elektrik enerjisi istehsal edilməyən hansı



şəhərimiz, rayonumuz var ki? Bir tərəfdən də bərpaolunan enerji stansiyaları çoxalır. Ona görə də sən "Nur şəhəri" epitetindən əl çəkməli olacaqsan. Dövlət başçımızın həmin çıxışını eşidən kimi mənə irad tutan dostuma zəng edib qəzetdəki bir cümləni ucadan oxudum: "Hazırda bizim elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur..."

### "Ay mənim, ana Kürüm..."

Əslən Qazaxdan olan tələbə yoldaşlarımızdan biri dönə-dönə dediyi ki, Kür çayı Azərbaycanın ərazisinə Qazax rayonunda daxil olur və Salyanda ərazilərimizi tərk edir. Ona görə də Qazaxda və Salyanda Kürə sevgi elə həmin çayın suyu qədərdir. İsmayıl Şıxlının "Dəli Kür"ünü, Aşıq Pənah, Əliağa Kürçaylı və Əlisəmid Kürün şeirlərini yada salırdı. Guya digər rayonlarımızda Kürün adı çəkilmirdi.

Həmin dostumun bu fikirləri bir də eşidəndə ona öz miqyasımda tutarlı cavab verdim: "Əzizim, hələ 1964-cü ildə Mingəçevirdə "Kür" Olimpiya Tədris-İdman Mərkəzi yaradılmışdı. Sovet dönəmində orada SSRİ-nin hər yerindən və dünyanın müxtəlif ölkələrindən gələn gənclər arasında onlarca avarçəkmə təlim və yarışları keçirilmiş, müstəqillik dövründə isə Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə ən müasir avarçəkmə mərkəzi yaradılmışdır. 2007-ci ildən etibarən bazanın yardımçı hissəsində avarçəkmə üzrə beynəlxalq "Prezident Kuboku" reqatası keçirilib. 2015-ci ildə orada Birinci Avropa Oyunlarına daxil olan idman növlərinin yarışı təşkil edilib. Üstəlik, oradakı saysız qədər təlim-məşq oyunlarını demirəm.

İndi həmin baza III MDB İdman Oyunları üçün mükəmməl şəkildə hazırlanıb. Biz də "Xalq qəzeti" olaraq həmin tədbirlərdə iştirak edəcəyik. Şəhər icra hakimiyyəti bu hazırlıqların ölkə rəhbərliyinin tələb etdiyi şəkildə başa çatdırılması üçün lazım olan bütün addımları atıb və atır. Görürsünüzmü, Kürün adı beynəlxalq aləmdə daha çox Mingəçevirlə məşhurlaşır...

### Sözün məqamı...

Kütləvi informasiya vasitələri yazırlar ki, gələn il – 2026-cı il oktyabrın 1-dən 15-dək Nur şəhərində ənənəvi "Mingəçevir Reqatası" adlı beynəlxalq turnir keçiriləcək. Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasından bildiriblər ki, həmin yarışlarda müxtəlif ölkələrin idmançıları iştirak edəcək və Mingəçevir su anbarında maraqlı qarşılaşmalar baş tutacaq. Reqata Azərbaycanın su idmanı ənənələrinin möhkəmlənməsinə mühüm töhfə verəcək. Turnir Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının birgə təşkilatçılığı ilə həyata keçiriləcək.

Diqqət yetirin, "müxtəlif ölkələrin idmançıları" "Kür"də yarışacaq və Nur şəhərindən dünyanın bir çox ölkələrinə telereportajlar göndəriləcək, canlı yayımlar təşkil olunacaq.

### "Konstitusiya və Suverenlik İli"nin çağırışları

Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılovla istənilən görüşümüzdə milli dövlətçiliyimizə xidmət, Prezidentin daxili siyasətinin icrasına sədaqət mövzusunda hansısa yeni bir ifadəni eşidirik. İlham müəllim son görüşümüzdə dedi ki, bəzi adamlar yanlış olaraq elə düşünürlər ki, guya, daxili siyasət deyəndə mütləq hansısa proses, siyasətçilərin qatıldığı məsələlər nəzərdə tutulur. Qətiyyən elə deyil. Daxili siyasət olduqca böyük və mühüm sahələri əhatə edir: "Uşaqlardan tutmuş qocalara, ahıllara qədər istənilən zümrənin problemlərini öyrənmək, hər bir fərdin yanında olmaq dövlət məmurunun vəzifələrindən biridir. Elə bizim "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirdiyimiz tədbirlər silsiləsi də həmin mühüm işlərin tərkib hissəsidir".

Xatırladım ki, bir neçə gün əvvəl – sentyabrın 2-də Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısı yanında Uşaq hüquqlarının müdafiəsi üzrə Komissiyanın cari il üçün iş planında nəzərdə tutulmuş, validеynlər arasında uşaqlara qarşı zorakılıq və şiddətlə bağlı Azərbaycan Respublikası Qanunlarında nəzərdə tutulan inzibati və cinayət məsuliyyəti barədə maarifləndirici seminarların təşkilinin davamı kimi "Azərbaycan İES" MMC-də 18 yaşına (yetkinlik yaşına) çatmayan övladı olan işçilərlə maarifləndirici görüş keçirilib. Tədbir iştirakçılarını maraqlandıran suallara cavablandırılması hamı tərəfindən məmnunluqla qarşılanıb. Onu da əlavə edək ki, şəhərdə bu qəbildən olan tədbirlərdən biri də avqust ayında Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında keçirilmişdi. Yəni bütün dünyada böyük narahatlıq yaradan uşaq hüquqlarının qorunması məsələsi ölkəmizin hər yerində olduğu kimi, Mingəçevirdə də ən aktual məsələlərdən biri kimi diqqət mərkəzindədir. Bu isə dövlət başçımızın tövsiyə və tapşırıqlarının uğurla icrası deməkdir.

### Bu şəhərin də "abad məhəllə"ləri var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələri sayəsində şəhərdə görülən abadlıq işləri Mingəçevirin regionun mədəniyyət mərkəzinə çevrilməsinin əsas amillərindən biri kimi öz təsdiqini tapır və vətəndaşlarda məmnunluq hissi yaradır.

Orada qeyd edilir ki, Şəhər icra hakimiyyətinin tədbirlər planına uyğun olaraq və eləcə də sakinlərin arzu və istəyi nəzərə alınaraq, şəhərin ayrı-ayrı küçə və məhəllələrində davamlı təmizlik, bərpa və yenidənqurma işləri aparılır. Abadlıq-quruculuq işləri genişlənir, yeniliklər əlavə edilir. Mingəçevir Şəhər İcra Hakimiyyəti Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin kollektivi nəzərdə tutulan tədbirlər planına uyğun olaraq, şəhərin bir çox məhəllə və küçələrində yenidənqurma işlərini uğurla həyata keçirir.

Bu yaxınlarda "Samux" küçəsi ara döngələrində asfalt örtüyünün və bardürlərin təzələnməsi işləri həyata keçirilib. Nəsimi küçəsinin giriş-çıxış yolları daxil olmaqla yeni asfalt örtüyü salınır. Həmçinin



Heydər Əliyev prospekti, Nəsimi, İxtiyar Qasımov, "Samux" küçələrində sel-su ötürücülərinin, kanalların təmizlənməsi işləri işləri həyata keçirilib".

Görülən işlərin miqyası o qədər böyükdür ki, saymaqla qurtaran deyil. Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq ölkəmizin 4-cü şəhərində sosial-iqtisadi layihələr uğurla davam etdirilir. Elə bir sahə yoxdur ki, nəinki hər ay, hər gün bir yeniliklə qarşılaşmayasan.

Bir təsadüfə baxın. Elə bu yazının üzərində işləyirdim ki, elektron poçtuma bir yazı daxil oldu. Açıb, baxdım. Mingəçevirdən idi. Həmkarım Esmira Hidayətova göndərmişdi: "Mingəçevirdə sakinlərlə açıq görüş keçirilib". Söhbət şəhərin "Sağ sahil" yaşayış massivində, Təbriz küçəsi, 11 saylı binanın həyətində keçirilən görüşdən gedirdi.

Mən İlham İsmayılovun sakinlərlə keçirdiyi çox görüşlərdə olmuşam. O qədər səmimi, isti görüşlər keçirilir ki, uzun müddət yaddaşından silinmir. Sözü olan mikrofona yaxınlaşıb problemini deyir, arzusunu söyləyir. Elə məsələlər var ki, dərhal həllini tapır. Başçı digər görüləcək işlər barədə tapşırıqlar verir, sakinləri narahat edən problemlərin aradan qaldırılmasına xüsusi diqqət olacağını bildirir. Söz vermişəm ki, nə vaxtsa bu görüşlərin birindən reportaj yazacam. Necə var elə. Bəzəksiz, boyasız...

### Şəhidlər bizə əbədiyyətdən baxırlar

Bu ifadəni Mingəçevirdə keçirilən tədbirlərdən birində eşitmişdim. Yanımda əyləşənlərdən biri sakitcə qulağıma pıçıldamışdı ki, həlak olmaq da ölmək deyilmi? Tədbirin aparıcısı sanki bu pıçıltını eşidirmiş kimi demişdi: "Torpaq, Vətən, xalq, azadlıq, ana-bacı qeyrəti, ulu əcdadların məzarlarının tapdağa çevrilməməsi uğrunda həlak olanlar ölmürlər, şəhid olurlar!"

Etiraf edim ki, Mingəçevir Şəhər İcra Hakimiyyətinin şəhid adına hörmət və ehtiramı məhz həmin tədbirdə eşitdiyimiz tezislə tamamilə üst-üstə düşür. Yaxşı yadıma düşdü. Elə bura əlavə edək. Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımov adına parkın yenidən qurulması işlərinə başlanılıb. Layihə ilə tanışam. Bildirilir ki, orada gözəl şərait yaradılacaq, yaşıllıq zolaqları genişlənəcək, yeni ağac tingləri və gül kolları əkiləcək, oturacaqlar qoyulacaq, fəvvarə quraşdırılacaq, Milli Qəhrəmanın xatirəsinə ehtiram əlaməti olaraq digər işlər də həyata keçiriləcək.

Onu da əlavə edək ki, bu il yanvarın 2-də Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılovun, şəhər rəsmilərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə qəhrəmanın ad günü münasibətilə yaşadığı "Naxçıvan" küçəsində barelyefi və xatirə bulağının açılış mərasimi keçirilib.

Məncə, sabaha inamla başladığımız bu sətirləri dünənə ehtiramla bitirməyimiz daha yaxşı oldu. Aqillər deyiblər ki, dünəni unudanların sabahı uğurlu olmaz. İnanırıq ki, Mingəçevirin sabahı daha uğurlu, daha firavan və daha işıqlı olacaq.

### Mingəçevirdən salamlar

"Mingəçevirin adını hələ körpəlikdən eşidirəm"– desəm, yalan olmaz. Radioda unudulmaz müğənnimiz Lütfiyar İmanovun böyük ustalıqla oxuduğu "Mingəçevir" mahnısı elan ediləndə həmişə "Gəncə" sözünü eşidib sevinirdim. Elə bilirdim ki, mahnının sözlərinin müəllifi şair Novruz Gəncəli bizim Gəncədəndir, sən demə, o Bakıda doğulsa da, ünvan göstəricisi kimi bu təxəllüsü "şairlər babası" gəncəli Nizaminin şərəfinə götürübmüş. Süleyman Ələsgərovun həmin şeirə yazdığı musiqinin sözləri isə belə idi:

***Kürün sinəsində tikilir saray***
***Uzanır hər yana qızıl telləri.***
***Səhərlər al Günəş, gecələrsə Ay***
***Burdan salamlayır bizim elləri.***
***Çıraqban olduqca Milim, Muğanım***
***Bürünür şəfəqə Azərbaycanım!***

*İlqar HƏSƏNOV,*
***XQ-nin bölgə müxbiri***





# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 244**

**Bakı şəhəri, 1 sentyabr 2025-ci il**

**“Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı”nın və “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı”nın və “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1056 (Cild I); 2024, № 3, maddə 337, № 10, maddə 1161) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

“3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.”.

2. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı”na aşağıdakı məzmunda 17-4-cü hissə əlavə edilsin:

“17-4. Laçın Beynəlxalq Hava Limanında dövlət sərhədindən buraxılış məntəqəsi (Laçın rayonu, Qorçu kəndi).”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 245**

**Bakı şəhəri, 4 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə “8702 40 000 1” alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8702 40 000 2 | – – oturacaqsız, tutacaqsız və monitor quraşdırılmamış olanlar | əd | 15 |

**2.** Bu Qərar 2025-ci il avqustun 1-dən tətbiq edilir və 2027-ci il 1 yanvar tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 246**

**Bakı şəhəri, 4 sentyabr 2025-ci il**

**“Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354, № 6 (II kitab), maddə 715, № 10, maddə 1167, № 11, maddə 1252; 2025, № 4 (I kitab), maddə 393, № 5, maddə 505) aşağıdakı məzmunda 4.38-ci bənd əlavə edilsin:

“4.38. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, sənaye parklarının rezidentləri tərəfindən sənaye istehsalı (yığımı) məqsədilə idxal olunan xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun “8702 40 000 2” alt yarımmövqeyində təsnifləşdirilən oturacaqsız, tutacaqsız və monitoru quraşdırılmamış yalnız elektrik mühərriki ilə işləyən avtobuslar”.

**2.** Bu Qərar 2025-ci il avqustun 1-dən tətbiq edilir və 2027-ci il 1 yanvar tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 249**

**Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

**“Qubadlı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Qubadlı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı” təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 250**

**Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

**“Liman şəhərinin 2042-ci ilədək inkişafına dair Baş planı”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Liman şəhərinin 2042-ci ilədək inkişafına dair Baş planı” təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 252**

**Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 may tarixli 207 nömrəli Qərarı ilə təsdiq edilmiş “Su təsərrüfatı balanslarının respublika, su hövzələri və inzibati ərazi vahidləri üzrə tərtib edilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 may tarixli 207 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 942 (Cild I); 2024, № 3, maddə 336) ilə təsdiq edilmiş “Su təsərrüfatı balanslarının respublika, su hövzələri və inzibati ərazi vahidləri üzrə tərtib edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi su ehtiyatları və ondan istifadə əsasında hər il iyun ayının sonunadək Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə respublika üzrə illik su təsərrüfatı balansının layihəsini tərtib edir.”.

**2.** 2.3-cü bənddə “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və “Azərsu” Açıq Səhmdar Cəmiyyəti, həmçinin Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə” sözləri ilə əvəz edilsin.

**3.** 2.4-cü bənddə “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və “Azərsu” Açıq Səhmdar Cəmiyyəti, həmçinin Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə” sözləri ilə əvəz edilsin.

**4.** 2.6-cı bənddə “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.

**5.** Həmin Qaydaya 1 nömrəli əlavə – “Azərbaycan Respublikasının illik su təsərrüfatı balansı” yeni redaksiyada verilsin *(əlavə olunur).*

**6.** Həmin Qaydaya 2 və 3 nömrəli əlavələrin “Tərtib edən:” hissəsi aşağıdakı redaksiyada verilsin:

“Tərtib edən:

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 254**

**Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında” 2024-cü il 7 noyabr tarixli 226 nömrəli və “Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)” publik hüquqi şəxsin Nizamnaməsinin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” 2025-ci il 15 yanvar tarixli 286 nömrəli fərmanlarının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında” 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının 6.3-cü bəndinin və “Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)” publik hüquqi şəxsin Nizamnaməsinin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” 2025-ci il 15 yanvar tarixli 286 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 14 iyul tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 669 (Cild I) ilə təsdiq edilmiş “Nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) olan müştərək müəssisələrdə və səhmdar cəmiyyətlərində həmin payların (səhmlərin) idarə olunması Qaydaları”nın 2-ci hissəsinə “təsərrüfat cəmiyyətləri” sözlərindən sonra “və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)” publik hüquqi şəxsin idarəetməsinə verilən dövlət müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri, eləcə də həmin hüquqi şəxslərin təsisçisi və iştirakçısı (iştirak payına uyğun) olduğu hüquqi şəxslər” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2249 (Cild I); 2024, № 2, maddələr 225, 229; 2025, № 3, maddə 303, № 4 (I kitab), maddə 384) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin Siyahısı”nın 5-ci hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 iyul tarixli 292 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1626 (Cild I); 2024, № 4, maddə 441) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın 1–3-cü, 7-ci, 8-ci, 17-ci, 23-cü və 24-cü hissələri ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12 (I kitab), maddə 1326 (II kitab), maddə 1428; 2025, № 3, maddələr 273, 294; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli 203 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 13-cü hissənin ikinci–dördüncü və on səkkizinci–iyirminci abzasları ləğv edilsin;

4.2. 14-cü hissəyə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

14-5/ “Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)” publik hüquqi şəxs

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 255**

**Bakı şəhəri, 9 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1111 (Cild I); 2025, № 4 (II kitab), maddə 415) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

**1.** I hissə üzrə:

1.1. 1.1-ci və 1.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“1.1. Azərbaycan Respublikasının xarici dövlətdəki diplomatik nümayəndəliyinin tabeliyində olan Mədəniyyət Mərkəzi (bundan sonra - Mərkəz) Azərbaycanın mədəniyyəti, tarixi, sosial, iqtisadi inkişafı, elmi-texniki və turizm potensialının təbliğini genişləndirmək məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin birgə təklifi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin vəsatəti əsasında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılır.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları müvafiq beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikasının Hökuməti ilə qəbul edən dövlətin hökuməti arasında diplomatik nümayəndəliyin tabeliyində Mərkəzin yaradılması və fəaliyyətinə dair bağlanılmış sazişi, habelə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əmr, sərəncam və göstərişlərini rəhbər tutur və qəbul edən dövlətin qanunvericiliyini nəzərə alır.”;

1.2. 1.6-cı bənddə “mərkəzin” sözü “Mərkəzin” sözü ilə əvəz edilsin.

**2.** II hissə üzrə:

2.1. adında “vəzifələri” sözü “fəaliyyət istiqamətləri” sözləri ilə əvəz edilsin;

2.2. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.1. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:”;

2.3. 2.1.1-ci yarımbənddə “Azərbaycan Respublikasının daxili və xarici siyasəti,” sözləri “Azərbaycanın” sözü ilə əvəz edilsin;

2.4. 2.1.4-cü yarımbənddə “tələbələri və məzunları” sözləri “vətəndaşları” sözü ilə əvəz edilsin;

2.5. 2.1.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.6-cı yarımbənd əlavə edilsin:

“2.1.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.”.

**3.** III hissə üzrə:

3.1. adında “funksiyaları” sözü “vəzifələri” sözü ilə əvəz edilsin;

3.2. 3.1-ci bənd üzrə:

3.2.1. birinci abzasda “vəzifələrə uyğun olaraq, öz səlahiyyətləri daxilində aşağıdakı funksiyaları” sözləri “fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri” sözləri ilə əvəz edilsin;

3.2.2. 3.1.1-ci yarımbənddə “Azərbaycan Respublikasının daxili və xarici siyasəti,” sözləri “Azərbaycanın” sözü ilə əvəz edilsin;

3.2.3. 3.1.6-cı yarımbənddə “tələbə və məzunlarının” sözləri “vətəndaşlarının” sözü ilə əvəz edilsin;

3.2.4. 3.1.7-ci yarımbənddən “ali” sözü çıxarılsın və həmin yarımbənddə “Mədəniyyət Mərkəzində” sözləri “Mərkəzdə” sözü ilə əvəz edilsin;

3.2.5. 3.1.8-ci yarımbənddə “dostluq, qardaşlıq münasibətlərinin yaradılmasına,” sözləri “mədəni əlaqələrin yaradılmasına və” sözləri ilə və həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

3.2.6. aşağıdakı məzmunda 3.1.9-cu yarımbənd əlavə edilsin:

“3.1.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq normativ hüquqi aktlarda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.”.

**4.** 4.1-ci bənd üzrə:

4.1. birinci abzasdan “səlahiyyətləri daxilində” sözləri çıxarılsın;

4.2. 4.1.2-ci yarımbəndə “dövlətlərin” sözündən sonra “qəbul edən dövlətdə olan” sözləri əlavə edilsin;

4.3. 4.1.6-cı yarımbənddə “Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun” sözləri “fəaliyyət istiqamətlərinə uyğun olaraq normativ hüquqi aktlarda nəzərdə tutulmuş” sözləri ilə əvəz edilsin.

**5.** V hissə üzrə:

5.1. 5.7-ci bəndin ikinci cümləsinə “razılaşdırır” sözündən sonra “və diplomatik nümayəndəliklə əlaqələndirir” sözləri əlavə edilsin, üçüncü cümləsində “səfirə” sözü “diplomatik nümayəndəliyin rəhbərinə” sözləri ilə əvəz edilsin;

5.2. 5.9-cu bənddə “Səfirlik” sözü “diplomatik nümayəndəlik” sözləri ilə əvəz edilsin;

5.3. 5.13-cü bənd üzrə:

5.3.1. birinci cümlədə “Səfirlikdəki” sözü “diplomatik nümayəndəlikdəki” sözləri ilə əvəz edilsin;

5.3.2. ikinci cümlədə “Səfirliyin” sözü “diplomatik nümayəndəliyin” sözləri ilə əvəz edilsin;

5.4. 5.14-cü bənd aşağıdakı redaksiyada verilsin:

“5.14. Mərkəzlərdə aparılan işin həcmi və xüsusiyyətləri nəzərə alınaraq, Mərkəzdə mühasibat uçotunu aparan və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı digər vəzifələri yerinə yetirən diplomatik nümayəndəliyin maliyyə məsələləri üzrə attaşelərinə Mərkəz tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”na uyğun olaraq onların dövlət məvacibindən gəlir vergisi və digər icbari ödənişlər çıxıldıqdan sonra qalan vəsaitə fərqləndirici əmsal tətbiq edilməklə alınan məbləğin 15 (on beş) faizi həcmində aylıq əlavə (müvafiq valyutada) ödənilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Yağa tələbatın “ağı”nı necə çıxarıblar?

## *Təmiz kərə yağı ceyran belinə çıxıb*

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ayrı – ayrı vaxtlarda ticarət müəssisələrində nəzarət tədbirləri çərçivəsində istehsal olunan kərə yağından götürülən nümunələr sınaqdan keçirilərkən, məhsulda bitki yağı ilə yanaşı, yağ turşularında da uyğunsuzluq aşkarlanıb və bununla istehsalçının qanunvericiliyi pozduğu, istehlakçıları aldatdığı təsdiqlənib. Belə ki, araşdırma prosesində kərə yağı məhsullarının üzərində təbii inək südündən alınan, pasterizə edilən qaymaqdan istifadə bəyan olunsa da, məhsulun tərkibinə bitki yağının qatılması aşkarlanıb.**





Bununla bərabər, araşdırmada istifadə müddəti başa çatan qida məhsullarının, mənşəyi bilinməyən müxtəlif çeşidli turşuların satışının həyata keçirildiyi, eyni zamanda, qida məhsullarının saxlanmasında mal qonşuluğu qaydalarının, sanitariya norma və prinsiplərinin, gigiyena normativlərinin kobud şəkildə pozulduğu üzə çıxarılıb. Agentliyin nəzarət araşdırmasında kərə yağı satışında istehlakçıların aldadılması ilə bağlı indi vurğulayacağımız bir məqam da ciddi narahatlıq doğurub. Bu, respublikanın müxtəlif bölgələrindən, xüsusilə Gəncə və Bərdədən saxta yağların paytaxt bazarlarına və kiçik ticarət müəssisələrinə gətirilərək çox ucuz qiymətə – 5-7 manata “əridilməsi” ilə bağlıdır.

Nəzərə alsaq ki, Bakıda hazırda marketlərdə xalis kərə yağının 1 kiloqramının qiyməti 18-20 manatdır, o zaman təbii ki, saxtakarlıq və istehlakçıların aldadılması barədə düşünməyə dəyər. Ekspertlərin fikrincə, bu cür ucuz qiymətə satılan kərə yağları daha çox heyvan içalatındakı yağlardan hazırlanır. İstehlaka yararsız sayılan, qiyməti aşağı olan, əksər vaxtlarda isə satışa belə çıxarılmayan heyvan içlikləri qatıqla qaynadılaraq “kərə yağı”na çevrilir və xatırladıldığı kimi, daha çox paytaxt bazarlarında, eləcə də kiçik ticarət müəssisələrində keyfiyyəli məhsul adı ilə satılmaqla istehlakçılar aldadılır.

Qida ekspertləri bitki yağları hesab olunan spred yağlarının (marqarin) kərə yağı adı ilə satılmasından bəhs edərkən bildirirlər ki, onlar arasında fərq kərə yağının heyvanın südündən hazırlanması ilə, spred yağların isə bitki tərkibli olması ilə xarakterizə edilir. Digər tərəfdən, marqarində həm də emilqatorlardan (bir-bir ilə təbii şəkildə qarışmayan maddələri, məsələn, yağ və suyun bir yerdə saxlanılmasını gerçəkləşdirən maddələr), eləcə də su və duzdan istifadə edilir. Tərkibi tamamilə heyvan südündən ibarət kərə yağının yağlılığı 80 – 82 faizlə ölçülür, qalan hissə isə su və süddə olan proteinlərdən ibarət olur.

Ekspert Rövşən Hacıyev saxta kərə yağının hazırlanmasından danışarkən bildirir ki, süd daşyan maşın sexə daxil olduqdan sonra elə avtomobilin sisternisindəcə yağı süddən ayırıb götürür və ora bitki yağı əlavə edilir. Həmin süd qarışdırılmaqla bitki yağı süddən ayrılır. Bununla da südün aroması və dadı yağa keçir və bu, kərə yağı adı ilə satışa yönləndirilir. İstehlakçılar isə belə bir üsulla hazırlanan məhsulun saxta olmasını müəyyənləşdirə bilmirlər. Hazırda əsasən bazarlarda və kiçik ticarət nöqtələrində ucuz qiymətə satılan “kərə yağı” daha çox bu qayda ilə hasilə gətirilir. Belə ucuz yağlarla qidalanma isə bir müddət sonra sağlamlıqda müəyyən problemlərə gətirib çıxarır.

Statistik məlumata görə, Azərbaycanda əhalinin kərə yağına olan illik tələbatı, təxminən, 35 min tondur. Rəsmi göstəricilərə əsasən, bunun üçdə ikisi respublikada istehsal olunur, qalan hissəsi isə xaricdən gətirilir. Ölkəyə daha çox Belarus, Almaniya, Avstraliya və Yeni Zellandiyadan kərə yağı idxal edilir.

Xatırladaq ki, Azərbaycanda kərə yağı beynəlxalq “Codex” standartı əsasında hazırlanır. Bu standart birbaşa istehlak üçün nəzərdə tutulmuş kərə yağına aid edilir. Standarta əsasən, kərə yağı xüsusi olaraq süddən alınmış və ya süd məhsullarından hazırlanmış, əsasən suda – yağ emulsiya tipli formaya malik yağ məhsuludur. Kərə yağının tərkibinə qatılmasına icazə verilən inqrediyintlər xörək duzu, təhlükəsiz laktan turşusunun başlanğıc kulturaları və ya qoxu yaradan bakteriyalar və içməli sudur. Tərkibində minimum süd yağının miqdarı – 80 faiz m/m, maksimum su miqdarı – 16 faiz m/m, maksimum qeyri-yağ tərkibli südün quru maddəsinin miqdarı – 2 faiz m/m olmalıdır.

Bu yazını hazırlayarkən, Dövlət Statistika Komitəsindən onu da öyrəndik ki, 2024-cü ildə Azərbaycanın ümumi marqarin ehtiyatları 97 min 460 ton (2023-cü illə müqayisədə ümumi ehtiyatların 3 min 509 ton və ya 3,7 faiz çox) təşkil edib. Hesabat dövründə, eyni zamanda, respublikada 51 min 206 ton (illik müqayisədə 4 min 221 ton və ya 9 faiz çox) marqarin istehsal edilib. 2023-cü ildə isə bu göstərici 46 min 985 ton oub. Keçən il ölkəyə 2 min 528 ton (2023-cü illə müqayisədə 887 ton və ya 54 faiz çox) marqarin idxal olunub. Azərbaycanın kərə yağı ehtiyatlarına gəldikdə isə ötən il bununla bağlı göstərici 56 min 84 ton, istehsal 28 min 975 ton, idxal isə 24 min 508 ton təşkil edib.

### Palma yağı – necə, nə qədər?

Azərbaycan Tibb Universitetinin baş müəllimi Aida Bəndəliyeva bildirir ki, palma yağı ən çox qənnadı məmulatlarının istehsalında istifadə olunur. Qida məhsullarına qoyulan tələbə görə, tərkibinə daxil edilən bütün inqridiyentlər qablaşdırmanın üzərində əksini tapmalıdır. Lakin AQTA-nın apardığı yoxlamalar da göstərir ki, yerli məhsulun tərkibi onun üzərində yazılanlara uyğun gəlmir. Bu mənada, ölkəmizdə istehsal olunan hansı məhsulda və nə qədər palma yağından istifadə olunduğunu müəyyənləşdirmək mümkün deyil.

Qeyd edək ki, palma yağı İndoneziya və Malayziyada yemək yağı kimi istifadə olunur. Ən böyük istehsalçı və ixracatçı da həmin ölkələrdir. Palma yağının insan orqanizminə zərərləri barədə məlumatlar yayılsa da, Avropa Qida Təhlükəsizliyi Təşkilatının sifarişi ilə aparılan tədqiqatlar zamanı məlum olub ki, palma yağında hansısa xüsusi konserogen maddə mövcud deyil. Sadəcə, bütün bitki yağları kimi onu da dəfələrlə 200 dərəcəyə qədər qızdırdıqda tərkibində dəyişiklik baş verir.

Hələ 2003-cü ildə Ümumdünya Səhiyyə və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatlarının palma yağının sağlamlığa zərərlərinə diqqət çəkməsinə baxmayaraq, onun dünyada istehsalı və istehlakı 2 qat, 1995-ci ildən 2017-ci ilədək olan dövrdə isə istehsal 4 dəfə artıb.

Reallıqda heç bir heyvan və bitki yağında, hətta balıq yağında belə palma yağındakı qədər A vitamini yoxdur. Bu yağın tərkibində zərərli xolesterin yoxdur. Tərkibindəki doymamış yağlar beynin sağlamlığında mühüm rol oynayır. Yağın əsas zərərli tərəfi onun tərkibində həm də doymuş yağların çox olmasıdır. Belə yağlar adətən çətin həzm olunur, qan damarlarının divarlarında toplanaraq ürək-damar xəstəliklərinin yaranmasına səbəb olur. Palma yağının əsas çatışmazlığı və zərəri kimi 50 faiz doymuş yağlardan ibarət olması göstərilir. Halbuki kərə yağında bu göstərici 66 faiz, kakao yağında 62 faiz təşkil edir. Buna görə də palma yağından bütün yağlar kimi, qaydasında istifadə edilməsi məqsədəuyğundur.

Palma yağı maye deyil, qatı halda olur. Saxlanma müddəti artdıqca qatılıq da çoxalır. Məsələn, təzə yağ 27 dərəcə temperaturda əriyirsə, 1 həftəlik yağı əritmək üçün 42 dərəcə lazım gəlir. Tərkibindəki yüksək beta-karotinə görə təzə yağın rəngi narıncı olur. Yeyinti sənayesində 200 dərəcəyədək qızdırılaraq rəngsizləşdirilmiş yağdan istifadə olunur. Bu sektorda, həmçinin tam təmizlənmiş, bir neçə dəfə rafinə olunan palma yağından istifadə edilir. Bu qədər təmizlənmədən sonra istifadə olunsa da, inkişaf etmiş ölkələrdə palma yağı qatılan bütün qida məhsullarının qablaşdırılması üzərində bu barədə qeydin olması tələbi var.

### Marqarin kərə yağı libasında

Yuxarıda diqqətə çatdırdığımız rəqəmlər göstərir ki, ölkədə istər marqarinə, istərsə də kərə yağına böyük ehtiyac var. Marqarin istehsalında yüksək göstəricinin qeydə alınmasını bu məhsulun ancaq saxta kərə yağı hazırlanmasına sərf edilməsi ilə əlaqələndirmək sadəlövhlük olardı. Əslində, süd, su, vitaminlər və dadlandırıcılar kimi maddələrlə qarışdırılmaqla bitki yağlarından (maye və ya qatı) hazırlanan marqarin kərə yağına bənzəyir, lakin tərkibinə görə fərqlənir və əsasən qida sənayesində geniş istifadə olunur. İstehsal prosesində hidrogenləşdirmə yolu ilə trans yağlar da yarana bilər, lakin müasir istehsal texnologiyaları trans yağları minimuma endirir.

Bəs trans yağların insan orqanizminə hansı təsiri var? Tədqiqata əsasən, gündəlik qida rasionunda trans yağ turşularının qəbulu müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Trans yağ turşuları daha yuxarı temperaturda (25±5°C) əridiyindən qidalanma fiziologiyası və ürək–damar xəstəlikləri baxımından mənfi təsirə malikdir. Ümumdünya Səhiyyə Təşkilatının araşdırmasına görə, trans yağ turşularının yüksək miqdarda qəbulu ürək – damar xəstəlikləri riskini 21 faiz, ölüm riskini isə 28 faiz artırır. Bundan başqa, trans yağ turşuları immun sistemin, görmə qabiliyyətinin zəifləməsinə təsir göstərir.

Aparılmış araşdırmalarla trans yağ turşularının orqanizmin nəsiltörətmə qabiliyyətinə mənfi təsir edərək həm qadın, həm də kişilərdə sonsuzluğun yaranmasına səbəb olduğu, hamilə qadınlarda dölün inkişafını ləngitdiyi, uşaq orqanizmində mərkəzi sinir sistemində pozuntuların yaranmasına gətirib çıxardığı təsdiqlənib. Sənaye üsulu ilə alınmış trans yağların sağlamlığa mənfi təsirləri ilə bağlı elmi dəlillər son 30 ildə daha da artıb. Ümumdünya Səhiyyə Təşkilatının rəsmi hesabatına əsasən, tərkibinə trans yağ turşuları daxil olan yağların qida rasionunda istifadəsinin maksimum dərəcədə azaldılması (2000 kkal enerjiyə gündə 2 qramdan daha az, yəni ümumi enerji tələbatının 1 faizdən daha az) məsləhət görülür.

Paketlənmiş hər hansı bir qidanın trans yağa malik olub-olmadığını öyrənmək məqsədilə onun üzərindəki məhsulun tərkibi barədə məlumatların qeyd edildiyi bölmələri diqqətlə oxumaq lazımdır. Belə ki, bəzi qablaşdırma məlumatlarında “trans yağ” əvəzinə “hidrogenləşdirilmiş bitki yağı” ifadəsi yazılır. Buna diqqət etməklə özümüzü trans yağların mənfi təsirindən və sağlamlığımıza yarada biləcək təhlükədən qoruya bilərik.

Yeri gəlmişkən, iqtisadçı – ekspert Akif Nəsirlinin sözlərinə görə, marqarin yağı süni yaradılıb, yəni orqanik deyil, hətta bir sıra hallarda neftdən alındığı da vurğulanır. Onun ərimə temperaturu yüksəkdir, molekullarının həcmi böyükdür. Orqanizm bu yağı çətin mənimsəyir. Ona görə də daha çox marqarin istehlak edən şəxs, adətən, artıq çəkiyə malik olur. Bu məhsulun müsbət xüsusiyyətləri isə odur ki, vitrin qabiliyyətinə malikdir. Məsələn, xüsusilə şirniyyatlarda, tortlarda yaxşı nəticə verir. İstənilən formanı almaq üçün həmin yağlar daha səmərəlidir. Hazırlanma prosesində istehsalçı o qədər də əziyyət çəkmir, ancaq istehlakçı üçün zərərli olması narahatlıq doğurur. Bu yağların ehtiyatının artırılması Azərbaycan istehsalçısı üçün böyük maraq kəsb edir.

### AQTA haray salır, amma...

Müşahidələr göstərir ki, bir sıra ticarət obyektlərində kərə və bitki yağları eyni satış sahələrində (vitrin) yerləşdirilir. Bu isə istehlakçı hüquqlarının pozulması hallarına gətirib çıxarır. Ona görə də bunun qarşısını almaq üçün market və digər ticarət obyektlərində kərə və bitki yağlarının satışı ayrı-ayrı sahələrdə təmin olunmalıdır. Eyni zamanda, müvafiq vitrinlərin üzərində “Kərə yağları” və “Bitki yağları” yazılmış ayrı–ayrı lövhələr qoyulmalıdır.

AQTA bununla bağlı kərə və bitki yağlarının satışını həyata keçirən ticarət obyektlərinin sahiblərinə və istehlakçılara müraciət edib. Bildirilib ki, digər qida məhsulları kimi, yağlarla bağlı da yoxlama və monitorinqlər davam etdirilir. Nəzarət tədbirləri zamanı yağ məhsullarına ümumi orqanoleptik baxış keçirilir və müayinə üçün nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunur. Uyğunsuzluqlar aşkarlandıqda, qanunamüvafiq tədbirlər görülür. Bununla yanaşı, AQTA istehlakçıları yağ alarkən etiket məlumatlarına diqqət yetirməyə çağırır. Eyni zamanda istehlakçılardan kərə yağı adı altında bitki yağlarının satışa çıxarılması və buna oxşar digər hallarla qarşılaşdıqda, agentliyin “1003-Çağrı Mərkəzi”nə müraciət etmələri xahiş olunur.

Qeyd edək ki, kərə və bitki yağları tərkibinə görə fərqlənir. Kərə yağı qidalılıq dəyərinə görə yüksək keyfiyyətə malikdir, tərkibi isə əsasən süd yağından ibarətdir. Bitki yağlarının tərkibini isə daha çox günəbaxan, palma, raps və soya bitkilərinin yağları təşkil edir.

***Vaqif BAYRAMOV,***
***XQ***

---

*Ekspert rəyi*



**İlkin ŞİRİNOV,**
**qida məsələləri üzrə mütəxəssis**

Saxta kərə yağı dedikdə təbii süddən alınan kərə yağı əvəzinə, müxtəlif qatqılardan və kimyəvi maddələrdən istifadə edilərək hazırlanmış məhsul nəzərdə tutulur. Riskli sayılan bu cür məhsullar insanların sağlamlığı üçün təhlükəli olmaqla ciddi fəsadlar törədir. Kərə yağını saxtalaşdırmaqda əsas məqsəd isə əlavə qazanc əldə etməkdir.

Kərə yağlarının istehsalında təbii süddən istifadə olunur. Bitki yağlarında isə bu, fərqlidir. Əlavə ətirləndiricilər, rəngləndiricilər, dad və qoxu verməsi üçün aromatik qatqılar, fermentlər qarışdırılır. Yağlar və qatqılar istilik altında qarışdırılaraq soyudulur və görünüş olaraq kərə yağına bənzədilir. Bu cür yağların istehsalında soya, palma, kakos və digər yağlar əsas baza kimi istifadə olunur. İstehlakçılar məhsulu alarkən yağlılıq dərəcəsi məhsulun üzərində qeyd olunmalıdır. Eləcə də “E” kodu ilə olan qatqılar etiketlənmədə əksini tapmalıdır. Bitki tərkibli yağın kərə yağı adı altında satılması müştərilərin aldadılması deməkdir.

Biz dəfələrlə bitki tərkibli yağların kərə yağı adı ilə satılmağından və palma yağlarının insan sağlamlığı üçün nə dərəcədə təhlükəli ola biləcəyindən danışmışıq. Bu, çox böyük bir problemdir. İşbazların bitki, spred və soya tərkibli yağları alıcılara satması, əslində, istehlakçıların aldadılmasıdır. Bu işlə məşğul olan hər kəs məsuliyyət daşıyır. Bu, məsələnin bir tərəfidir. Digər tərəfi isə alıcıların diqqətli olmasıdır. Alınan məhsula görünüşünə görə dəyər verilməməlidir. Məhsulun tərkibi diqqətlə oxunmalıdır. Satışdakı hər bir məhsulun Azərbaycan dilində markalanması zəruridir. Məhsulun üzərində onun yağlılıq dərəcəsi, bitki yağı olub-olmaması ilə bağlı məlumat yer almalıdır. İnsanların ən çox əziyyət çəkdiyi xəstəliklər məhz belə yağların istifadəsindən qaynaqlanır. Ürəkdə tromblaşma və xərçəng kimi xəstəliklərin geniş yayılması bu cür yağların gen-bol işlədilməsi ilə bağlıdır.

Sonda qeyd edim ki, təmiz kərə yağı otaq temperaturunda yumuşalsa da, tam ərimir və asan yayılır. Əsl kərə yağı bir stəkan qaynar suyun üzərində qalır və rəng buraxmır, ağızda isə süd tamı verir və tez əriyir. Təmiz kərə yağı əldə etmək üçün 25-30 litr süd lazımdır. Yalnız bu halda 1 kiloqram kərə yağı əldə etmək mümkündür. Belə hesablama ilə bütün xərcləri nəzərə alsaq, südün kiloqramı 1 manatdırsa, üzərinə istehsal xərcləri də əlavə edilirsə, normal qiymət 25-26 manat olmalıdır. Bəs onda necə olur ki, bazarlarda, ticarət müəssisələrində təmiz kərə yağının kiloqramı 15 manata satılır? Təbii ki, məsələ məlumdur...




---

*Ekspert rəyi*



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Azərbaycan hökuməti biznes qurumları üçün son dərəcə rahat bir şərait yaradıb. Onlar dövlətin nəzarəti altında yoxlanılır. Biz də bunun tərəfdarıyıq. Çünki belə olan halda yoxlamalar məhdudlaşır. Lakin qida təhlükəsizliyi prioritet istqamət kimi daim diqqətdə saxlanılmalı, bu məsələdə sürətli və keyfiyyətli dəyişiklik olmalı, cəld yoxlama mexanizmi qurulmalıdır. Təhlükəli qidaların geri çağırılma qaydası yaradılmalıdır.

Marqarinlər arzuolunmaz yağlardır, bu məhsullardan insanların istifadəsi mümkün qədər azaldılmalıdır. Lakin onların bu gün Azərbaycana gətirilib kərə yağı adı altında satılması, xüsusən də müasir marketlərdə satılması fikrimcə, mümkün deyil. Çünki belə məhsulların müasir marketlərdə istehlakçılara təqdim olunması üçün, ilk növbədə, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən verilən xüsusi keyfiyyət icazəsi olmalıdır.

Bu baxımdan marqarinin qarışdırılıb satılması mümkün deyil. Amma marqarin məhsullarının tort, şirniyyat üçün standartlara uyğun istifadəsi istina olunmur. Hətta marqarinin “Yeni Zellandiya” yağı adı ilə satılması da mümkün deyil. Düzdür, illər öncə bu sahədə neqativ hallara rast gəlinirdi. Yeri gəlmişkən, son bir ildə Qida Təhlükəsizliyi Agentliyinin bütün keçid məntəqələrində nümayəndəliyi var və həmin keçidlərdə ciddi yoxlamalar aparılır.

Amma fermer təsərrüfatlarında vurğulanan neqativ hallar müşahidə olunur, marqarınlər isti südlə qarışdırılır, qızdırılır və ondan qaymaq alınaraq yağ hazırlanır. Həmin yağın tərkibində süd turşuları da olur ki, onu da kərə yağı, yaxud marqarinlə qarışıq yağ olduğunu müəyyənləşdirmək mümkün deyil. Bunlar “Kənd yağı”, “Nənəmin yağı”, “Nənəmin nehrəsi” adı ilə ticarət müəssisələrinə ötürülür. Bir sözlə, belə saxtakarlıqlar ancaq Qida Təhlükəsizliyi Agentliyinin nəzarətindən kənarda baş verir.

Deməli, bu məhsulların əksəriyyəti bitki yağlarının və müxtəlif kimyəvi qatqıların qarışığından hazırlanır. Əsas problem isə ondan ibarətdir ki, belə yağlar adi marqarindən fərqli olaraq tərkibinə az miqdarda süd yağı əlavə edilməklə saxta kərə yağı kimi təqdim olunur. Bu isə istehlakçının məhsulu seçərkən yanılmasına gətirib çıxarır. İnsanlar bu məhsulları sağlam və keyfiyyətli qida kimi qəbul edərək alır, lakin sonradan onların saxta kərə yağı olduğunu anlayırlar. Bununla belə ciddi marketlər şəbəkəsində belə vəziyyətə nadir hallarda rast gəlinir. Çünki burada satılan yağlar Qida Təhlükəsizliyi Agentliyinin nəzarəti altındadır və əsasən Almaniya, Fransa, Yeni Zelandiya və Belarus kimi ölkələrdən idxal olunur.

Yeri gəlmişkən, “Yeni Zelandiya” kərə yağları ilə bağlı fikirlərə də aydınlıq gətirmək istərdim. Əvvəllər insanlar çox uzaq bir ölkədən nisbətən münasib qiymətə kərə yağının gətirilməsinə şübhə ilə yanaşırdılar. Beş il öncə Yeni Zelandiyada keçirilən bir konfransda iştirak etdiyim zaman “Westgold” markalı yağı istehsal edən zavoda – ölkənin cənub adasında yerləşən “West Milk Production” müəssisəsinə baş çəkdim.

Burada yağlar respublikamıza göndərilməzdən əvvəl Azərbaycan dilində markalanaraq qablaşdırılır. Bundan əlavə, həmin zavodun heyvandarlıq təsərrüfatına da baxış keçirdim. Gördüm ki, heyvanlar ilboyu açıq havada saxlanılır, süni yemlə qidalanmır və tam ekoloji şəraitdə böyüyür. Bu da həm məhsulun keyfiyyətini, həm də qiymətinin daha münasib olmasını təmin edir. Yəni bu yağlar, həqiqətən də, keyfiyyətlidir və ölkəmizə uyğun qiymətə çatdırılır. Qeyd edim ki, illər əvvəl bəzi ölkələrdən, o cümlədən Yeni Zelandiyadan saxta yağlar gətirilirdi. Lakin mən şəxsən “Westgold” markasını araşdırdım və bu məhsulun orijinal və keyfiyyətli olduğuna tam əmin oldum.

# Ey sevimli müəllim!

## Zaman onun çağdaş obrazını yaradıb

**Müəllim-şagird münasibətləri təhsil mühitini formalaşdıran amil və bütövlükdə cəmiyyətin düşüncə tərzini, dəyərlər sistemini əks etdirən göstəricidir. Tarixin hər dövründə bu münasibətlər müxtəlif yönlərdə təzahür edib.**



Yaşlı və orta nəslin nümayəndələrindən eşitdiklərimizə görə, keçmişdə müəllimin dediyi söz mübahisəsiz qəbul olunardı. Bu yanaşma bəzən sərt görünsə də, o dövrün nizam-intizamı, təhsilə verilən önəm və müəllim məfhumunun müqəddəsliyi ilə əlaqələndirilərdi.

Hər il ilk dərs günündə məktəblərin həyətində payız küləyi saralmış yarpaqları sovurar, uzaqdan asta addımlarla yaxınlaşan müəllimlər görünərdi. "Bizim Cəbiş müəllim" filmindəki kimi qara, çox geyilməkdən rəngi solmuş kostyum, qışda qalın plaş, əlində də dəri çanta. O çantaya vərəqləri saralmış kitablar, dəftərlər, bəzən də lazım olan kiçik əşyalar qoyulardı. Onlar hər səhər məktəbə hər kəsdən öncə gələr, ən sonda gedərdilər.

Yaşlı nəslin nümayəndələri söz düşəndə deyirlər ki, o illərdə müəllimlər həm də fədakarlıq nümunəsi kimi qiymətləndirilərdilər. Maaşlar az olsa da, müəllim çox vaxt imkansız şagirdinə dəftər, qələm alardı. Evində bir otaqdan o biri otağa kitab yığınları düzülərdi. Axşam lampanın zəif işığında o kitabları vərəqləyər, sabahkı dərs üçün hazırlaşardı. Yorğun dərs günləri, zəif lampa işığında yazılmış dərs planları, şagirdlərin taleyi ilə bağlı nigaranlıqlar onun səbrini sınağa çəksə də, onun daxili alovunu gücləndirərdi. Simasında ciddi, amma mehriban ifadə, tələbkarlıqla yanaşı, valideyn qayğısı sezilərdi. Keçmiş dövrün müəllimləri haqqında danışanda insanın təsəvvüründə bir çıraq canlanır, özünü şam kimi əridən, başqalarını işıqlandıran mənəvi çıraq. Kütləvi savadsızlıq dövrünün müəllimləri elmin, təhsilin hər evə yol tapmadığı vaxtda xalqın ümid çırağına çevrilmişdilər.

Müasir dövrdə isə dünyada baş verən sosial dəyişikliklər, informasiya bolluğu və yeni pedaqoji yanaşmalar nəticəsində müəllimlə şagird arasında münasibətlər daha interaktiv, bərabərhüquqlu və demokratik çərçivədə inkişaf edir.

Əgər keçmişin köhnə məktəb həyəti illərin yükünü daşıyırdısa, müasir məktəblərin həyəti tamamilə fərqli ab-havadadır. Hər il sentyabr ayında yenə payız küləyi tökülmüş yarpaqları sovurur, amma bu dəfə rahat skamyalar, müasir təlim vasitələri, idman meydançaları və xidmət sahələrinə qaynar mənzərə gətirən uşaqların səsi ətrafa yayılır, məktəb binası isə parlaq fasadı və müasir dizaynı ilə həm gözəlliyin, həm də təlim-tərbiyə ab-havasının timsalı kimi ucalır. Yeni dövrün müəllimi həm də texnologiya ilə yarışan bələdçidir. Onun əlində təbaşir yox, qarşısında interaktiv lövhə, elektron dərslik, planşet, layihə cihazı var. Dərs prosesində həm də videolar, təqdimatlar, rəqəmsal platformalardan yararlanır.

İndi müəllim sinif otağında şagirdlərin diqqətini cəlb etmək üçün daha çox səy göstərir.

Çünki yeni nəslin nümayəndələri artıq mobil telefonlardan, sosial şəbəkələrdən istifadə edir. Əgər müəllim dərs metodunu düzgün seçməsə, şagirdlərdə maraq oyada bilmir.

Çağdaş dövr müəllimlərin geyimi daha rəngarəng və sərbəstdir – artıq yalnız qara kostyum, ağ köynəkdə deyil, bəzən gündəlik üslubda sinif otağına daxil olsa da, səliqə və mədəniyyətlə fərqlənirlər. Əgər keçmişin müəllimi şagirdin yalnız yolgöstərəni idisə, müasir müəllim həm də onun dostu və psixoloqu rolundadır.

Ömrünün 49 ilini müəllimlik fəaliyyətinə həsr edən 75 yaşlı müəllim Tahirə İsmayılova bildirir ki, hər dövrün öz tələbi var, sadəcə, münasibətlərin sərhədini müəyyən etməyi bacarmalısan:

– Bugünkü müəllim–şagird münasibətləri əvvəlkindən daha səmimidir. Şagird müəllimə sual verməkdən, öz fikrini deməkdən çəkinmir. Bu, təhsil prosesinə dinamika gətirsə də, bəzən müəllim nüfuzunun zəifləməsinə də səbəb olur. Çünki şagird müəllimi bəzən "həmsöhbət" kimi görür. Müasir münasibətlərdə hörmət anlayışı bir qədər dəyişib. Əvvəllər müəllimin hər sözü tərəddüdsüz qəbul olunurdusa, indi şagird onun dediklərini internetlə, texnologiya ilə müqayisə edir. Bu, bir tərəfdən düşünmə vərdişini gücləndirsə də, digər tərəfdən müəllimin sözünün kəsərini azaldır. Valideynlərin də prosesə müdaxilə etməsi münasibətlərin gedişatına təsir göstərir. Müəllim şagirdlə daha ehtiyatla davranmağa məcbur olur. Çünki hər an valideyn etiraz edə, sosial mühitdə məsələni qabarda bilər. Bu isə müəllimin tədrisdə sərbəstliyini məhdudlaşdırır.

Eyni zamanda, şagirdlərin dünyası sürətlə dəyişir, maraqları dərsdən çox sosial mediaya yönəlir. Müəllim isə yeni mühitə uyğunlaşaraq, şagirdin diqqətini toplamağa çalışır. Beləcə, müəllim–şagird münasibətləri artıq yalnız bilik üzərində deyil, həm də psixoloji yanaşma, motivasiya və düzgün istiqamətləndirmə ilə qurulur. Müasir münasibətlər daha səmimi olsa da, məsuliyyət hissi, müəllim nüfuzunun qorunması məsələsi balansda saxlanılmalıdır. Bu isə təhsilin keyfiyyətinə dolayısı ilə təsir göstərən vacib məqamdır.

Şagird-müəllim münasibətlərində texnologiya və interaktiv üsullar sadəcə vasitədir, əsas olan ünsiyyətin səmimiliyi, yaradıcı düşüncənin inkişafı və birgə öyrənmə həvəsidir. Beləcə, müasir təhsil həm də şəxsiyyətin formalaşmasına, inkişafına zəmin yaradır.

***Fidan ƏLİYEVA***
***XQ***

# Vətən qurbanlarının övladları da unudulmayıb





**Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin, Vətən müharibəsində sağlamlıqlarını itirmiş qazilərimizin ailələri daim dövlətin xüsusi diqqət və qayğısı ilə əhatə olunur. Bu ali məqsədə xidmət edən sosial proqramlar, davamlı dəstək mexanizmləri və humanist layihələr, xüsusilə şəhid və qazi övladlarının həyat şəraitinin yaxşılaşdırılmasına, onların təhsili və mənəvi inkişafına yönəlib.**

Yeni tədris ilinin başlanması ərəfəsində Naftalan şəhərində keçirilən görüş də bu istiqamətdə atılan silsilə addımların davamı oldu. Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovun təşəbbüsü ilə təşkil edilən məclisdə Türkiyə Cümhuriyyətinin Gəncə şəhərindəki baş konsulu Rəcəb Öztop və Avropa Azərbaycan Məktəbinin direktoru Francesco Banchini də iştirak ediblər.

Görüş şəhid və qazi övladlarının gələcəyə daha inamla addımlamaları, onların sosial adaptasiyası və təhsildə motivasiyalarının artırılması baxımından mühüm əhəmiyyət kəsb edib. Burada dövlətimizin şəhid ailələrinə və qazilərə göstərdiyi daimi diqqət və qayğıdan, bu ailələrin cəmiyyətin ən dəyərli təbəqəsi kimi hər zaman ön planda saxlanılmasından geniş bəhs olunub.

Rəsmi çıxışlardan sonra qonaqlar məktəbli şəhid və qazi övladları ilə səmimi söhbətlər apararaq onların təhsil arzularını dinləyib, yeni dərs ili münasibətilə xoş diləklərini bildiriblər. Uşaqlara məktəb ləvazimatları, çanta və dəftər dəstləri, xatirə hədiyyələri təqdim olunub. Bu jest balaca vətənpərvərlər üçün əsl bayrama çevrilib.

Qonaqlar tərəfindən vurğulanıb ki, şəhid və qazi ailələrinə olan bu diqqət təkcə dövlətin deyil, bütövlükdə cəmiyyətin mənəvi borcudur. Bu ailələrin övladları bizim gələcəyimiz, sabahımızdır. Onlara göstərilən hər bir dəstək, əslində, Azərbaycanın sabahına qoyulan sərmayədir.

Valideynlər və tədbirdə iştirak edən ailələr onlara göstərilən qayğıya görə Azərbaycan dövlətinə, Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlıqlarını ifadə ediblər. Onlar qeyd ediblər ki, bu cür görüşlər təkcə maddi deyil, həm də mənəvi baxımdan böyük əhəmiyyət kəsb edir. Valideynlər dövlətin və xalqın bu diqqətini hər zaman hiss etdiklərini bildirərək, belə humanist tədbirlərin davamlı olmasının nə qədər vacib olduğunu xüsusi vurğulayıblar.

Bu cür tədbirlər həm şəhid və qazi ailələrinin rifahına dəstək məqsədi daşıyır, həm də cəmiyyətə və gələcək nəsillərə vətənpərvərlik ruhunun aşılanmasında mühüm rol oynayır.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

***Naftalan***

*Sağlamlıq*

# Dərman niyə zəhərə çevrilir?

## *Özünümüalicə ağır fəsadlara da səbəb olur*

**Xəstələnəndə, ağrıya dözə bilməyəndə həkimdən əvvəl dərmanlara üz tuturuq. Bəzən isə onlar dava olmaq əvəzinə dərd gətirir. Orqanizmin özünümüdafiə sisteminin pozulmasi bir çox ağır fəsadlara, hətta ölümə yol açır. Başlıca səbəb isə dərmanlardan kor-koranə istifadədir. Dərmanı müxtəlif sular, şirələr, qazlı içkilər, çayla hətta mayesiz qəbul edənlər də var. Bu cür dərman qəbulu ağrını müəyyən müddətə kəssə də, sonradan müxtəlif fəsadlarla nəticələnir.**

Dərmanların fəsadlarından daha çox gənclər əziyyət çəkir. Çünki onların əksəriyyəti dərmanın hansı maye ilə qəbul edildiyini bilmir. Ortayaşlılar arasında dərmanı dişləri arasında əzərək udanlar üstünlük təşkil edir. Onlar bu üsulun daha effektiv olacağına inanırlar. Yaşlı nəsil isə dərman mövzusunda daha diqqətlidir. İlıq su ilə qəbul edilən dərmanların təsirli olacağını düşünürlər.



Həkim-terapevt Xatirə İsayeva deyir ki, bəzi insanlar ən yüngül ağrılarda belə dərman qəbul edirlər. Halbuki bu bədəni dərmana öyrədir və tədricən onun təsirini azaldır. Ağrı dözülməz olduqda dərman qəbul etmək lazımdır. Əks halda bədən dərmanla zəhərlənir: "Dərmanı çay və müxtəlif şirələrlə də qəbul edirlər. Bu zaman dərmanın tərkibi məhz şirə və digər maye tərkibləri ilə uzlaşmayıb zəhərlənmə verə bilər. Dərman su ilə qəbul edilsə, daha yaxşıdır. Həbi mineral su ilə içmək olmaz, çünki bu, preparatın tərkibindəki bəzi maddələrin sorulmasına mane olur. Bunun daha bir səbəbi də var.

Mineral suda fəal kimyəvi birləşmələr olduğundan preparatın tərkibindəki aktiv maddələr ilə reaksiyaya girir. Lakin elə dərman vasitələri də var ki, onları mineral su ilə içmək daha səmərəli olar. Məsələn, mədənin selikli qişasına ziyan vurmamaq üçün eritromisin və həll olunmayan aspirin, yod preparatları kimi dərmanları mineral su ilə içmək məsləhətdir. Bundan əlavə, mədənin selikli qişasını qıcıqlandıran dərmanları süd ilə qəbul etmək olar. Soyuqdəymə və hərarətə qarşı həblər adətən yeməkdən yarım saat əvvəl, ya da yarım saat sonra qəbul olunur. Onları naringi şirəsindən başqa, istənilən şirə ilə içmək mümkür. Subtropik meyvə şirəsi dərman preparatları ilə reaksiyaya girərək orqanizmə təhlükə yaradır. Ona görə, heç bir həkim şirələr ilə dərman qəbul etməyi məsləhət bilmir, çünki hansı dərmanın hansı şirə ilə reaksiyaya girib necə əks göstəriş verəcəyini bilmək çox çətindir".

Almanyalı alimlərin apardıqları araşdırmaların nəticələri göstərib ki, dərmanların əzilərək, kapsulların açılaraq istifadə edilməsi insan həyatı üçün risklidir. Çünki bəzi dərmanlar əzildikdə hava ilə reaksiyaya girərək, zəhərə çevrilir və buna görə də mütəxəssislər kapsulların içini açıb, suya qataraq, içməyi qadağan edirlər. Alimlərin sözlərinə görə, dərmanların əzilərək istifadəsi mədəyə zərər verə bilər.

Terapevt bildirir ki, bir sıra ağrıkəsicilərin əzilərək içilməsi məsləhət görülmür, çünki bu dərmanların tərkibi mədə üçün olduqca təhlükəlidir. Əgər dərman həb formasındadırsa, deməli, onu həb olaraq da qəbul etmək lazımdır. Əks halda hər hansı yan təsirin olma ehtimalı böyükdür: "Əvvəla, dərman vasitəsindən mümkün qədər az istifadə edilməlidir. Çünki dərman hər hansı bir ağrını sakitləşdirsə də, bəzi orqanlardan təsirsiz ötüşmür. Mədə, qaraciyər, böyrək üçün digər problemlərə yol açan həddindən artıq dərman qəbulu bir müddət sonra ağrını kəsmir".

Hər il insanlar arasında qida və dərmandan zəhərlənmə halları baş verir. Bu ilin ilk altı ayı ərzində dərmandan zəhərlənmə səbəbi ilə Kliniki Tibbi Mərkəzin (KTM) Toksikologiya şöbəsinə 275 nəfər müraciət edib. Müraciət edənlərdən 7 nəfərin həyatını xilas etmək mümkün olmayıb. Təkcə avqust ayı ərzində isə KTM-ə zəhərlənmə diaqnozu ilə 94 nəfər yerləşdirilib. Onlardan 30-u dərmanlardan zəhərlənib. Nəzərə alsaq ki, bu statistika təkcə bir klinikaya aiddir, o zaman ölkə üzrə zəhərlənmələrin nə qədər çox olduğunu təsəvvür etmək elə də çətin deyil.

Mövzu ilə əlaqədar Kliniki Tibbi Mərkəzin baş həkimi Azər Maqsudov bildirir ki, zəhərlənmələrin çoxu doza həddinin aşılması ilə bağlıdır. O, bunun səbəbini dərmanın həkim təyinatı ilə qəbul olunmadıqda doza artımı, müxtəlif preparatların vaxtı-vaxtında içilmədikdə bir-birinə qarışması ilə əlaqələndirir. Həkim tövsiyə edir ki, evdə dərman saxlayarkən də qaydalara düzgün riayət edilməlidir. Əks təqdirdə dərmanın təsiri itir və bədənə fəsad verir.

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin mütəxəssisi Nərgiz Mikayıllı isə satışda heç bir keyfiyyətsiz dərmanın olmadığını deyir. Onun sözlərinə görə, problem dərmanın keyfiyyətində yox, vətəndaşların onu necə istifadə etməsindədir: "Azərbaycan Respublikasına daxil olan hər bir dərman vasitəsi laboratoriyamızda fiziki-kimyəvi, mikrobioloji analizlərdən keçirilir. Bunlar beynəlxalq standartlar və normativ sənədin tələblərinə uyğun olaraq aparılır. Tələblərə uyğun olduqda dərman vasitələrinə uyğunluq sertifikatları verilir və bundan sonra bazara daxil olur".

Mütəxəssislər bildirirlər ki, dərman zəhərlənməsi qida zəhərlənməsindən daha ağır olduğu üçün ev şəraitində müalicəsi mümkünsüzdür. Ona görə də çalışın dərmanlardan kortəbii şəkildə istifadə etməyin ki, sizi dərdə salmasın.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Tibbi bərpa xidmətləri genişlənir

**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin ilk 8 ayında əlilliyi olan şəxslərə göstərilən xidmətlərin əhatə dairəsini genişləndirərək 90 min şəxsə tibbi-bərpa xidmətləri göstərib.**




49,8 min nəfər ambulator, 21,1 min nəfər stasionar və icma əsaslı formalarda xidmətdən yararlanıb. Digər şəxslər isə səyyar və onlayn metodlarla, o cümlədən sosial-psixoloji, ippoterapiya və digər istiqamətlərdə bərpa seansları alıblar.

Son illərdə Agentliyin bərpa mərkəzləri müasir dünya təcrübəsinə uyğun yeni yanaşmalar tətbiq edir. Ənənəvi metodlarla yanaşı, robotik bərpa, yoqa, rəqs terapiyası, hippoterapiya kimi təsirli üsullar da xidmətə daxil edilib. Bu yeniliklər əlilliyi olan şəxslərin daha səmərəli və fərdi sağlamlığını təmin edir.

Bundan əlavə, bərpa xidmətləri stasionar və ambulator mərkəzlərlə məhdudlaşmır. Telereabilitasiya və səyyar xidmətlər vasitəsilə ehtiyacı olan hər kəsə yardım göstərilir. Bu da xidmətlərin əlçatan və rahat olmasına imkan verir.

***Arzu ƏLİYEVA***
***XQ***

*Turan elləri*

# Qazaxıstan çölləri atların təbii cıdır meydanıdır

**Qazaxıstan gəncləri boş vaxtlarında bu ölkənin geniş çöllərində dördnala at çapmağı çox sevirlər. Atların ilk dəfə əhliləşdirildiyi diyar kimi tanınır Qazaxıstan! Nə yaxşı qazax xalqı atçılıq ənənələrini qoruyub saxlayaraq inkişaf etdirir.**



Bu günlərdə "Anadolu" agentliyi qazaxıstanlı gənclərin at çapmaqdan aldıqları zövq, adrenalin barədə yazı yayımlayıb. Məqalədə deyilir ki, ölkədə 14 müxtəlif cinsdən olan 4 milyondan çox at var. Bu heyvanların sayına görə, hazırda Qazaxıstan ABŞ, Meksika və Braziliya ilə bərabər səviyyədədir.

Son onillər ölkədə atçılıq sahəsində çox sayda özəl fermalar yaradılıb. Təlimçi Abay Amanjol bildirib ki, ona məxsus olan fermada 300-ə yaxın at var. Gündəlik qayğıları çoxdur, həftəsonu isə işi başından aşır, çünki gənclər ucsuz-bucaqsız çöllərdə at sürməyi öyrənmək üçün bura axışırlar.

Amanjol sonra vurğulayıb ki, əslində, qazaxıstanlı gənclərə at sürməyi öyrətməyə xüsusi bir ehtiyac yoxdur. Bu, onun sözlərinə görə, qazaxların genlərinə hopmuş bir istedaddır:

– Mən ömründə bir dəfə də olsun ata əyləşməmiş gənclər görmüşəm ki, elə burada birinci cəhddən atları məharətlə minərək yarışıblar. Əvvəllər nənələrimiz də bu sənətə yiyələniblər. Qazaxıstanın intəhasız çöllərində at çapmağın verdiyi azadlıq hissini sözlə çatdırmaq mümkün deyil. Zarafat deyil, bu zaman insanın ruhu cuşa gəlir!

Anyal Azamatqızı "Anadolu" müxbirinə at sürməyi sıfırdan öyrəndiyini deyib: "Mən Astanada yaşayıram və asudə vaxtımı burada keçirirəm. Bizim çöllərdə heç bir maneəyə rast gəlmədən at sürmək heyrətamiz bir hissdir".

Baurjan Alimxanov isə əlavə edib ki, o, adətən həftə sonlarını dostları ilə at sürməklə keçirir. "Xüsusilə çöldə atın üstündə oturaraq günəşin qürubunu seyr etməkdən zövq alıram. Bütün qayğılarımı unuduram".

Son illərdə at çapmaq gənc qazaxlar arasında çox populyar idman növünə çevrilib. Yeri gəlmişkən, at sürmə üzrə 1 dərsin qiyməti saatda 5 min -15 min tenge (təxminən 380-1100 türk lirəsi) arasında dəyişir.

Xatırladaq ki, ötən ilin payızında Astanada böyük uğurla Ümumdünya Köçəri Oyunları (ÜKO) keçirilib. Bu, etnik idman növləri üzrə ən böyük beynəlxalq idman yarışlarıdır. O dönəmdə Qazaxıstan paytaxtına 80-dən çox ölkədən 2 minə yaxın iştirakçı təşrif buyurmuşdu. Proqrama atçılıq yarışları, güləş, ənənəvi oxatma və s. kimi 20 əsas idman növü daxil olunmuşdu.

Oyunlarda təkcə idmançılar deyil, mədəniyyət və elm nümayəndələri də iştirak ediblər. Proqram çərçivəsində etno-mədəni irsin təbliği məqsədilə elmi konfranslar, mədəni tədbirlər də təşkil olunub.

Qeyd etmək lazımdır ki, ÜKO artıq UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

...Yadımdadır, 1970-ci illərin sonlarında Moskva Dövlət Universitetində təhsil alarkən Almaatıdan olan tələbə yoldaşım ilə tez-tez qazax gənclərinin at çapmaqdan xüsusi zövq aldığını söyləyəndə, özümdən asılı olmayaraq doğma dilimizdə bu bəndi söylədim:

**Min Qazaxda köhlən ata,**
**Yalmanına yata-yata,**
**At qan tərə bata-bata**
**Göy yaylaqlar belinə qalx,**
**Kəpəz dağdan Göygölə bax!**

Dostum biləndə ki, Xalq şairi Səməd Vurğun Azərbaycanın Qərb bölgəsində Qazax rayonunda anadan olub, bir qədər fikrə getdi. Sonra söylədi ki, görünür, Qazaxda yaşayanlar vaxtilə bizim tərəflərdən köçən insanların nəsilləridir. Məhz ona görə oranı belə adlandırırlar.

Mən bunu nə inkar, nə də təsdiq etdim. Sadəcə söylədim ki, bütün türk elləri bir-birilərilə qohumdurlar, ona görə ki, bir kökdən yaranıb qol-budaq atıblar. Arqumentim qazax tələbəni qane etdi.

***MH ACIXANLI***
***XQ***

# "Vəfa" dəyərlərə vəfalı olmağa çağırır

**"VƏFA" Sosial Problemlərin Həllinə Dəstək İctimai Birliyinin məqsədi cəmiyyətdə mövcud olan sosial problemlərin həllinə dəstək vermək, xüsusən də qadınlar, uşaqlar və gənclərlə bağlı həssas məsələlərin aradan qaldırılması istiqamətində fəaliyyət göstərməkdir. Təşkilat cəmiyyətin həssas qruplarının yanında olmağı özünün missiyası hesab edir. İctimai birliyin sədri Fatma Hacıyeva (Hacıbəyli) təşkilatın gördüyü işlər və gələcək planları barədə XQ-yə müsahibə verdi:**



**– Fatma xanım, ictimai birliyin əsas fəaliyyət istiqaməti nələrdir?**

– Əsas fəaliyyətimiz zorakılığın müxtəlif formalarının qarşısının alınması, gender bərabərliyinin təşviqi, qadın və uşaqların hüquqlarının müdafiəsi, gənclərin maarifləndirilməsi, ailə institutunun möhkəmləndirilməsi və sosial problemlərin həlli ilə bağlı ictimai təşəbbüslərin dəstəklənməsindən ibarətdir. Çalışırıq ki, həssas qruplar yalnız dəstək almasın, həm də öz hüquqlarını müdafiə etməyi öyrənsinlər.

**– İndiyədək hansı layihələri həyata keçirmisiniz?**

– Erkən nikahlarla bağlı müxtəlif adlarla bir neçə layihə rəhbəri olmuşam. Erkən nikah mövzusu qəlbimə yaxın olduğu üçün bu istiqamətdə işləməyi daha çox düşünmüşəm. Çünki müəlliməm, yeniyetmələrlə işlədiyimdən onların tələblərini yaxşı bilirəm. Bakı şəhərində erkən nikah hallarına regionlarla müqayisədə az rast gəlinir. Ona görə də həmin layihələri bölgələrdə həyata keçirmişik. Bir neçə il İsmayıllı və Abşeron rayonlarının kəndlərində maarifləndirici tədbirlər gerçəkləşdirmişik. Erkən nikahın və nikahdan kənar uşaq evliliyinin qarşısının alınması məqsədilə Abşeronun bir neçə kəndində layihənin icrasına nail olmuşuq. Onu da deyim ki, bölgələrimizdən Masallı və Biləsuvar rayonlarında erkən nikaha daha çox rast gəlinir. O bölgələrin əksər kəndlərində qızlar 5-ci, uzağı 6-cı sinifdən məktəbdən yayındırılır.

Erkən nikahlarla bağlı "Qadınların cəmiyyətə inteqrasiyasında erkən nikah sindromu" adlı layihənin icrası zamanı çox sayda telefon zəngləri gəlmişdi. Bir dəfə, Abşeronda 15 yaşlı bir qızın nişanlanması ilə bağlı informasiya aldım. Valideynlər bu məlumatı gizlətməyə çalışsalar da, uşaq faktı təsdiqlədi. Abşeron Rayon İcra Hakimiyyəti nəzdində İctimai Şuranın köməyi ilə hadisəyə müdaxilə etdik. Mərasim baş tutmadı və qızın məktəbə qayıtmasına nail olduq. Erkən nikahlar uşaqların həmin yaş dövrünü əllərindən almaqla, ailə, ev, uşaq baxımı kimi məsuliyyətlər daşımaqla şəxsi inkişafına mane olur. Uşaq evliliyi qız uşaqlarının həyat yoldaşlarından asılı hala gəlmələrinə və cəmiyyətdə qadın–kişi bərabərsizliyinin yaranmasına gətirib çıxarır.




Adətən, erkən evlilik halları ailələrin razılığı ilə baş tutduğundan, nikaha cəlb edilənlərin 70 faizi evlənməmişdən öncə bir-birlərini görmürlər. Ailə planlaşdırılmasını dərk etmirlər və beləliklə, dünyaya gələn uşaqların sağlamlığında ciddi problemlər meydana çıxır. Depressiyaya düşənlərlə bağlı dünya statistikasında 10–17 yaş arasında evlənənlərin daha çox intihara meyilliliyi müşahidə olunur.

Erkən və qohumlar arasında nikahlara qadağanın qüvvəyə minməsindən sonra düşünürəm ki, qanuna edilən bu dəyişiklik cəmiyyətin sağlamlaşmasında, sağlam nəsil yetişməsində doğru addımdır.

**– Hazırda hansı layihə üzərində işləyirsiniz?**

– 2025-ci ildə həyata keçirdiyimiz "Azərbaycanda gender əsaslı zorakılığın qarşısının alınması təlimləri" layihəsi çox mühüm addım oldu. Bundan öncə "Yeniyetmə və gənclər arasında erkən nikah və qeyri-rəsmi nikahlarla mübarizə" layihəsini reallaşdırmışıq. Bu layihə ilə yeniyetmə və gənclər arasında ailə institutunun inkişafına töhfə verməyi, erkən nikahların qarşısını alaraq məişət zorakılığına "yox" deməyi və onun fəsadları barədə geniş maarifləndirmə işləri aparmağı hədəflədik. Məqsədimiz yetkinlik yaşına çatmayan gənclərin qeyri-rəsmi nikaha girməsinin qarşısını almaq və ailə dəyərlərinin gənclər arasında təbliğini gücləndirmək idi.

Hazırda "Gender əsaslı zorakılıq struktur və mədəni şiddətin ən çox yayılan formasıdır" adlı layihəni reallaşdırırıq. Layihənin icrasına iyun ayından başlamışıq. Bölgələrdə həyata keçirdiyimiz layihənin icrası avqust ayının sonunda başa çatacaq.

**– İcra edilən layihələrin cəmiyyətə təsiri barədə nə deyə bilərsiniz?**

– Ən böyük nəticə ondan ibarətdir ki, artıq insanlar bu mövzularda susmurlar. Valideynlər, gənclər, xüsusən də qadınlar daha çox maariflənir, zorakılığa qarşı mübarizədə səslərini qaldırmaqdan çəkinmirlər. Zorakılıqla üzləşən insanların bizə müraciət etməsi, dəstək istəməsi bizim üçün ən böyük uğurlardan biridir.

Qarşıda zorakılığın qarşısının alınması, gənclərin hüquqlarının müdafiəsi, qadınların cəmiyyətə inteqrasiyası ilə bağlı yeni layihələr həyata keçirməyi planlaşdırırıq. Ən böyük məqsədimiz isə maarifləndirməni daha geniş miqyasda aparmaq, istəyimizi, məqsədimizi daha çox insana çatdırmaqdır.

***Zərifə HÜSEYNOVA***
***XQ***

*Beynəlxalq həyat*

**Avropa İttifaqının sanksiyalar üzrə nümayəndəsi Devid O'Sallivanın Vaşinqtona səfəri Qərbin Rusiyaya qarşı sanksiya siyasətində yeni və mühüm bir mərhələnin başlanğıcını qoyur. Bu görüşün əsas məqsədi ABŞ və Aİ-nin sanksiya təzyiqini koordinasiya etmək, Moskvanın iqtisadi imkanlarını məhdudlaşdırmaq üçün birgə və daha təsirli mexanizmlər hazırlamaqdır. Bu addım Qərb ittifaqının bu məsələdə fikir ayrılıqlarını kənara qoyaraq, daha sıx əməkdaşlığa hazır olduğunu göstərir.**

# Qərb sanksiyalarının "ikinci faza"sı




ABŞ Prezidenti Donald Trampın "ikinci faza sanksiyalara" hazır olması barədə açıqlaması bu əməkdaşlığın gələcək istiqamətini müəyyənləşdirir. Onun "birinci faza" kimi təqdim etdiyi addım Hindistanın Rusiya neftindən imtinasına nail olmaq üçün tətbiq edilən tarif siyasəti idi. Trampın məntiqinə əsasən, yüksək gömrük rüsumları Hindistan hökumətini ABŞ bazarına çıxışla Rusiya neftindən əldə olunan gəlir arasında seçim etməyə məcbur edəcək. Bu təzyiq Rusiyanın mühüm bazardan məhrum olmasına, büdcə gəlirlərinin azalmasına və nəticədə Kremlin Ukraynaya qarşı imkanlarının zəifləməsinə xidmət edəcək. Bu siyasətin uğur qazanacağı təqdirdə, ABŞ eyni strategiyanı Rusiyanın digər mühüm ticarət tərəfdaşlarına, məsələn, Çinə qarşı da tətbiq etməyi nəzərdən keçirə bilər.

Vaşinqton və Brüsselin təşəbbüslərinə paralel olaraq, BRİKS ölkələrinin liderləri də iki saat davam edən onlayn müzakirə keçiriblər. Rəsmi açıqlama verilməsə də, müşahidəçilər bu görüşün ABŞ-ın tarif təzyiqlərinə qarşı kollektiv bir cavab hazırlamaq ehtimalını gündəmə gətirdiyini vurğulayırlar. Əgər bu baş verərsə, BRİKS tarixində ilk dəfə iqtisadi təzyiqlərə qarşı birlik nümayiş etdirmiş olacaq. Lakin mütəxəssislər, üzv ölkələr arasında iqtisadi maraqlar və siyasi mövqelər fərqli olduğu üçün belə bir perspektivə şübhə ilə yanaşırlar. Hər bir ölkənin öz daxili problemləri var və ABŞ bazarını tamamilə itirmək riski onları kollektiv qərardan çəkindirə bilər.

Brüsseldə keçirilən brifinqdə Avropa Komissiyasının nümayəndəsi Olaf Gillin Aİ-nin yeni sanksiya paketi üzərində işlədiyini təsdiqləməsi gələcək addımların əsaslılığını göstərir. Bu, bir tərəfdən Avropa İttifaqının Rusiyaya qarşı 19-cu sanksiya paketi, digər tərəfdən isə Donald Trampın rəhbərliyi dövründə ABŞ-la birgə hazırlanacaq ilk sanksiya paketi kimi diqqət çəkir. "Reuters" agentliyinin məlumatına görə, bu yeni məhdudiyyətlər Rusiyanın sanksiyalardan yayınmasına kömək edən Mərkəzi Asiya ölkələrinin bəzi banklarını da əhatə edə bilər. Bu, sanksiyaların "ikinci dərəcəli" (secondary sanctions) təsirlərini genişləndirəcək və Rusiya iqtisadiyyatının xarici əlaqələrini daha da məhdudlaşdıracaq.

Mütəxəssislər qeyd edirlər ki, Qərbin Rusiyaya qarşı ən sərt sanksiyaları artıq tətbiq olunub və hazırda əsas məqsəd qısamüddətli deyil, uzunmüddətli təsirdir. Tarixi təcrübə (İran, Kuba, Venesuela nümunələri) göstərir ki, sanksiyaların ən dağıdıcı nəticələri illər sonra özünü göstərir. Belə ki, Qərb texnologiyalarına çıxışın məhdudlaşdırılması Rusiya iqtisadiyyatının modernləşməsini dayandıracaq. Bu, neft-qaz sektorundan asılılığın daha da artmasına və rəqəmsal, yüksək texnoloji sahələrin zəifləməsinə səbəb olacaq. Bundan başqa, müdafiə sənayesi üçün lazım olan komponentlərin idxalı məhdudlaşdırıldıqca, Rusiyanın hərbi imkanları getdikcə zəifləyəcək. Yeni və daha mürəkkəb silah sistemlərinin istehsalı çətinləşəcək. Eyni zamanda, sanksiyalar xarici investisiyaları və beynəlxalq əməkdaşlığı məhdudlaşdıraraq, Rusiyanın iqtisadi inkişaf imkanlarını ciddi şəkildə azaldacaq. Bu, uzun müddətdə həyat səviyyəsinin aşağı düşməsinə və sosial gərginliyin artmasına səbəb ola bilər.

Müşahidəçilərin sözlərinə görə, sanksiyaların təsiri tədricən hiss olunacaq və Rusiyanın gələcək illər boyu davamlı inkişafına mane olacaq. Növbəti addımlar Rusiyanın maliyyə sistemini, enerji daşıyıcılarının satışını və üçüncü ölkələrlə əməkdaşlığını hədəf alaraq, Moskvanın iqtisadi manevr imkanlarını daha da daraldacaq. Bu, Ukrayna münaqişəsinin gələcəyi üçün mühüm bir amil olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# "Kəlbəcər" tankerinin hesabı – 385 min ton

**"Azərbaycan Xəzər Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) "Kəlbəcər" tankerinin istismara verilməsindən 4 il ötür.**

ASCO-dan verilən məlumata görə, ötən müddətdə bu gəmi ilə müxtəlif limanlara, ümumilikdə, 61 səfər həyata keçirilib. Həmin səfərlər çərçivəsində tankerlə 384 min 443 ton neft və neft məhsulları daşınıb. Xatırladaq ki, hazırda xarici sularda üzən "Kəlbəcər" gəmisinin yükgötürmə qabiliyyəti 7,8 min ton, uzunluğu 141, eni isə 16,9 metrdir.

"Azərbaycan Xəzər Gəmiçiliyi"nin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunan "Kəlbəcər" tankeri 2021-ci il sentyabrın 10-da Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. Bütövlükdə, Onu indiyədək zavodda ASCO üçün 4 tanker tikilib və təhvil verilib. Hazırda isə daha 3 tankerin inşası davam etdirilir.

***XQ***



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 193 (30887) 11 sentyabr 2025-ci il, cümə axşamı

## İDMAN

### Çimərlik voleybolçularımız Avropa çempionatında



**Dünən Çimərlik voleybolu üzrə 18 yaşadək qız və oğlanların Avropa çempionatında təsnifat oyunları keçirilib. İtaliyanın Coriqliano Rossano şəhərində təşkil olunan yarışda Azərbaycanın oğlanlardan (İbrahim Məmmədov/Muhammad Aslanlı) ibarət komandası təsnifat mərhələsində Serbiya millisi ilə qarşılaşıb. Görüş yığmamızın 2:0 (21:10; 21:15) hesablı qələbəsi ilə başa çatıb. Bununla da komandamız Avropa çempionatında əsas mərhələyə yüksəlib.**

Qeyd edək ki, çempionatda ölkəmiz bir qız və bir oğlan komandası ilə təmsil olunur. Qızlardan ibarət milli komanda yarışa əsas mərhələdən qoşulacaq. Bu raundun oyunlarına bu gün start veriləcək.

### Şahmatçılarımız vyetnamlı yaşıdlarına qalib gəliblər



**Azərbaycan və Vyetnamın şahmat millilərі arasında onlayn yoldaşlıq görüşü keçirilib.**

8, 10 və 12 yaş kateqoriyasında yığma üzvlərinin iştirak etdiyi yarış Azərbaycan komandasının 7:5 hesablı qələbəsi ilə başa çatıb.

Yığmanın heyətində Nazlı Rüstəmli, Mehriban Əhmədli, Fatimə Mirzəliyeva, Kənan Babasoy, Atilla Orman və Nurlan Əzizli çıxış edib.

Qeyd edək ki, yoldaşlıq görüşü Qazaxıstanda keçiriləcək Avropa çempionatına hazırlıq məqsədi daşıyıb.

### Erlinq Holannın rekordu



**Norveç millisinin hücumçusu Erlinq Holann XXI əsrin rekorduna imza atıb. 25 yaşlı futbolçu buna komandasının DÇ-2026-nın seçmə mərhələsinin oyununda Moldovaya qalib gəldikləri (11:1) görüşdə vurduğu 5 qolla nail olub.**

Penta-trik edən forvard adını tarixə yazdırıb. Holann bu əsrdə Dünya çempionatlarının seçmə mərhələsində bir qarşılaşmada 5 qol vuran ilk oyunçu olub. Bu həm də 1977-ci ildən sonra belə görüşlərdə ilk penta-trikdir. Həmin vaxt Hans Krankl Malta ilə matçda rəqib qapısına 5 dəfə yol tapıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

***✓ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 13 saylı Ərazi Vergilər İdarəsinin Mikro və kiçik sahibkarlıq subyektlərinin monitorinqi şöbəsinin Dövlət Vergi Müfəttişi Rüstəmli Vüsal Etibar oğluna məxsus AR seriyalı 059341 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

*Bakı kəndlərinə səyahət*

# Mərdəkan – mərdlər məkanı

**XQ-nin səhifələrində bundan əvvəl “Bakı kəndlərinə səyahət” rubrikası altında sizi Pirşağı və Buzovna kəndlərinin tarixi, mədəniyyət abidələri, tanınmış insanları, burada aparılan tikinti-quruculuq işləri barədə söhbət açmışdıq. Bu dəfə üz tutduğumuz ünvan isə Bakının qədim kəndlərindən biri (1933-cü ildən qəsəbə statusu alıb) Mərdəkandır.**



Adından da göründüyü kimi, Mərdəkan mərd insanların yurdu deməkdir. Onun tarixi qədimdir. Orta əsr alim və səyyahları əsərlərində dəfələrlə Mərdəkanın adını çəkiblər. O ki qaldı, mərdəkanlıların mərd, xeyirxah, qonaqpərvər insanlar olmalarına, buna heç kəsin zərrə qədər şübhəsi olmasın. Abşeronun bütün kəndlərində olduğu kimi, mərdəkanlılar da ata-babadan ruzili, bol süfrəli, qonaq-qaralı insanlardır.



Məmləkətimizin ən qədim qalalarından biridir dördkünc Mərdəkan qalası! Möhtəşəm qaladır. Hündürlüyü 22 metr, divarlarının qalınlığı aşağı hissədən 2,1, yuxarıdan isə 1,6 metrdir. XIV əsrin ortalarında Şirvanşah Mənuçöhrün oğlu Şirvanşah Axsitan özünün düşmən üzərindəki parlaq qələbəsi şərəfinə ucaltdırıb. Qalanın həyətində qədim daş kitabələr, daşdan yonulmuş və saxsı əşyalar, qablar var.

Xəzərin qoynuna sığınan Mərdəkan havası saf, təmiz, torpaqları münbitdir. Buranın ənciri, üzümü bal dadır. Hazırda AMEA-nın Dendrologiya İnstitutunun yerləşdiyi ərazi 1895–1920-ci illərdə neft milyonçusu Murtuza Muxtarovun şəxsi bağı olmuşdur. 1910-cu ildə Muxtarov xanımı ilə Avropaya səyahət etdiyi dövrdə İtaliyanın Venesiya şəhərindəki binaların arxitekturasına valeh olmuş və onlara oxşar bir saray bu bağda bir il ərzində tikdirmişdir.

Görkəmli rus şairi Sergey Yesenin də təlatümlü taleyində Mərdəkanla bağlı məqamlar var. 3 dəfə Bakıda olmuş Yesenin sonuncu dədə 2024-cü ildə o dönəmin yüksək ranqlı məmurlarının himayəsi altında 2 aydan çox Mərdəkanda yaşamışdır. Yeseninşünaslar bu dövrü onun yaradıcılığının “qızıl dövrü” adlandırırlar. 1975-ci ildə Mərdəkanda Yesenin ev-muzeyi açılıb.

Xalq rəssamı Maral Rəhmanzadə isə necə deyərlər, əsl Mərdəkanlı qızıdır. 1916-cı ildə bu kənddə zərgər ailəsində anadan olub. Çox çətin, ağır uşaqlığı olub. Repressiya illərində atasını “Vətən xaini” kimi həbs ediblər. Gənc, gözəl Maralın sevib könül verdiyi nişanlısını ilə toylarından bir həftə sonra müharibəyə aparıblar. Rəssam ömrünün sonuna kimi həyat yoldaşının yolunu gözləyib.

Maral Rəhmanzadə çox istedadlı rəssam idi. “Bizim Xəzərdə”, “Azərbaycan qadınları”, “Doğma Vətənim”, “Sumqayıt-Rustavi” və digər əsərləri dünyanın müxtəlif ölkələrində 50-dən çox sərgidə nümayiş olunub. Rəssamın tablolarında Abşeronun halal insanları, Naxçıvanın əzəmətli dağları, Qubanın bəhərli bağlarını, qədim Lənkəran meşələri, bir sözlə, bütün Azərbaycan təsvir və tərənnüm olunur.

Böyük xeyriyyəçilik əməlləri ilə xalqımızın yaddaşında özünə iz qoymuş neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin nəşi Mərdəkan qəbiristanlığında uyuyur. 1920-ci ildə Sovet Rusiyası Azərbaycanı işğal edəndən sonra onun bütün mülkünü əlindən almışdılar. Nəriman Nərimanovun göstərişinə əsasən Tağıyevə mülk seçmək imkanı verilir. O isə özünün artıq əlindən alınmış keçmiş mülkiyyətlərindən Mərdəkandakı bağ evini seçib. Tağıyev həmin evdə təxminən 4 il yaşayıb.

buna hələlik ehtiyac yoxdur. Mərdəkan haqqında çox yazılıb, deyilib. Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində Mərdəkan qəsəbəsi günbəgün abadlaşır və gözəlləşir.

Bəli, Mədəkan gözəldir. Burada hər daşın, hər ağacın, gül kolunun öz hekayəsi var. Mərdəkanın ruhunu daş divarların arxasında gizlənən qədim bağ evləri, əncir ağacları, yay axşamları küləklərlə oynaşan çinar yarpaqları yaşadır. Bir nəfər ahıl mərdəkanlı bizimlə söhbbəti zamanı fəxrlə söylədi ki, bu gün paytaxtda ən çox qızılgüllər məhz Mərdəkandakı park və xiyaban-




Mərdəkan haqqında çox danışmaq, yazmaq olar. Üstəlik, nəzərə alsaq ki, bu kiçik qeydlərin xanım həmmüəllifi əslən mərdəkanlıdır, bu gün də orada yaşayıb yaradır, necə deyərlər, bu gözəl məkan barədə bir dastan belə bağlamaq mümkündür. Sadəcə,

da becərillir. Olsun. Mərdəkana bütün güllər yaraşır, amma al, ağ qızılgüllər bu ecazkar diyara xüsusi bir gözəllik bəxş edir!

***Nurəngiz ADİLQIZI,***
***Məsaim HACIXANLI***
***XQ***

# Tibbi radiasiya müalicə edir

## *Qaydalar pozulanda isə sağlamları da xəstələndirir*

**Xarici ölkə mətbuatının yazdığına görə, hazırda dünyada onkologiyanın 30 il əvvələ nisbətən yüksələn xətt üzrə kritik həddə çatmasının səbəbləri araşdırılır. Alimlər, hətta, bundan sonrakı 30 ilə onkoloji xəstə sayının statistikaya uyğun olaraq 2 dəfə artacağını proqnozlaşdırırlar. Amma açığı onkologiya sahəsinin həkimlərinə xəstəliyin səbəblərini öyrənmək o qədər maraqlı deyil.**



Alimlər xəstələrin çoxalmasının bir səbəbini 1980-ci illərdən bu yana tibbi radiasiyanın artmasında görürlər. Yəni xəstələr müayinələr zamanı KT, rentgen və digər analoji müayinələr zamanı normal dozadan 6 dəfə çox şüalanma dozası alırlar.

ABŞ-da statistika göstərir ki, ölkədə 380 milyon diaqnostik və radioloji prosedur həyata keçirilib ki, bunun da 18 milyonu “nüvə” təbabətində açıq şüalanma və radioaktiv maddələrin istifadəsi sahəsində olub.

“1980-ci ildə amerikalıların radiasiyaya məruz qalmasının yalnız 15 faizi tibbi cihazlardan, qalan hissəsi isə ilk növbədə ətraf mühitdən gəlirdi. Tibbi radiasiya son 20 ildə 700 faiz artıb və hazırda Amerikada ən vacib radiasiya növüdür”.

Amerikalı professor Mettler vurğulayır ki, nəzəri olaraq bu, idarə olunan şüalanmadır. “Biz atom elektrik stansiyalarından gələn radiasiyanı tənzimləyirik ki, insanlar həyati təhlükə yaradan radiasiya dozaları almasınlar. Amma nədənsə tibbi radiasiya tənzimlənməmiş qalır. Bu arada, o, radiasiyanın ən vacib mənbəyidir. Və nə qədər almağınız tamamilə ailə həkiminizdən və ya xəstəxanadakı həkimlərdən asılıdır”.

Professor Mettlerin hesabatı “Radiology” jurnalında dərc olunub. Mövzu ilə bağlı əvvəlki tədqiqatlar artıq göstərmişdir ki, ABŞ-da bütün xərçəng hadisələrinin iki faizinə qədəri tibbi radiasiyaya məruz qalır.

Elə Azərbaycanda da vəziyyət ürəkaçan deyil. Xəstəxana, klinikaların sayı artır, hər biri də müasir rentgen, MRT və KT cihazları ilə təmin olunur. Klinikalar yaşayış binalarındadır, izolyasiya qanunları bəzən pozulur, özəl və dövlət xəstəxanaları. xüsusən, sığorta tətbiqindən xəstələri daha çox, yeri gəldi, gəlmədi, ən xırda şübhədə belə radioloji müayinəyə yazır. Klinikalarda KT, MRT, USM, rentgen kabinetlərində ucsuz-bucaqsız növbələr var. Elə xəstə var, il ərzində ürəyi istədiyi qədər radioloji müayinədən keçir. Bu da alimlərin dediyi kimi onların şüalanma dozasını artırır.

***Z.HÜSEYNLİ***
***XQ***

## Hava

### Payız gəlməmiş, sulu qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətdən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 19-23, gündüz 25-28 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcəyi proqnozlaşdırılır. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-22, gündüz 27-30, dağlarda gecə 8-13, gündüz 14-17 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3458
SİFARİŞ 1740
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır 00:00